İsmayıl Zəngilanlı



*Mübariz ol, Polad ol,*
*Vətəninə sadiq ol.*
*Yaddaşlarda qalan ol,*
*Heykəlləşən oğul ol.*

# ƏDALƏT ZƏFƏR ÇALDI!

İSMAYIL ZƏNGİLANLI

Azf 316403

# ƏDALƏT ZƏFƏR ÇALDI

Azərbaycan milli
kitabxanası

Bakı-2021

Baş redaktor: **Hacı Fəridə Ləman**
Redaktor: **Hacı Zaməddin Ziyadoğlu**
Məsləhətçi: **Güllü Eldar Tomarlı**
Kompüter yığımı: **Bəhruz Seyidli**
Korrektor: **Bəhruz Dadaş oğlu**

"Ədalər zəfər çaldı" kitabı İsmaylı Zəngilanlının 16-cı kitabıdır. Vətən müharibəsi başlayanda o da qələmini silaha çevirmiş və 44 gecə və gündüz qəzəb və sevinclə qələbəmizi tərənnüm edən şeirlər yazıb, bu kitabı ərsəyə gətirmişdir.

Azərbaycan Yazıçılar Birliyinin üzvi, "Qızıl Qələm" mükafatı laureatı, "Azərbaycan Bayrağı" mükafatı laureatı, Xalqının Nüfuzlu Ziyalıları fəxri adlarına layiq görülən şair artıq haqq ədalət zəfər çaldığına görə Ulu Tanrıya minnətdarlığını bildirir və doğma yurduna qayıtmağı səbirsizliklə gözləyir.

Şair bu gündə xalq arasındadır. Tanrının ona bəxş etdiyi xüsusi bacarıq sayəsində o "sınıqşı-həkim" kimi minlərlə "sınıq, çat, çıxıq" zədəsi almış insanlara kömək olur və olmaqdadır. Şairə yeni-yeni nailiyyətlər arzulayırıq.

Tel.: 077-329-85-41; 051-359-84-41

**İSBN: 978-99-52-37-396-12**



## ÖN SÖZ

Bismillahir Rahmənir Rahim! – deyib ön söz xeyir-duasını yazmaq üçün uzaq bir yola süvar olaq, əziz poeziyasevərlər!

Bir şeirimi oxusalar,
Torpaq ətri qoxusalar,
Yurda çələng toxusalar,
Qağa, deməк yaşamışıq!

Məhz, nə vaxtsa yazdığım şeirimin bir bəndi, məni – bu yazını yazmağa tələsdirdi...

Əziz oxucu!

Şair İsmayıl Zəngilanlının bu kitabına ön söz xeyir-duası yazmaq da mənə qismət oldu... belə ki, XXI əsrin yenicə başlamış illərindən birində, mənim ziyalı elqızım, filologiya üzrə fəlsəfə doktoru və Həcc ziyarətimdə yol-yoldaşım olmuş – Fəridə vasitəsilə tanış və sonra dost-qardaş olduğum – nurlu bir insan – İsmayıl kişiyə mənəvi bir dəstəyimin vacib olduğunu rica etdi!

O, həmin gündən bu, əsl Azərbaycan oğlunu qəlbimə simzar seçdim, həyatın sınanmış simsarı!

Əziz oxucu!

İsmayıl Ələbbas oğlu İsmayılov - (ədəbi təxəllüsü İsmayıl Zəngilanlı) – 1 iyul 1941-ci ildə Azərbaycanın Zəngilan rayonunun Genlik kəndində dünyaya göz açıb. Kəndli balasıdır. O, əlinə qələm aldığı andan dünyaya – şair gözüylə baxıb. Onun indiyə kimi nəşr olunmuş 15 kitabını oxumuş və poeziyaya bələnmiş duyumuna bələd olduğum üçün – deyə bilərəm ki, İsmayıl kişi hər gününü şeiriyyətlə tarixləşdirmişdir. Uşaqlıq, gənclik xatirələrini sətirlərə köçürmüş, unudulmaz kənd həyatının hər anını əbədiləşdirə bilmişdir.

Təbii ki, poetik duyğularla süslənmiş hər sətir – sevinc və kədərin məhsuludur!

İsmayıl Zəngilanlının və minlərlə azərbaycanlının taleinə yazılmış didərginlik həyatı heç bir zaman unudulmayan kədərdir. 30 oktyabr 1993-cü il tarixindən öz doğma ocağından didərgin düşən, acılı-şirinli gənclik illəri ilə əbədi vidalaşan ŞAİRİN şeirlərində kədərin simfoniyasına qovuşursan. O illəri göz yaşlarsız xatırlamaq qeyri-mümkündür... bu, 30 ilə yaxın bir müddət ərzində doğmalarının məzarlarını belə ziyarət edə bilməyəsən.

İsmayıl Zəngilanlı yalnız şeirlər, poemalar yazmaqla kifayətlənməmiş, övliya Seyid Həsən Ağaya həsr etdiyi "Bir ömrün möcüzələri" adlı – həyat hekayəsi kitabını da yazmış, böyük oxucu rəğbəti qazanmışdır.

Şairin daha bir tarixi araşdırmasının nəticəsi olan "Həzrəti Yusif və Züleyxa" poeması da ayrıca bir kitab şəklində işıq üzü görmüş, müəllifinə böyük nüfuz qazandırmışdır.

Son illərdə qələmə aldığı – "Vətənimdə - vətənsizəm" (2015), "Mübariz olaq" (2019),

"Vətənziz yaşamaq olmur" (2020) kitablarını və dövrü orqan olan - "Müstəqil Respublika" qəzetində dərc olunan çoxsaylı şeirlərini, ithaqlarını, nəzirələrini oxumuş, bir qələm əhli kimi, dəqiq deyə bilərəm ki, müasir zəmanəmizin salnaməsini yazan ən istedadlı ŞAİRLƏRİMİZDƏN olan İsmayıl Zəngilanlıdı!

Əziz oxucu!

Mən qəsdən onun şeirlərindən bu "ÖN SÖZ"ümdə misal gətirmirəm. Çünki, bilirəm ki, elə oxucular var ki, öz sözlə kifayətlənərək, İsmayıl Zəngilanlının bu kitaba vəsiqə almış şeirlərini diqqətlə oxumayacaqlar.

İndiki zəmanəmizin mobil telefonlara başlar elə qarışıb ki, şeiriyyətə vaxt ayırmaq yaddan çıxıb artıq.

Möhtərəm poeziyasevərlər!

Oxuduğunuz kitabın adı da məcazi məna daşıyır və mənim ön sözə seçdiyim başlıq da... bu ilin iyulunda ömrü 80 yaşı haqlayan İsmayıl kişi, yazımın əvvəlində qeyd etdiyim kimi, əzablı-kədərli ömür yolu keçib, ancaq heç bir kəsin qarşısında əyilməyib – sınmayıbdır. Bu, çox kövrək qəlbli İNSAN – həmişə mübariz olaraq,





nikbin ümidlərlə yaşayır və ... doğma ocağı Qarabağın azad olunduğu – SEVİNCİ, xalqla birlikdə dadıbdır!

20.10.2020-ci ildə unudulmaz Zəngilanı yağı düşmən tapdağından azad olunubdur.

Ali Baş Komandanımız – İlham Heydər oğlu Əliyev cənablarının komandanlığı ilə - Qarabağ və ətrafında olan rayonlarımız, Naxçıvanın və Qazağın işğal altında olan kəndləri erməni vandallarının əsarətindən azad olundu!

Bu yazımı da mən, öz söz kimi: - kədərli və sevincli illərin qovşağında görüş prizması altında yazmışam. Allah, şair İsmayıl Zəngilanlıya və xalqımıza həmişə sevinc qismət eləsin! Onsuz da həyat özü – bir sınaqdı! Həyatın imtahanlarından qalib çıxanlar zəfər çalıblar. Poeziya da belədir! Peyğəmbərimiz Həzrəti Məhəmməd (s.ə.s.) Həzrət Əli haqqında dediyi bir kəlam, məhz, bugünkü günümüzlə səsləndiyinə görə yadıma düşdü. O, buyurub: - Əlinin Xəndək döyüşündəki zərbəsi, bütün məxluqatın ibadətindən üstündür!

Ali Baş Komandanımızın qələbəsi də bu qəbildəndir!

Şair İsmayıl Zəngilanlı isə bu tarixi qələbəmizi tarixin yaddaşına şeiriyyətləri ilə köçürübdür!

Dünya tarixində - Azərbaycan yeganə ölkədir ki, onun sərhədləri öz tarixi torpaqları ilə əhatə olunub, başqa dövlətlərin ərazisindən bir qarış belə torpaq mənimsəməyibdir.

Azərbaycan – öz vətəndaşlarına ona görə əzizdir ki, onun hər qarış torpağı – ŞƏHİDLƏRİN qanıyla suvarılıbdır!

Əziz İsmayıl Zəngilanlı şeiriyyətini sevərlər!

Hər bir işin əvvəli-axırı var! Biz də gəlib çatırıq yekun fikirlərimizə. Bu yazımda şairin "Getməyim gəlir" şeirindən bir-iki bəndi xatırlatmaq istərdim:

Bu söz – ürəyimdən gələn sözümdü,
Piyada gedərəm, çoxdan arzumdu,
Doğma kəndim mənim iki gözümdü,
O doğma yurduma getməyim gəlir.

Doğma torpağımda... ölməyim gəlir!
İsmayılın burda goru çatlayar,
Kim yas tutub bu yazığı ağlayar,
Anam orda mənə bir yer saxlayar,
O doğma yurduma getməyim gəlir.
Doğma torpağımda... ölməyim gəlir!

İsmayıl Zəngilanlı ömrünün çox hissəsini Allahın ona nəsib etdiyi sınıqçı-çıxıqçı sənət ilə insanlara, el-obasına xidmət edib və bu xeyirxah işini davam etdirmək niyyətindədir. Allah, dəyərli şair qardaşım İsmayıl qağama uzun, sağlam və şərəfli ömür versin ... və heç olmasa el dilində deyildiyi kimi, 100-ü haqlasın.

Yekun olaraq, mən isə deyirəm: -

Varaqlansa həzin yaddaş,
Yada salsa bircə sirdaş,
Giləlnsə ... gözlərdə yaş,
Qağa, demək yaşamışam!!!

İsmayıl qağa! Bu kitabınızın qədəmləri uğurlu olsun!

***Hörmətlə,***

***Hacı Zaməddin ZİYADOĞLU***
***AYB və AJB-nin üzvü,***
***Səməd Vurğun mükafatı laureatı,***
***şair-dramaturq.***
***30.01.2021-ci il.***





# VƏTƏNPƏRVƏRLİK HAQDA

***Vətənsiz olan insan,***
***Susuz balıq kimidir.***
***Vətəni sevməyən kəs,***
***Kəfənlənmiş diridir.***

***Torpaq – ana deməkdir,***
***Torpaq – vətən deməkdir,***
***Torpaq – həyat deməkdir,***
***Torpaq – qeyrət deməkdir.***

***O torpağı əkməsən,***
***Oğul demə, özünə.***
***Vətəndaşam söyləyib,***
***Öyünmə, öz-özünə.***

***Bu həyatın varlığı,***
***O torpağa bağlıdır.***
***Torpağı sevən hər kəs,***
***Allahına bağlıdır.***

## Bu qardaşlıq bayramıdır

*Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının yüz illiyi münasibətilə*

Kökümüz ən uzaq illərə gedir,
Azərbaycan türklə birgə yol gəlir,
Ayrılmaz qardaşdı, doğru yol seçir,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Bir ürəkdə, iki dövlət yerləşir,
Bir millətdə iki dövlət cəmləşir,
Dar ayaqda, şad günündə birləşir,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Gözü götürməyən, mənfur qonşular,
Bizim Bakımıza tamah saldılar,
Aranı Arsenlər, yaman qatdılar,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Yüz il əvvəl, od ələndi Bakıya,
O daşnaqlar, hücum etdi Bakıya,
Hər yandan, Aramlar axdı Bakıya,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Bakı nefti çox gözləri tökürdü,
Arsız erməninin belin bükürdü,
Tamah onu, bu məkana çəkirdi,
Çiçəklənən Azərbaycan-Türkiyə.





Bakı qoçuları, qalxdı ayağa,
Türk qardaşlar yetişdilər, haraya,
Sözlərini demək üçün dığaya,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Nuru Paşa qoşun çəkdi Bakıya,
Elə bil ki, günəş doğdu Bakıya,
Yeni həyat gəldi bizim Bakıya,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Ənvər Paşa tez yetişdi köməyə,
Qoşun ilə burda sözün deməyə,
Gəldi, erməninin dərsin verməyə,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Oda qaladılar, o yersizləri,
Qırdılar, milçək tək o arsızları,
Qovdular, Bakıdan o qansızları,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Təmizləndi daşnaqlardan Bakımız,
Qardaşlar qoymadı, bata adımız,
Paşalara minnətdardı, xalqımız,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Hacı Zeynəlabdin görüşə gəldi,
O Nuru Paşaya təşəkkür etdi,
Paşa şərəfinə, ziyafət verdi,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Ermənilər düşdü türkün toruna,
Bakının işləri düşdü yoluna,
Dedi, çıxma bir də, türkün yoluna,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Səs düşdü odlarda yanır Lənkəran,
Dedilər talandı, bizim Lənkəran,
Ermənıyə məruz qalıb Lənkəran,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Xəlil Paşa çəkdi qoşunun ora,
Gördü ki, Lənkəran düşübdü dara,
Saldı erməni̇ni kor-peşman yola,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Göyçaya, Ağdaşa kömək etdilər,
Ordan da, Yevlağa səfər etdilər,
Ermənının yolun tamam kəsdilər,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Sözün dedi Qafqaz İslam Ordusu,
Bakımıza arxa oldu hamısı,
Şəhid verdi, sarsılmadı ordusu,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Baş əyirik, şəhid olan əsgərə,
Türk elinə minnətdarıq min kərə,
Biz borcluyuq, Nuru Paşa tək ərə,
Çiçəklənən Azərbaycan-Türkiyə.





Yüz ildir ki, yaşayırıq mehriban,
Belə gözəl bir millətə can qurban,
O vaxtdan himnimiz olubdu bəyan,
Çiçəklənən Azərbaycan-Türkiyə.

O vaxtdan yüz ildir bayram edirik,
Türk eliylə bir cərgədə gedirik,
Bir millətik, iki dövlət deyirik,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Göyərdi Heydərlə-Atatürk əhdi,
Birləşmək olubdur, onların cəhdi,
Biz bir olsaq, artar düşmənin dərdi,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Xalqımız hazırda bayram eyləyir,
Türk elim var olsun, deyib söyləyir,
Əsirgəmir heç vaxt bizdən köməyin,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Xeyli türk əsgəri gəlib bayrama,
Qəliblər ki, bizimlə bir olmağa,
Biz hazırıq, qələbəni çalmağa,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Cüt bayraqlar dalğalandı səmada,
Türk şahinlər ürək çəkdi səmada,
Çəkdi üç rəngli bayraq səmada,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Türk qardaşlar bayram qatdı bayrama,
Qoy səsimiz yayılsın hər bir yana,
Söylədi qardaşıq Azərbaycana,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Xoş sədalar yayılıbdı şəhərə,
Neçə eldən qonaq gəlib şəhərə,
Səmalardan nur ələnir şəhərə,
Çiçəklənən Azərbaycan-Türkiyə.

İlhamla-Ərdoğan dayanıb qoşa,
Qəbul eyləyirlər, paradı qoşa,
Heç vaxt xoş arzular dəyməsin daşa,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Bu qardaşlıq bayramıdı Bakıda,
Böyük hərbi bir bayramdı Bakıda,
Qələbəyə hazırlıqdı Bakıda,
Çiçəklənən Azərbaycan-Türkiyə.

Kökümüz ən uzun illərə gedir,
Azərbaycan türklə birgə yol gəlir,
Ayrılmaz qardaşdı, doğru yol seçir,
Çiçəklənən Azərbaycan-Türkiyə.
15.09.2018





## Bizi qoruyun

Elimin, obamın mərd oğulları,
Yoxlayın sərhəddi, kəsin yolları,
Güclü olsun, oğulların qolları,
Vətənimi yağılardan qoruyun.
Allah sizi, siz də, bizi qoruyun.

Öz postunda sayıq dayan əsgərim,
Sevə-sevə, görüşünə mən gəlim,
Hər birinə salamımı göndərim,
Vətənimi yağılardan qoruyun.
Allah sizi, siz də, bizi qoruyun.

Qarlı dağ var qarşımızda aşmalı,
Dığaları doğma yurddan qovmalı,
Bayrağımı Qarabağdan asmalı,
Vətənimi yağılardan qoruyun.
Allah sizi, siz də, bizi qoruyun.

Bir qarış da, verməк olmaz Arama,
Vətənsizlik köz basıbdır yarama,
Artıq gecikirik, ordum yubanma,
Vətənimi yağılardan qoruyun.
Allah sizi, siz də, bizi qoruyun.

Yerdən-göydən, od ələyin düşmənə,
Hücum edin, tez yetişək vətənə,
Vətənin o dərdi, gəlsin qoy mənə,
Vətənimi yağılardan qoruyun.
Allah sizi, siz də, bizi qoruyun.

Qoyun, Həzilərin sayı çox olsun,
Hər bir əsgər gərək Mübariz olsun,
Düşmənlər qaçaraq, dərbədər olsun,
Vətənimi yağılardan qoruyun.
Allah sizi, siz də, bizi qoruyun.

Xankəndi mənimdir, Şuşa mənimdir,
Kəlbəcər baş tacım, Ağdam gözümdür,
Sizə uğur olsun, doğru sözümdür,
Vətənimi yağılardan qoruyun.
Allah sizi, siz də, bizi qoruyun.

Dünyaya səs salan ordumuz hazır,
Vətənsiz erməni yurdumda gəzir,
Gör neçə vətənsiz, ürəklər əsir,
Vətənimi yağılardan qoruyun.
Allah sizi, siz də, bizi qoruyun.

Vətəni yadlara verə bilmərik,
Vətənsiz sevinib, gülə bilmərik,
Vətənsiz can verib, ölə bilmərik,
Vətənimi yağılardan qoruyun.
Allah sizi, siz də, bizi qoruyun.

Ali Baş Komandan əmrini verər,
Ordumun gücünü erməni görər,
Türkin kim olduğun, bir daha bilər,
Vətənimi yağılardan qoruyun.
Allah sizi, siz də, bizi qoruyun.
18.05.2020-ci il.





## Bizim andımız

Dağ-dağa söykənsə, onda zor olar,
El-elə söykənsə, sözü bir olar,
Düşmən qarşısında güclü ər olar,
Vətənin yolunda budur andımız.
Gərək hər an, həmrəy ola xalqımız.

El bir olsa, dağda ona güc etməz,
Birləşən millətə, sel də, güc etməz,
Vətənin mərd oğlu əsla tükənməz,
Türk eliyik, budur bizim andımız.
Gərək hər an, həmrəy ola xalqımız.

Vətəni qorumaq, imandan gəlir,
Vətəndə yaşayan imana gəlir,
Vətənə məhəbbət ürəkdən gəlir,
Sevirik vətəni, budur andımız.
Gərək hər an, həmrəy ola xalqımız.

Vətəndir, anadır – bizim andımız,
Torpağa bağlıdır, əziz xalqımız,
Bayrağa baş əyir hər bir oğlumuz,
Bayraq əlimizdə olub andımız.
Gərək hər an, həmrəy ola xalqımız.

Birlikdədir qolumuzda gücümüz,
Yumruq kimi birləşibdir xalqımız,
Qarabağı alacaqdır ordumuz,
Onda yerin alacaqdı andımız.
Gərək hər an, həmrəy ola xalqımız.

Ümidimiz ordumuza qalıbdı,
Xalqın səbir kasaları dolubdu,
Sevinəcək vaxta çox az qalıbdı,
Alqışlarda yaşayır bu andımız.
Gərək hər an, həmrəy ola xalqımız.

Al bayrağım Qarabağda olacaq,
Millətimiz arzusuna çatacaq,
Muğam mərkəzimiz Şuşa olacaq,
Budur şüarımız, budur andımız.
Gərək hər an, həmrəy ola xalqımız.
08.10.2020.

## A dünya

Həsrətimiz gözümüzdə sel oldu,
Arzu-ümid ürəklərdə daş olldı,
Günü gündən həyatımız sərt oldu,
Daş üstündə daş qalmadı, a dünya.

Qəmdən köynək geydik, kədərdən şalvar,
Haqdan üzün dönüb, de bilək, nə var,
Hayana baxırsan zülümlərin var,
Daş üstündə daş qalmadı, a dünya.

Boşaldı el-oba, talandı şəhər,
İnsanın qəlbini tez tutur qəhər,
Hamı baş girləyir, indi bir təhər,
Daş üstündə daş qalmadı, a dünya.





Azf. 316403

İnsaflar gödəlib, mürvət azalıb,
Başbilənlər aramızdan azalıb,
Gözəlliklər öz-özünə azalıb,
Daş üstündə daş qalmadı, a dünya.

Hamı indi vurum-vurum danışır,
Haqdan, ədalətdən əsla danışmır,
Düzə çəkənlərlə heç vaxt barışmır,
Daş üstündə daş qalmadı, a dünya.

Ölüm saçan silah satır hər kəsə,
İşə düşür, dəhşət verir hər kəsə,
Oğul dağın bəhrə verir hər kəsə,
Daş üstündə daş qalmadı, a dünya.

Qorxmur Allahından, çıxıb yolundan,
O yaramaz, bezib artıq canından,
Daha xəbər tutan yoxdur halından,
Daş üstündə daş qalmadı, a dünya.

Kişi olan, qırğın salmaz vətənə,
Vətən – vətən olmaz gəldi-gedənə,
Vətən bir məskəndir, dərdin çəkənə,
Daş üstündə daş qalmadı, a dünya.
14.07.2020.

Azərbaycan milli
kitabxanası

## Şuşamız

Neçə ildir həsrətini çəkirik,
Gözümüzdən abı-leysan tökürük,
Biz sevgi yerinə qüssə əkirik,
Qarabağın qalasıdır, Şuşamız.
Şuşasız çatmayır, bizim havamız.

O torpağın havası bir başqadır,
Üzeyirin muğamatı başqadır,
Cabbarın sədası hələ ordadır,
Qarabağın qalasıdır, Şuşamız.
Şuşasız çatmayır, bizim havamız.

Orada ucalıb Seyidin səsi,
Qalıb qulaqlarda Bülbülün səsi,
Hər kəsi mat edib, o Xanın səsi,
Qarabağın qalasıdır, Şuşamız.
Şuşasız çatmayır, bizim havamız.

Əsir düşüb Natəvanın muzeyi,
Kəsilibdir Şuşamızın kələyi,
Ermənin in gözün tutar çörəyi,
Qarabağın qalasıdır, Şuşamız.
Şuşasız çatmayır, bizim havamız.

İsa bulağından gör kimlər içir,
Havasın dığalar ciyərə çəkir,
Millətim Şuşasız qanlı-yaş tökür,
Qarabağın qalasıdır, Şuşamız.
Şuşasız çatmayır, bizim havamız.





İndi orda xarıbülbül gül açmır,
Qızılgül, yasəmən ətrini saçmır,
Natəvan bulağı o vaxtdan axmır,
Qarabağın qalasıdır, Şuşamız.
Şuşasız çatmayır, bizim havamız.

Ali Baş Komandan onu alacaq,
Güclü ordum orda zəfər çalacaq,
Şuşamız əbədi bizim olacaq,
Qarabağın qalasıdır, Şuşamız.
Şuşasız çatmayır, bizim havamız.
10.08.2020.

## Gərək biləsən

Çox qorxaq adamsan, ey yazıq dığa,
Biləsən, harınlar çatmayır qırxa,
Hər yoldan ötənə demisən arxa,
Çoxdan uduzmusan, gərək biləsən.
Özün də, bilmirsən, hara girəsən.

Səni tumarlayıb çəkdilər tava,
Aldadıb Livandan saldılar yola,
Bilmədin düşərsən orada tora,
Çoxdan uduzmusan, gərək biləsən,
Özün də, bilmirsən, hara girəsən.

Gəldiyin bu ellər oda dönübdü,
Can verir erməni, yaman solubdu,
O, çoxdan gönünü suya veribdi,
Çoxdan uduzmusan, gərək biləsən.
Özün də, bilmirsən, hara girəsən.

Cəmi yüzcə ildir, guya dövlətdi,
Dağda-daşda, yaşayana şöhrətdi,
Onun təxribatı çox fəlakətdi,
Çoxdan uduzmusan, gərək biləsən.
Özün də, bilmirsən, hara girəsən.

Gələndə dilənə-dilənə gəlib,
Niyə Qarabağa meylini salıb,
Bilmirəm, başına onu kim salıb,
Çoxdan uduzmusan, gərək biləsən.
Özün də, bilmirsən, hara girəsən.

Erməni olsan da,yazığım gəlir,
Sabunlu olmaqdan çox xoşun gəlir,
Ayağa düşməkdən çox xoşun gəlir,
Çoxdan uduzmusan, gərək biləsən.
Özün də, bilmirsən, hara girəsən.

Min illər əvvəlcə Qarabağ olub,
Neçə bəyə-xana o məskən olub,
Əzəlki adı da, Qarabağ olub,
Çoxdan uduzmusan, gərək biləsən.
Özün də, bilmirsən, hara girəsən.

Arsız-arsız ora mənim deyirsən,
Həmişə aldanıb, daşa gedirsən,
Yer sahibi səni neylər, bilirsən?
Çoxdan uduzmusan, gərək biləsən.
Özün də, bilmirsən, hara girəsən.





Vaxtında baş alıb getsən yaxşıdır,
Ağlını başına yığsan yaxşıdır,
Qarabağ bizimdir, bilsən yaxşıdır,
Çoxdan uduzmusan, gərək biləsən.
Özün də, bilmirsən, hara girəsən.
16.08.2020.

## Xudafərin

Gözün aydın görüşürük,
Adın ucadır, bilirik,
Görüşünə biz gəlmişik,
Sevdik səni, Xudafərin.
Əlimdədir daha əlin.

Xəbər verdin əsirlərdən,
Dayazlardan, dərinlərdən,
Xəbərdarsan çox işlərdən,
Sevdik səni, Xudafərin.
Əlimdədir daha əlin.

İki elin dostu oldun,
Hər bir kəsə yaxın oldun,
Onlar getdi, sən tək qaldın,
Sevdik səni, Xudafərin.
Əlimdədir daha əlin.

Yaddan qorudun özünü,
İtirmədin sən özünü,
Dedin hər kəsə sözünü,
Sevdik səni, Xudafərin.
Əlimdədir daha əlin.

Araz sənə layla çaldı,
Məhəbbətin sənə saldı,
Sənlə birgə gözü doldu,
Sevdik səni, Xudafərin.
Əlimdədir daha əlin.

Kafər bizi ayrı saldı,
Millətimiz sənsiz qaldı,
Qəlbimizdə ağrı qaldı,
Sevdik səni, Xudafərin.
Əlimdədir daha əlin.

Otuz ildir inləyirik,
Danışsaq da, gülməyirik,
Səni artıq görməyirdik,
Sevdik səni, Xudafərin.
Əlimdədir daha əlin.

Ordumuz yol açdı bizə,
İndi durmuşuq üz-üzə,
Daha baxırıq göz-gözə,
Sevdik səni, Xudafərin.
Əlimdədir daha əlin.

Bayraqla gəldik görüşə,
Gəldik döyüşə-döyüşə,
Çoxların saldıq təşvişə,
Sevdik səni, Xudafərin.
Əlimdədir daha əlin.

İndi sənin önündəyik,
Məlum olan ünvandayıq,
Sevindim ki, bir yerdəyik,
Sevdik səni, Xudafərin.
Əlimdədir daha əlin.

18.10.2020.





## Neynirəm varı

Yanımda vətənim, elim yoxdursa,
Vətənsiz çəkirəm mən ahu-zarı.
Oraya getməyə yolum yoxdursa,
Neynirəm dövləti, neynirəm varı.
Vətənim olubdur, dünyanın varı.

Gəzdiyim yamaclar qalıb gözümdə,
Yada düşür, qan qalmayır üzümdə,
Vətənsiz bu həyat yoxdur gözümdə,
Neynirəm dövləti, neynirəm varı.
Vətənim olubdur, dünyanın varı.

Çağlayan bulaqlar donub gözümdə,
Dözməyə qalmayıb, dözüm özümdə,
Danışsam da, kəsər yoxdur sözümdə,
Neynirəm dövləti, neynirəm varı.
Vətənim olubdur, dünyanın varı.

Qəriblikdə bildim, Vətən dadını,
Gəzdirirəm ürəyimdə adını,
Söndürə bilmirəm hicran odunu,
Neynirəm dövləti, neynirəm varı.
Vətənim olubdur, dünyanın varı.

Dözmək olmaz, ömür boyu bu dərdə,
Kaş quş olam, uçam gedəm o kəndə,
Onda bilərəm ki, çatmışam əhdə,
Neynirəm dövləti, neynirəm varı.
Vətənim olubdur, dünyanın varı.

Aramlar, Qurgenlər yaman azıblar,
Öz adların dağa-daşa yazıblar,
İvandan dərs alıb, yaman çaşıblar,
Neynirəm dövləti, neynirəm varı.
Vətənim olubdur, dünyanın varı.

Tükənib millətin səbir kasası,
Yaddan çıxmaz Qarabağın havası,
Sağalmayıb ürəklərin yarası,
Neynirəm dövləti, neynirəm varı.
Vətənim olubdur, dünyanın varı.

Başınıza od ələnər, görərsən,
Türkün kim olduğun onda bilərsən,
İnanmıram çıxıb qaça biləsən,
Neynirəm dövləti, neynirəm varı.
Vətənim olubdur, dünyanın varı.
12.08.2020.

## Düşüb yadıma

Qaçıb yuxularım, halım dəyişib,
Gördüm saçlarını yolur meşələr,
Qara geyinibdir bütün dərələr,
Zəngilanım yaman düşüb yadıma.

Buz bulaqlar qalıb qızsız-gəlinsiz,
Yollar olub, artıq gedim-gəlimsiz,
El-obamız qalıb toysuz-düyünsüz,
Zəngilanım yaman düşüb yadıma.





Başımıza nələr gəldi bilmirəm,
Mən ürəkdən deyib-gülə bilmirəm,
Baxdım ki, suçum var, dinə bilmirəm,
Zəngilanım yaman düşüb yadıma.

Ruhumuzu oxşayırdı yamaclar,
Başımıza tac olmuşdu, o dağlar,
Bizsiz qəmli-qəmli axır bulaqlar,
Zəngilanım yaman düşüb yadıma.

Yolum yoxdur, sürünərəm gəlməyə,
Taleim yar olsun, gəlim görməyə,
Bu sinəmdə sözüm qalıb deməyə,
Zəngilanım yaman düşüb yadıma.

Görsəm ürəyimdə qalmaz bir arzum,
Orda ölsəm, billəm yoxdur bir dərdim,
Allahım, bir yol aç, gülsün bu üzüm,
Zəngilanım yaman düşüb yadıma.

İsmayılam, daşlarından öpərəm,
Dizin-dizin hər cığırdan keçərəm,
Sona qədər orda ömür sürərəm,
Zəngilanım yaman düşüb yadıma.
14.08.2020.

## Dözənmirəm

Boylanıram görənmirəm,
Çarəsini tapanmıram,
Yolu bağlı, gedənmirəm,
Özgə yurda baxanmıram,
Döz deyirsən, dözənmirəm.

Vətən şəkil deyil baxam,
Ya o yoxdur, ya mən yoxam,
Çay deyiləm, sakit axam,
Özgə yurda baxanmıram,
Döz deyirsən, dözənmirəm.

Vətən özü çəkir məni,
Xırdalayır, sökür məni,
Necə başa salım səni,
Özgə yurda baxanmıram,
Döz deyirsən, dözənmirəm.

Gözə dəymir buz bulağı,
Dərən yoxdur quzqulağı,
Görənmirəm o oylağı,
Özgə yurda baxanmıram,
Döz deyirsən, dözənmirəm.

Qismət olsa, gedib görrəm,
Sevincimi onla bölləm,
Yal-yamacı özüm görrəm,
Özgə yurda baxanmıram,
Döz deyirsən, dözənmirəm.

24.03.2020.





## Qayıdım

Ey külək, gedirsən məni də, apar,
Gedim vətənimi görüm, qayıdım.
Görsəm gözlərimlə mənə xoş olar,
Bu qəmi-kədəri bölüm, qayıdım.
Gedim vətənimdə ölüm, qayıdım.

Baxmaqdan gözümün kökü saralıb,
Həsrətindən saç-saqqalım ağarıb,
Elə bil, dağların başın qar alıb,
Bu qəmi-kədəri bölüm, qayıdım.
Gedim vətənimdə ölüm, qayıdım.

Dünyada belə bir zülm olarmı?
İnsan vətənindən ayrı qalarmı?
Vətənsiz insanda iman olarmı?
Bu qəmi-kədəri bölüm, qayıdım.
Gedim vətənimdə ölüm, qayıdım.

Həsrəti qovmağa gücüm qalmadı,
Vətənin yanında üzüm qalmadı,
Bu dərdi çəkməyə dözüm qalmadı,
Bu qəmi-kədəri bölüm, qayıdım.
Gedim vətənimdə ölüm, qayıdım.

Getsəm qayıtmaram, orda qalaram,
Anamın yanında rahat olaram,
Məzarda yerimi cənnət bilərəm,
Bu qəmi-kədəri bölüm, qayıdım.
Gedim vətənimdə ölüm, qayıdım.

Ölsəm qaytarmayın geriyə məni,
Atarsız çuxura, dərəyə məni,
Qoymayın, Vətəndə xərəyə məni,
Bu qəmi-kədəri bölüm, qayıdım.
Gedim vətənimdə ölüm, qayıdım.

Allahım, sən özün bilən yaxşıdı,
Ölmək, qəriblikdən bir az yaxşıdı,
Vətənsiz dünyanın, nəyi yaxşıdı,
Bu qəmi-kədəri bölüm, qayıdım.
Gedim vətənimdə ölüm, qayıdım.

İsmayıl yalvarır hər axşam-səhər,
Ürək kövrəldikdə tez tutur qəhər,
Vətən həsrətinə dözür bir təhər,
Bu qəmi-kədəri bölüm, qayıdım.
Gedim vətənimdə ölüm, qayıdım.
25.10.2020.

## Azərbaycan, qalx ayağa!

Azərbaycan, qalx ayağa, vaxtıdı,
Zəmanənin indi hansı vaxtıdı,
Bu torpaqlar ürəklərdə ağrıdı
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Kərtənkələ zəhər verir ilana,
Artıq inam qalmayıb, çox insana,
Bu harınlar, atılıbdı meydana,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.





İndi dağlara da, arxa gərəkdi,
Anlamazın hər bir işi kələkdi,
Geci-tezi, haqq qalib gələcəkdi,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Gəlmələr az qalır, şahlıq eyləyə,
Arxayındı, ona olan köməyə,
BMT də, bir söz tapmır deməyə,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Bunlar aramların xam xəyalıdı,
Özü yaxşı bilir, o haralıdı,
Burda qala bilməz, qayıtmalıdı,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Bir ovuc vermərik, tökə gözünə,
Daha baxmır, heç kəs onun sözünə,
Nə qalıbdı, deməyələr üzünə,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Dünya özü mat qalıbdı, bu işə,
NATO da, bacarmır, düşüb təşvişə,
Erməni bunları, çəkibdi şişə,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Bizə heç bir kəsdən kömək olmadı,
Gəldilər-getdilər, əncam olmadı,
Haqqa çəkib, haqq danışan olmadı,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Əlac qalıb özümüzə, bu yerdə,
Haqq səsimiz, bəyan oldu hər yerdə,
İstəməzdik qan axıdaq, bu yerdə,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Türküm kimi, köməyim var, elim var,
Hər bir anda, güclü olan, gücüm var,
Hər bir səmtə, hücum edən ordum var,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Dağıdarıq, parçalarıq, didərik,
Tez bir anda zəmi kimi biçərik,
Onu məhv edərik, belin bükərik,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Alacağıq: ata-baba yurdunu,
Çəkmək olmaz, hər an vətən dərdini,
Biz göyərdək, şəhidlərin əhdini,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.





Almasaq, üzümüz qara olacaq,
Almasaq, bəs vətən, hara olacaq,
Almasaq, günümüz qara olacaq,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Hazırdı ordumuz, hər an hücuma,
Biz bələdik, ordumuzun gücünə,
Bir əmr alsa, o keçəcək hücuma,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Lələtəpə fəndi işə düşəcək,
Yerdən-göydən hamı hücum edəcək,
Qovub ermənini daşdan tökəcək,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Şuşanı yağıdan mən alacağam,
Ata vəsiyyətin göyərdəyəcəyəm,
Düşmənin belini mən əzəcəyəm,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Əgər başa salanmasam yağını,
Hərəkətə gətirəcəm ordunu,
Axıdacaq erməninin qanını,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Prezidentin fikirləri qətidir,
Qarabağı almaq onun əhdidir,
Müasirdi, o siyasət əhlidir,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Azərbaycan öz sözünü deyəcək,
Üstünə hər yandan, od ələyəcək,
Vətən deyib, o hücuma keçəcək,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.

Bayrağımı Qarabağda sancacaq,
Qələbəni, orda bayram edəcək,
Bütün millət, öz evinə gedəcək,
Azərbaycan, qalx ayağa, vaxtıdı.
Qarabağı alacağıq nağdıdı.
18.05.2020.

## Qalmasın

Heç kəsin qəlbini kədər qırmasın,
Heç kəs sevdiyindən ayrı qalmasın,
Heç kəs vətənindən uzaq olmasın,
Quş da, yuvasından ayrı düşməsin.
Heç kəsin gözləri yolda qalmasın.

Ağır olur ana dərdi, yurd dərdi,
Dözülməzdi vətən dərdi, el dərdi,
Çox ağırdı, çəkmək olmur bu dərdi,
Quş da, yuvasından ayrı düşməsin.
Heç kəsin gözləri yolda qalmasın.





Boğazdan yuxarı deyib-gülsəm də,
Səksənə yenicə qədəm qoysam da,
Həyatın gedişin, başa düşsəm də,
Quş da, yuvasından ayrı düşməsin.
Heç kəsin gözləri yolda qalmasın.

Oğlum-qızım, nəvələrim yanımda,
Hər birinə sevgi vardı canımda,
Oynaşırlar beş nəticəm yanımda,
Quş da, yuvasından ayrı düşməsin.
Heç kəsin gözləri yolda qalmasın.

Saydığım bu arxam yurdun görməyib,
Doğma vətənindən ləzzət almayıb,
O cənnət məkanda deyib-gülməyib,
Quş da, yuvasından ayrı düşməsin.
Heç kəsin gözləri yolda qalmasın.

Bundan artıq deyin, bir dərd olarmı?
Vətənsiz yaşayıb qalmaq olarmı?
Bu suala bircə cavab olarmı?
Quş da, yuvasından ayrı düşməsin.
Heç kəsin gözləri yolda qalmasın.

Cavabı millətin cəm olmağıdır,
Xalqımın, ordumun bir olmağıdır,
Düşmənə zərbəni tez vurmağıdır,
Quş da, yuvasından ayrı düşməsin.
Heç kəsin gözləri yolda qalmasın.

O vaxta az qalıb, biz alacağıq,
Düşməni vətəndən biz qovacağıq,
O doğma vətənə yol alacağıq,
Quş da, yuvasından ayrı düşməsin.
Heç kəsin gözləri yolda qalmasın.

Vətənsizdə iman olmaz, din olmaz,
Ölməsə də, onda sağlam can olmaz,
Yaşamağa ürəyində qan olmaz,
Quş da, yuvasından ayrı düşməsin.
Heç kəsin gözləri yolda qalmasın.

Ali Baş Komandan əmrini verib,
Güclü ordum inamla sözün deyir,
Millətim sevinir, üzləri gülür,
Quş da, yuvasından ayrı düşməsin.
Heç kəsin gözləri yolda qalmasın.

Onda üzlər gülər, millət sevinər,
Hamı baş götürüb, Vətənə gedər,
Allaha min dəfə şükürlər edər,
Quş da, yuvasından ayrı düşməsin.
Heç kəsin gözləri yolda qalmasın.
25.09.2020.





## De sözünü

Ordumuz sülh ordusudur,
Millətimiz sizinlədir,
Düşmənimiz hiyləgərdir,
Qoymayın aça gözünü.
Ermənіyə, de sözünü.

Düşmənimiz şərəfsizdir,
Həm qorxaqdı, həm yersizdir,
O yurduzdu, vətənsizdi,
Qoymayın aça gözünü.
Erməniyə, de sözünü.

Bu tayfada üz nəyimiş,
Hər yerə mənim deyirmiş,
Terror üçün o ölürmüş,
Qoymayın aça gözünü.
Erməniyə, de sözünü.

Qonaq etdik, keçdi başa,
Meylini saldı lavaşa,
Sonra girişdi bozbaşa,
Qoymayın aça gözünü.
Erməniyə, de sözünü.

Özlərin yerli bildilər,
Hər yana haray saldılar,
Xankəndinə ad qoydular,
Qoymayın aça gözünü.
Erməniyə, de sözünü.

Qarabağa mənim dedi,
Aramlara haray saldı,
Gələnlərin burda qaldı,
Qoymayın aça gözünü.
Ermənıyə, de sözünü.

Yaratdılar yeni qayda,
Hər gələni qaldı burda,
Vuruldular bizim yurda,
Qoymayın aça gözünü.
Ermənıyə, de sözünü.

Başbilənlər hal tutdular,
Danışmayıb lal qaldılar,
Hayeslərə tay oldular,
Qoymayın aça gözünü.
Ermənıyə, de sözünü.

Minski də, boş gəldi-getdi,
Boş gəlmişdi, boş da, getdi,
Ermənini haqlı bildi,
Qoymayın aça gözünü.
Ermənıyə, de sözünü.

Sən sənsənsə, biz də, bizik,
Yolumuza hər an düzük,
Vaxt gələr, deyərik kimik,
Qoymayın aça gözünü.
Ermənıyə, de sözünü.





Əlacını tapan olar,
Hayesləri yurddan qovar,
Qarabağdan aram çıxan,
Qoymayın aça gözünü.
Ermənıyə, de sözünü.

Keçər dövran, belə qalmaz,
Burdan sizə vətən olmaz,
Burada bir dığa qalmaz,
Qoymayın aça gözünü.
Ermənıyə, de sözünü.
31.05.2020.

## Bayrağımız yenilməzdi

Bayrağımız müqəddəsdi,
Heç bir zaman, əyilməzdi,
Əlimizdən o düşməzdi,
Bayrağımız yenilməzdi.

Çoxlarına tikan olub,
Önümüzə sipər olub,
Xainlərin gözün töküb,
Bayrağımız yenilməzdi.

Üstündə ay-ulduzu var,
Bax ondadı böyük vüqar,
Türk elidir ona diyar,
Bayrağımız yenilməzdi.

Ucalardan ucadadı,
Qələbənin önündədi,
Onun gücü rəngindədi,
Bayrağımız yenilməzdi.

Məmmədəmin deyib, enməz,
Türklüyündən əsla dönməz,
Türk ölsə də, əldən verməz,
Bayrağımız yenilməzdi.

O müqəddəs andımızdı,
O əbədi yolumuzdu,
Damardakı qanımızdı,
Bayrağımız yenilməzdi.

Sən dalğalan Qarabağda,
Şuşamızda, Hadrutumda,
Xankəndində, Zəngilanda,
Bayrağımız yenilməzdi.

Qələbənin müjdəsisən,
Şad xəbərlər gətirirsən,
Ürəklərə güc verirsən,
Bayrağımız yenilməzdi.

Azərbaycan canımda can,
Bu adına olum heyran,
Torpağına olum qurban,
Bayrağımız yenilməzdi.
07.12.2020.





## Qələbə bizimdir

Poema

Türkün türkdən ayrı qardaşı olmaz.

Ali Baş Komandan əmrini verdi,
Düşmənə sonuncu sözünü dedi,
Qarabağ bizimdir, nidasın qoydu,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Vaxtında verilmiş bir qərar oldu,
Dünyaya səs salan bir xəbər oldu,
Ordumuz ilk gündən uğurlar etdi,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Ordumuz inamla keçdi hücuma,
Düşmənlər bağa tək girdilər qına,
Sonuncu dərsini verdilər ona,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Erməni özünü toplaya bilmir,
Qaçan əsgərlərin, saxlaya bilmir,
Burada heç yeri tanıya bilmir,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Hər gün Azərbaycan irəli gedir,
Qarabağ bizimdir, inamla deyir,
Gurlayan topların sözünü deyir,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Erməni ordusu itirib başın,
Qorxudan axıdır gözünün yaşın,
Paşinyan da, tapa bilmir sirdaşın,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Qaçır o dığalar, geriyə baxmır,
Silahı əlində tətiyin çaxmır,
Əsgər komandanın sözünə baxmır,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Bölgəni göstərir Vüsal Qaraca,
Erməni cəsədi dönüb qaxaca,
Ağlayan analar əl atır saça,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Bizə dost deyənlər yaxın gəlmədi,
Dar ayaqda qorxma deyən olmadı,
Haqdan, ədalətdən söhbət salmadı,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Türk qardaşım arxamızda dayanıb,
Pakistan da, qorxma deyə söz açıb,
Ordumuz da, bu ilhamdan güc alıb,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.





Dərdli Kəlbəcərin gözü yoldadır,
Laçın deyir, oğullarım hardadır,
O vaxtdan Laçının gözü yoldadır,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Füzulimiz od içində qalıbdı,
Ordumuz düşmənə zərbə vurubdu,
Qubadlımız saralıbdı, solubdu,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Cəbrayıl, Zəngilan qəm içindədi,
Ağdamla Şuşamız düz seçimdədi,
Xankəndi əzəldən öz işindədi,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Ali Baş Komandan sözünü deyib,
Bütün millətimə bir qeyrət gəlib,
Millətim ordumla bir coşa gəlib,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Sülhsevər ordumuz sözünü deyir,
Artıq Murovdağdan o, xəbər verir,
Suqovuşan bizdədir – xəbərin verir,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Ordumun yanında xalqım dayanıb,
Toplar haray çəkir, millət oyanır,
Düşmənin başına dronlar qonur,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Ali Baş Komandan öndə dayanıb,
Alacağıq, deyib üstə dayanıb,
Erməni qorxudan geri yan alıb,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Yumruq kimi birləşibdir millətim,
Bu döyüşdə gördüm xalqın qeyrətin,
Ucaldıblar Prezidentin şöhrətin,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Yumruğumla mən başına vuracam,
Burda qalsan, bil it kimi qovacam,
Qarabağ bizimdir, nida qoyacam,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.

Biz hamımız bir əsgərik bu yurda,
Vətəni vermərik biz itə-qurda,
Yeni tarix biz yazırıq bu yurda,
Qələbə bizimdir, dayanmaq olmaz.
Türkün türkdən ayrı, qardaşı olmaz.
02.10.2020.





## Qələbəyə gedirik
(poema)

Üzümüz Qarabağa
Görüşməyə gedirik.
Əhvalımız xoş oldu,
Qələbəyə gedirik.

Xankəndidi əhdimiz,
İntizardı qəlbimiz,
Uğurludu yolumuz,
Qələbəyə gedirik.

Şanlı ordum yol açır,
Düşmənlər dala qaçır,
Tanklarımız od saçır,
Qələbəyə gedirik.

Doğru yolu seçmişik,
Nə etsək, biz etmişik,
Biz hücuma keçmişik,
Qələbəyə gedirik.

Qardaşım türk elidi,
Dilimiz türk dilidi,
Bizə çox sevimlidi,
Qələbəyə gedirik.

Bu yol Heydər yoludu,
Davamçısı oğludu,
Sevdiyi öz xalqıdı,
Qələbəyə gedirik.

Mübariz posta girdi,
Hədsiz erməni qırdı,
Əsli qələbə çaldı,
Qələbəyə gedirik.

Poladım qalib oldu,
Şəhidlik adın aldı,
Xalqına sadiq oldu,
Qələbəyə gedirik.

Ordumuz qanın aldı,
Şəhid qələbə çaldı,
Erməni dərsin aldı,
Qələbəyə gedirik.

Cəbrayıl dedi: olmaz,
Belə qan yerdə qalmaz,
Bu dərdə dözmək olmaz,
Qələbəyə gedirik.

Cəbrayıl Dövlətzadə
Vaxtında yetdi dada,
Layiq oldu o ada,
Qələbəyə gedirik.





Poladın qanın aldı,
İki zabiti boğdu,
Əl ilə yerə vurdu,
Qələbəyə gedirik.

Təkcə qələbə çaldı,
Əhdinə sadiq oldu,
Özü də, şəhid oldu,
Qələbəyə gedirik.

Məzarı nurla dolsun,
Vətənim azad olsun,
Arzumuz yerin alsın,
Qələbəyə gedirik.

Murova yol açdınız,
Gözəl məkan seçdiniz,
Ora bayraq sancdınız,
Qələbəyə gedirik.

Hadrutum alındı,
Hələ Şuşa qalıbdı,
Gözlərimiz dolubdu,
Qələbəyə gedirik.

Xocavəndə bir yol sal,
Cəbrayıl, Füzuli var,
Zəngilana nəzər sal,
Qələbəyə gedirik.

Xudafərin bizdədi,
Ordum doğru yoldadı,
Bayrağımız ordadı,
Qələbəyə gedirik.

Qubadlımız dardadı,
İndi gözü yoldadı,
Gözlə ordum yoldadı,
Qələbəyə gedirik.

İgidlər vurur zərbə,
Erməni qaçır hələ,
İnanma bir də, gələ,
Qələbəyə gedirik.

Qanlı döyüş gedirdi,
Hərdən şəhid olurdu,
Vətənə can deyirdi,
Qələbəyə gedirik.

Bu vətən davasıdı,
Bu zəfər qalasıdı,
Qələbə çalasıdı,
Qələbəyə gedirik.

Ali Baş Komandanım,
Şərəflidir bu adın,
Güclü komandan oldun,
Qələbəyə gedirik.

Çox dəyərli yol seçdin,
Hər nə dedinsə, etdin,
Düşmənin belin qırdın,
Qələbəyə gedirik.
Qələbəyə gedirik.

05.10.2020.





## Azad oldu

Azad olduq bu bəladan,
Biz qurtulduq fəlakətdən,
Uzaq olduq, qəm-kədərdən,
Azad oldu Azərbaycan!
Qarabağdır Azərbaycan!

Sağın azad, solun azad,
Bu vətəni sən qur, yarat,
Yurda düşmən qoyma, heyhat
Azad oldu Azərbaycan!
Qarabağdır Azərbaycan!

Qan axıtdıq, azad olduq,
Azadlığı biz yaratdıq,
İrəliyə biz can atdıq,
Azad oldu Azərbaycan!
Qarabağdır Azərbaycan!

Şəhidlərin adı qalar,
Hər bir şəhid haqqa çatar,
Can atanlar əhdə yetər,
Azad oldu Azərbaycan!
Qarabağdır Azərbaycan!

Qarabağdır bir arzumuz,
Bura bizim ünvanımız,
Ucalacaq ad sanımız,
Azad oldu Azərbaycan!
Qarabağdır Azərbaycan!

Altın qızıl, üstün qızıl,
Şəhid qanla adın yazır,
Qələbəyə olduq hazır,
Azad oldu Azərbaycan!
Qarabağdır Azərbaycan!

Zəngilanda qızılın var,
Kəlbəcərdə çox varın var,
Oğurlayan gör kimlər var,
Azad oldu Azərbaycan!
Qarabağdır Azərbaycan!

Biz it kimi qovduq onu,
Erməninin çatıb sonu,
Gözləyirdik biz bu anı,
Azad oldu Azərbaycan!
Qarabağdır Azərbaycan!

Qoy var olsun mənim ordum,
Onlar oldu son ümidim,
Dalğalanır öz bayrağım,
Azad oldu Azərbaycan!
Qarabağdır Azərbaycan!

Qazilərin az olmadı,
Şəhiddən geri qalmadı,
Öldürməkdən o doymadı,
Azad oldu Azərbaycan!
Qarabağdır Azərbaycan!

Ermənistan dövlət deyil,
Dağılıbdır, bütöv deyil,
Düzün desəm, millət deyil,
Azad oldu Azərbaycan!
Qarabağdır Azərbaycan!





Bağa başın çəkdi qına,
Çox yalvardı, ona-buna,
İnanmıram, bunu dana,
Azad oldu Azərbaycan!
Qarabağdır Azərbaycan!

Siçovul tək daş gəmirir,
Sağı-solu onlar didir,
Həm uçurur, həm də, sökür,
Azad oldu Azərbaycan!
Qarabağdır Azərbaycan!

Bu millətdən millət olmaz,
Beləsində qeyrət olmaz,
Qorxaq olan qalib olmaz,
Azad oldu Azərbaycan!
Qarabağdır Azərbaycan!

Baş Komandan sözün dedi,
Yumruq vurdu, belin qırdı,
Ordumuz da, sözün dedi,
Azad oldu Azərbaycan!
Qarabağdır Azərbaycan!

Qarabağım Azərbaycan,
Ona qurban olsun, bu can,
Səmasına olum heyran,
Azad oldu Azərbaycan!
Qarabağdır Azərbaycan!
08.12.2020.

## Zəngilana gedirik

Şükür biz ölmədik, bu günü gördük,
Ürəkdən sevinib, şad olub-güldük,
Xalqıma, orduma minnətdar olduq,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.

Gözlərimiz çoxdan həsrət çəkirdi,
Millətimiz gözdən leysan tökürdü,
Bu ayrılıq, belimizi bükürdü,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.

Bağlı olan yollarımız açıldı,
Şanlı ordum ermənidən bac aldı,
Xalqım bütün şəhidlərə baş əydi,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.

Görəsən qalırmı, orda izimiz,
Necə dözüb o acıya yurdumuz,
Acılara sinə gərdi xalqımız,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.

Əlim çatsa torpağımdan öpərəm,
Həmin andan mən arzuma çataram,
Gül yerinə kolu-kosu öpərəm,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.





Yamaclarda gəzsəm, dərdim yox olar,
Qıy vuran qartala baxsam xoş olar,
Birсə yarpız dərsəm, mənə bəs olar,
İndi biz hamımız bayram edirik.
Ana yurdum Zəngilana gedirik.

Daşlı bulaq çoxdan dəymir gözümə,
İçəm doyam, bir az vuram üzümə,
Deyəm, bax bu arzum yetdi yerinə,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.

Ana məzarını gəzib taparam,
O daşa-torpağa qurban olaram,
Onda məhz özümü xoşbəxt bilərəm,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.

Qurban olum torpağıma-daşıma,
Gördüm sənsiz nələr gəldi başıma,
Bayraqla gəlirəm sənin qarşına,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.

O torpağı öpə-öpə gələcəm,
O acıya bilməm necə dözəcəm,
Vətənin dəyərin onda biləcəm,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.

Mən torpaq gəzirəm, evi neynirəm,
Torpağı özümə məskən bilirəm,
Torpağı anadan betər sevirəm,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.

Torpaqdan yarandıq, torpağa gedək,
O torpağa səcdə edək, baş əyək,
Vətəni, torpağı ana tək sevək,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.

Acıları daha qoyduq arxada,
İndi sevinməyə dəyər, bu halda,
Qan axıtdı çox şəhidlər bu yolda,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.

Qan axıdan şəhidlərə baş əyək,
Onlara Allahdan rəhmət diləyək,
Şəhid anasına səbir diləyək,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.

Bütün əsgərlərin qurbanı olaq,
Xalqımla birləşib, bir yerdə olaq,
Həmişə düşmənə biz qalib gələk,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.





Azərbaycan daha qalib olubdu,
O acılar uzaqlarda qalıbdı,
O Qarabağ Azərbaycan olubdu,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.

Torpağıma, bayrağıma baş əyək,
Yumruq kimi gəlin birgə birləşək,
Həmişə düşmənə biz qalib gələk,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.

Ali Baş Komandan sözünü dedi,
Xalqına dəyərli hədiyyə verdi,
Düşmənin başına zərbələr vurdu,
İndi biz hamımız bayram edirik.
Ana yurdum, Zəngilana gedirik.
21.10.2020.

## Şuşaya xoş gəlmisiniz

Azad olub torpağımız,
İndi şəndi növrağımız,
Yanır yenə ocağımız,
Şuşaya xoş gəlmisiniz.

Burda hər yan üzə gülür,
Bülbülləri cəh-cəh vurur,
Ermənilər baxır, ölür,
Şuşaya xoş gəlmisiniz.

Xarıbülbül qönçələyir,
Gələn çiskin nur ələyir,
Cıdır düzü əl eyləyir,
Şuşaya xoş gəlmisiniz.

Üzeyirin duası var,
Natəvanın bulağı var,
Burda muğam havası var,
Şuşaya xoş gəlmisiniz.

Sadıqcanın tarı çalır,
Musiqimin səsi qalır,
Keçənlərim yenə gəlir,
Şuşaya xoş gəlmisiniz.

Cabbarın xoş sədası var,
Seyidimin duası var,
Bülbülün ev muzeyi var,
Şuşaya xoş gəlmisiniz.

Ucalacaq muğam səsi,
İndi gəlir azan səsi,
Allah Məhəmməd duası,
Şuşaya xoş gəlmisiniz.

İndi axmır turş bulağı,
Oynamır oğul-uşağı,
Cənnətdir hər bir bucağı,
Şuşaya xoş gəlmisiniz.





Şuşam yenə dirçələcək,
Yenilənib bərkiyəcək,
Həyat yenə çağlayacaq,
Şuşaya xoş gəlmisiniz.

Üzeyirin ruhu şaddı,
Zilə qalxan muğamatdı,
Şuşam arzusuna çatdı,
Şuşaya xoş gəlmisiniz.
16.12.2020.

## Qalmayıb

Gözüm gördü, ağlım yaman çaşıbdı,
Həyacandan, olan qanım coşubdu,
O vandallar, həddi yaman aşıbdı,
Daş üstündə bircə daş da, qalmayıb.
Görən andan, məndə taqət qalmayıb.

Elə bil ki, ev yoxumuş burada,
Orda-burda, daşlar qalıb yuvada,
İstəməzdim, kəndim ola bu halda,
Daş üstündə bircə daş da, qalmayıb.
Görən andan, məndə taqət qalmayıb.

Daşa tamarzılar, daşı da, yeyib,
Pis əməllə, kim olduğun o deyib,
Söküb məscidi də, tanımar edib,
Daş üstündə bircə daş da, qalmayıb.
Görən andan, məndə taqət qalmayıb.

Dilsiz ağaca da, qəddarlıq edib,
Gözəl təbiətə o zərbə vurub,
Qısıb quyruğunu qovulub, gedib,
Daş üstündə bircə daş da, qalmayıb.
Görən andan, məndə taqət qalmayıb.

Öz evimi gözüm gördü, pis halda,
Dilim gəlmir, deyənmirəm nə halda,
Toplaya bilmirəm, özümü burda,
Daş üstündə bircə daş da, qalmayıb.
Görən andan, məndə taqət qalmayıb.

Elə ev var, heç yeri də, bilinmir,
Bu evdimi, tövlədimi bilinmir,
Vəhşiliyin dərəcəsi bilinmir,
Daş üstündə bircə daş da, qalmayıb.
Görən andan, məndə taqət qalmayıb.

Seyidlərin məzarını sökübdü,
Məzarları kaftar kimi, eşibdi,
Dini abidəni bərbad edibdi,
Daş üstündə bircə daş da, qalmayıb.
Görən andan, məndə taqət qalmayıb.

Heç kəsin bəxtinə talan düşməsin,
Ermənin bəxti üzə gülməsin,
Qulağın burmuşuq, bir də, gəlməsin,
Daş üstündə bircə daş da, qalmayıb.
Görən andan, məndə taqət qalmayıb.





Bizə Vətən, o yurd yeri gərəkdi,
Daşla-qumlar, ac gözlərə gərəkdi,
Ay yazıqlar, sizə ağıl gərəkdi,
Daş üstündə bircə daş da, qalmayıb.
Görən andan, məndə taqət qalayıb.

Evi tikəcəyəm daha da, gözəl,
Bura bizim yurd yeridi, çox əzəl,
Burda qalmaz ermənilər, tez bezər,
Daş üstündə bircə daş da, qalmayıb.
Görən andan, məndə taqət qalmayıb.

Allah sizin bəlanızı verəcək,
Hər erməni "mükafat"ın alacaq,
Geci-tezi mən deyənlər olacaq,
Daş üstündə bircə daş da, qalmayıb.
Görən andan, məndə taqət qalmayıb.

Prezident də, sizə vurdu zərbəni,
Üstəlik də, etdi, hədə-hərbəni,
Dedi, bir də, bura gəlmə, erməni,
Daş üstündə bircə daş da, qalmayıb.
Görən andan, məndə taqət qalmayıb.

03.01.2021.

## Zəfər bayramı

Bu qələbə bayramıdı,
Xalqımız çox şadlanırdı,
Birliyimin bayramıdı,
Bu zəfərin bayramıdı.
Bu qardaşlıq bayramıdı.

İki qardaş qəbul edir,
Hər günləri çox xoş keçir,
Azərbaycan Türkü seçir,
Bu zəfərin bayramıdı.
Bu qardaşlıq bayramıdı.

Bu bir zəfər paradıdı,
Unudulmaz həyatıdı,
Millətin xoş növrağıdı,
Bu zəfərin bayramıdı.
Bu qardaşlıq bayramıdı.

Ərdoğanla İlham qoşa,
Bu qardaşlıq gəlir xoşa,
Türkün qanı gəlir coşa,
Bu zəfərin bayramıdı.
Bu qardaşlıq bayramıdı.

Bir millətik, iki dövlət,
Birlikdədir, bu şan-şöhrət,
Türkdə olur bu cəsarət,
Bu zəfərin bayramıdı.
Bu qardaşlıq bayramıdı.





Seyr edirdik o dronları,
Ermənini vuranları,
Tanıdıq it qovanları,
Bu zəfərin bayramıdı.
Bu qardaşlıq bayramıdı.

Əldə bayraq, göydə bayraq,
Türkiyədir, bizə dayaq,
Ordusu orduma mayaq,
Bu zəfərin bayramıdı.
Bu qardaşlıq bayramıdı.

Azadlıq meydanı coşur,
Sevincimiz aşıb-daşır,
Başbakan xoş söz danışır,
Bu zəfərin bayramıdı.
Bu qardaşlıq bayramıdı.

Paradımız tarix yazdı,
Otuz ilə bir mesajdı,
BMT-yə bu da, azdı,
Bu zəfərin bayramıdı.
Bu qardaşlıq bayramıdı.

Azərbaycan, günün aydın,
Ayın aydın, ilin aydın,
Axır ki qələbə çaldın,
Bu zəfərin bayramıdı.
Bu qardaşlıq bayramıdı.

Qələbən əbədi olsun,
Paşinyana xəbər çatsın,
Düşmənlərim qoy xar olsun,
Bu zəfərin bayramıdı.
Bu qardaşlıq bayramıdı.

Yaşa Ali Baş Komandan,
Sənə qurban olsun, bu can,
Bütöv oldu Azərbaycan,
Bu zəfərin bayramıdı.
Bu qardaşlıq bayramıdı.
10.11.2012. 2021

## Zəngilanım

Həsrətiniz bizi üzür,
Yaddan çıxmaz ,dağın-düzün,
Sənə qurban olsun, gözüm,
Mənim qızıl Zəngilanım.

Buz bulağın qəm içində,
Biz qalmışıq pis seçimdə,
Nəyin yoxdur, yer üzündə?
Mənim qızıl Zəngilanım.

Dağlarının başı qardı,
Bizi üzən intizardə,
Sənsiz dünya bizə dardı,
Mənim qızıl Zəngilanım.





Yaddan çıxmır barlı meşən,
Parlaq olur aylı gecən,
Səmasında qartal süzən,
Mənim qızıl Zəngilanım.

Çinarların cərgələnir,
Çənin gəlir, nur ələnir,
Sonaların cilvələnir,
Mənim qızıl Zəngilanım.

Qismət olar, görüşərik,
Qucaqlaşıb, öpüşərik,
Dərdlərini bölüşərik,
Mənim qızıl Zəngilanım.

İsmayılın sənsiz qalıb,
Oğulların səni alıb,
Görüşməyə çox az qalıb,
Mənim qızıl Zəngilanım.
17.12.2020.

## Qarabağ bizimdir

(poema)

Dilənə-dilənə hardan gəldiniz,
Siçovul tək, oyuqlara girdiniz,
Sonra da, buranı məskən bildiniz,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Harada ac varsa, bura gəldilər,
Bura nə gözəldir, deyib durdular,
Sonra da, özünə daxma qurdular,
Qarabağ bizimdir, bizim olacaq.
Ermәni bu yurda həsrət qalacaq.

Xankəndinə gözəl məkan dedilər,
Görməmişlər çox sevinib, güldülər,
Xankəndinə Stepanakert dedilər,
Qarabağ bizimdir, bizim olacaq.
Ermәni bu yurda həsrət qalacaq.

Nə desən, gözləmək olar Aramdan,
İnsanlıq qoxusu gəlmir onlardan,
Çalışın uzaqda durun Aşotdan,
Qarabağ bizimdir, bizim olacaq.
Ermәni bu yurda həsrət qalacaq.

İşi düşən kimi, iynədən keçər,
Axtarıb hər yanı, yeni yer seçər,
Ora girmək üçün, canından keçər,
Qarabağ bizimdir, bizim olacaq.
Ermәni bu yurda həsrət qalacaq.

Türk görəndə o hayeslər baş əyir,
Əqidəsi əməlinə düz gəlir,
Bunlar nə edəcək, əvvəldən bilir,
Qarabağ bizimdir, bizim olacaq.
Ermәni bu yurda həsrət qalacaq.





Ermәni olubdur çoxuna qağa,
Onlar yatmır ipə-sapa bir daha,
Daha dözmək olmur, bu ağır dağa,
Qarabağ bizimdir, bizim olacaq.
Ermәni bu yurda həsrət qalacaq.

Ermәni adını yüksək saxlayır,
Ermәni dünyaya meydan oxuyur,
Dilənən ermәni indi oynayır,
Qarabağ bizimdir, bizim olacaq.
Ermәni bu yurda həsrət qalacaq.

Bunlarda sürünmək, şandı-şöhrətdi,
Alçaqlığa layiq olan millətdir,
Sən demə dünyada, bu zay millətdi,
Qarabağ bizimdir, bizim olacaq.
Ermәni bu yurda həsrət qalacaq.

Onlar istədiyin, ala bilmədi,
Diş ağartdı, amma gülə bilmədi,
Yersiz-yurdsuz, oldugunu bilmədi,
Qarabağ bizimdir, bizim olacaq.
Ermәni bu yurda həsrət qalacaq.

Qəribin quyruğu belində olar,
Qaçanda çarığı əlində olar,
Bir az da, adamın abırı olar,
Qarabağ bizimdir, bizim olacaq.
Ermәni bu yurda həsrət qalacaq.

Haradan gəlmisən, qayıt get ora,
Yoxsa, sən buradan gedəssən gora,
Bilmirəm, səni kim göndərib bura,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Hansını söyləyək, günahı çoxdur,
İnsanlıq nədirsə xəbəri yoxdur,
Günahı ağırdır, özündən çoxdur,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Xocalını qırdı, adam qalmadı,
Nə qoca, nə qadın, körpə qalmadı,
İnsan qanın içdi, gözü doymadı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Meşəli, Əsgəran siz deyin hanı,
Erməni bəs eylər, yolunu tanı,
Nahaqdan axıtdın nə qədər qanı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Sumqayıtda keçdiniz min oyundan,
İnsan olan çıxmaz, belə yolundan,
Nadanlığın məlum olur adından,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.





Neçə evlər qaldı, başı papaqsız,
Niyə belə qəddar oldun, ay arsız,
Qonşu olan olarmı belə qansız,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Əsgəranda haray-həşir saldınız,
Özünüzü orda haqlı bildiniz,
Nahaq yerdən, siz təxribat etdiniz,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Uşaqları borulara yığdınız,
Hər iki ağzını qaynaq etdiniz,
Siz onu ən uca dağdan atdınız,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

İnsan olan belə günah eyləməz,
Qorxar Allahından, günaha girməz,
Cəsədin üstündən maşınlar sürməz,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Özünü dünyada haqlı bilirsən,
Hamı sənə, bəs sən kimə gülürsən,
Bəs niyə özünü yana çəkirsən,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Topxana meşəsin məskən seçdiniz
Siz buranın nə olduğun bildiniz
Bəs niyə sonradan viran etdiniz?
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Bilirsənmi, bura hansı xanındı,
Hələ ondan qabaq, hansı bəyindi,
Belə xam xəyallar sənin ağlındı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Sal yadına, sən kiməsə gülmüsən?
Hər yoldan ötəni, arxa bilmisən,
Söylə, niyə dondan-dona girmisən,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Türklə bir qardaşıq, yerli yerində,
Güclü ordum, topum, tankım yerində,
Qoymaram qalasan mənim yerimdə,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Dilənməmiş hara qalıb, bilmirəm,
Belə başıboşa gülə bilmirəm,
Sordular nə oldu, dedin bilmirəm,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.





Şalvarın dar gəlir, indi əyninə,
Hələ yenə, tit demirsən dilinə,
Utanır çoxları sənin yerinə,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Qarabağdan səni qovur əsgərim,
Səni top-tüfəngə titur əsgərim,
Vətəni müdafiə edir əsgərim,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Öldürən ordumuz, qıran ordumuz,
Sizi tülkü kimi boğan ordumuz,
Vətəni müdafiə edən ordumuz,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Erməni cəsədi dönüb qaxaca,
Dığalar qorxudan çıxıb ağaca,
Yayır bu xəbəri Vüsal Qaraca,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Al payını, dron gəlir üstünə,
Alışarsan, hamı baxar tüstünə,
Bu dığalar indi qalıb pis günə,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Əzəlindən çatılıbdı, o qoşun,
Hara girsən, orda əzilir başın,
Guya ki, uşaqsan çatmayır yaşın,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Çox gəlmişdin, az qayıtdın geriyə,
Mənim sözüm yoxdu belə dəliyə,
İnanmıram, ağlı gələ yerinə,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Mərd oğullar girmişdilər döyüşə,
Peşman oldu, o Aramlar bu işə,
Bütün havadarlar düçüb təşvişə,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Erməni, qalmadı daha əsgərin,
Sənə əzəlindən olmuşam qənim,
Anlayın Qarabağ mənimdir-mənim,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Bir səhər Tərtərə bomba atdılar,
Elə bildi, arzulara çatdılar,
Ermənilər əzəlindən zaydılar,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.





Bilməyirdi ona nələr edərik,
İnanmırdı şənbələ tək eşərik,
Anlamadı zəmi kimi biçərik,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Ağlına nə gəldi, hücuma keçdin,
Səni kim öyrətdi, bu yolu seçdin,
Axı kimsən, belə oyunlar etdin,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Mərmilər yağdırdın, elə-obaya,
Gəncə tək şəhəri saldın o hala,
Bilmədin düşərsən, sən haldan-hala,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Otuz il əvvəlki dövlət deyilik,
O Laçını, Kəlbəcəri itirdik,
Ağdamı, Şuşanı əldən vermişik,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Füzuli, Cəbrayıl, bir də, Zəngilan,
Qubadlı olmuşdu yerinən-yeksan,
Belə vəhşiliyi edərmi insan?
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Ali Baş Komandan əmrini verdi,
Ordumuz o andan hücuma keçdi,
Deyərdim düşmənin belini qırdı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Az bir vaxtda, Murov dağı alındı,
Çox keçmədi Suqovuşan alındı,
Yüksəkliyə bayrağımız sancıldı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Neçə yerdən hədə gəldi bizlərə,
Biz də, xəbər göndəririk sizlərə,
Azərbaycan fikir vermir sizlərə,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

General Mayis əmr verdi: - İrəli!
Siz atmayın bircə addım da, geri,
Bu yerlər olubdur babamın yeri,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Qorxmuruq versək də, bir neçə şəhid,
Yağıdan torpağı alır bu şəhid,
Ən uca zirvəyə ucalır şəhid,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.





Nadir İbrahimov aldı nur payı,
Görmədi doğulan üçəm övladı,
Mübarizlə-Polad qoyuldu adı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Onlar, ata yolun davam edəcək,
Öz xalqının doğru yolun seçəcək,
Yaxın vaxtda Qarabağa gedəcək,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Erməniyə od qoyurdu ordumuz,
Qarabağa yol açırdı ordumuz,
Birləşmişdi, ordumuzla xalqımız,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Füzuli qurtardı, artıq zülümdən,
Şadlıq edir millətimiz bu gündən,
Əsgərlərim qürur duydu, bu işdən,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Mirzəyev general-leytenant oldu,
General bu addan çox məmnun oldu,
General-leytenant qələbə çaldı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Ordu Araz boyu keçdi hücuma,
Eşidən xalqımız gəlmişdi cana,
Dedilər, bu işğal çatacaq sona,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Tez alındı, Xudafərin körpüsü,
Bu zaman kor oldu erməni gözü,
Bir daha deməyə qalmadı sözü,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Cəbrayılı asan keçirdik ələ,
Düşməni əliboş biz saldıq yola,
Onlar düşməmişdi, heç vaxt bu hala,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Zəngilana yol aldılar bir səhər,
Ordunun hücumu vermişdi bəhər,
Bu gün azadlığa çıxdı bu şəhər,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Noçiyev susdurdu xeyli düşməni,
Yağdırdı düşmənin üstə gülləni,
Qoymaram bir addım gələsən bəri,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.





Düşmənin üstünə od ələyirdi,
Bu Surxay Noçiyev güc eyləyirdi,
Səngərdə bir an da, o durmayırdı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Qəhrəman gəlmişdi, qəhrəman getdi,
Hər anda düşmənə həmlələr etdi,
Büləndi bayrağa, cənnətə getdi,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

O, qoymazdı düşmən girə səngərə,
Deyirdi öləcəm, qoymaram gələ,
Dedi ki, mən kiməm, o gələk bilə,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

O, şəhid adını qazandı, getdi,
Cənnətin yolunu burada seçdi,
Səngərdə ölməyi şərəfli bildi,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Ordan Qubadlıya döyüşə getdik,
Əvvəlcə düşmənin yerini seçdik,
Gedib Qubadlını viranə gördük,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Baxdıq ki, məscidə donuz qatılıb,
Erməni zay olub, çölə atılıb,
Allahın evinə gör nə qatılıb,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Ay erməni, sən nə günə qalmısan,
Allah evin, gör nə günə salmısan,
Gördüm ki, Allahı sən tanımırsan,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Hadrut da, Tuğ da, azad olubdu,
O acılar daha uzaq olubdu,
Daha ermənilər ordan qaçıbdı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Qubadlı, Xocavənd indi bizdədir,
Atılan mərmilər çatıb, sizdədir,
Erməni əsgəri gör nə gündədir,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Allah yerdə qoymaz bu nahaq qanı,
Acından öləcək, çıxacaq canı,
Taqətsiz yeriyir, o yanı-yanı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.





Paşinyanın gözü çıxıb kəlləyə,
Özü də, bilmədən düşüb kələyə,
Arxayın olmuşdu gələn köməyə,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Üz-üzə döyüşə bilmir yazıqlar,
Dronlar gələndə yaman qaçırlar,
Qaçıb tankın kölgəsində yatırlar,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

O da, acığını çıxdı Gəncədən,
Dedi sonra alacağam Bərdədən,
Bilməm, onlar nə istəyir ölkədən,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Ordumuz Şuşaya çox asan girdi,
Bu idi ordumun çoxdanki əhdi,
Babək işlətmişdi belə bir fəndi,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Dağlara dırmaşdı hərə bir yandan,
Bir dəstə o yandan, biri bu taydan,
Elə bil tutmuşlar ulduzdan, aydan,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Görünməmiş işlər oldu bu yerdə,
Əlbəyaxa döyüş oldu bir anda,
Ermənilər mat qalmışdı, bu yerdə,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Dava süngü, bıçaq ilə gedirdi,
Qumbara onları şil-küt edirdi,
Görənlər bir anda əldən gedirdi,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Əsgərlər bu yolla hücum etdilər,
Şuşanı dığadan azad etdilər,
Bayrağa bürünüb ora girdilər,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Boğub əli ilə atdı düşməni,
Qoymadı ki, gözün aça düşməni,
Özünü qayadan atdı erməni,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Tək-tük qalan qaçıb canın qurtardı,
Bir çoxun özünü qayadan atdı,
Erməni ordusu gözündən batdı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.





Ordumuz bayraqla girdi Şuşaya,
Çoxdan həsrət idi millət Şuşaya,
Elə bil ki, günəş doğdu Şuşaya,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Paşinyan gördü ki, Şuşa alındı,
Dedi, daş başıma, hara qalıb ki,
Ali Baş Komandan zərbə vurubdu,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Paşinyan bağırıb, hay-haray saldı,
Qəhərdən gözləri yamanca doldu,
Dedi, oynadığım yer harda qaldı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Bağırır, üstümə zərbələr gəlir,
Hər yandan üstümə hərbələr gəlir,
Əsgərlər qırılıb, üç-dördü qalır,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Gördü ki, Ali Baş Komandan gəlir,
Baxdı ki, düz onun üstünə gəlir,
Anladı başına bir yumruq gəlir,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Dedi: Vurma məni, təslim oluram,
Sən nə desən mən də, onu edirəm,
Mən bu gündən, Qarabağdan gedirəm,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Ağ bayrağı o qaldırdı havaya,
Bir nəfər gəlmədi dalınca haya,
Ermənilər tuş gəlmişdi qayaya,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Şuşa azad oldu, qaçaq-quldurdan,
Sarsaqları qova bildik oradan,
Şuşa bir qaladır bizə əzəldən,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Təslim aktısına o imza atdı,
Elə bil yatmışdı, kimsə oyatdı,
Yerində qaşların yaman oynatdı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Şuşaya bayrağı sancdı ordumuz,
Ordumuzla birləşibdir xalqımız,
Şuşamızı almaq idi əhdimiz,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.





Aktı imzaladı Putinlə İlham,
Paşinyanda çox sevindi o zaman,
Məğlum oldu Ermənistan o andan,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Paşinyan o vaxtdan üzə çıxmayıb,
O aktı aşkarda imzalamayıb,
Hələ də, zərbədən o ayılmayıb,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Qalan dığalar da, qaçdı qalınca,
Məhv oldular bircə başçı tapınca,
Hamısı düzüldü onun dalınca,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Bir güllə atmadan Ağdamı aldıq,
Özümüzü dünyada xoşbəxt saydıq,
Doğmaca vətənə biz sahib olduq,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Dəmir yumruq ilə açdı bu yolu,
Paşinyanın o andan, dəyişdi halı,
Kəsildi bununla hər qalmaqalı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Demişdi, Bakıya girəcək tanklar,
Cavabsız qalıbdı həmin suallar,
Həqiqət olmadı həmən arzular,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Kəlbəcəri fəth eylədik özümüz,
Kəlbəcərə həsrət idi gözümüz,
Daha yoxdur danışmağa sözümüz,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Qızıl çıxdı oyunbazın əlindən,
Qovduq iti qovan kimi elimdən,
Elə bil ki, daşdı, qopmur yerindən,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

İstisuyu döndərmişdi bazara,
Dərdindən düşəcək indi azara,
Bütün Ermənistan düşübdü dara,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

İndi bircə Laçın qalıb əllərdə,
Laçın adı əzbər olub dillərdə,
Hələ də, murdarlar gəzir o yerdə,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.





Bir neçə gün qalıb onlar çıxmağa,
Adi bir söz kar eyləmir axmağa,
Gərək zərbə endirəsən qorxağa,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Laçın da, alındı topsuz-tüfənsiz,
Bu cənnəti viran edib o fərsiz,
Qovuşduq vətənə, olduq kədərsiz,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Türk eli də, çox şad oldu xəbərdən,
Buraya gəldilər elə o gündən,
Dedilər, şad olduq, gözəl xəbərdən,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Türk eli əbədi bizə qardaşdı,
Ərdoğanla İlham birgə sirdaşdı,
Ankara Bakıya yaxşı yanaşdı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Azərbaycan indi bütöv vətəndi,
Öz xalqının dərdi-sərin çəkindi,
Qarabağ əzəldən bizim vətəndi,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Nanəciblər birсə bina qoymayıb,
O böyük Allahdan əsla qorxmayıb,
İnsanlıqdan bir nişanə qalmayıb,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Pis adamlar pis əməlin quludu,
Bu yol erməninin məhşur yoludu,
Ona görə, onlar yurdsuz olubdu,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Türk xalqıynan bu gün bayram edirik,
Biz dostları düşmənlərdən seçirik,
Düşmənlərin üstündən xətt çəkirik,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Xalqımızın üzü gülür bu yerdə,
Erməni tankları girovdu bizdə,
Paşinyanı həmişə görüm bu gündə,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Bakıda başladı zəfər paradı,
Nə qədər əzizdi demək bu adı,
İki qardaş qəbul edir paradı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.





Yeri də, göyü də, bayraq bəzəyir,
Ərdoğanla İlham birgə izləyir,
Bütün xalqım bu paradı izləyir,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Haqqımız var, bu bayramı etməyə,
Sevinirik, şən danışıb-gülməyə,
Biz haqlıyıq, ordu qədrin bilməyə,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Çox şükür, Qarabağ azad olubdu,
Azərbaycan yeni həyat tapıbdı,
Qarabağım Azərbaycan olubdu,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Azərbaycan haqq yolunu tutubdu,
Azərbaycan arzusuna çatıbdı,
Azərbaycan Qarabağı alıbdı,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Canımız tək sevdik Azərbaycanı,
Ana kimi sevdik Azərbaycanı,
Hamımız sevirik doğma vətəni,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Ali Baş Komandan qoydu nöqtəsin,
Bu dəmir yumruqla kəsibdir səsin,
Ağzında saxladı o bəd kəlməsin,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.

Zəfər qələbəsin çalan o oldu,
Əsrimizin qəhrəmanı o oldu,
Ərdoğanla hər bir zaman bir oldu,
Qarabağ bizimdir, bizim olacaq.
Erməni bu yurda həsrət qalacaq.
10.12.2020

## Ədalət zəfər çaldı

Haqdan gələn səsimdir,
Ürək deyən sözümdür,
Vətən iki gözümdür,
Ədalət zəfər çaldı.
Erməni saçın yoldu.

Prezident vurdu zərbə,
Paşinyan düşdü dərdə,
Dedi, gəlmərəm bir də,
Ədalət zəfər çaldı.
Erməni saçın yoldu.

Bağa kimi sürünür,
Təxribatla öyünür,
Üzdəniraq görünür,
Ədalət zəfər çaldı.
Erməni saçın yoldu.





Daşı da, yeyib, gedir,
Məzarı eşib gedir,
Zərbələr alıb gedir,
Ədalət zəfər çaldı.
Erməni saçın yoldu.

Qarabağdan qovuldu,
O qaçmaqdan yoruldu,
Bayrağımız sancıldı,
Ədalət zəfər çaldı.
Erməni saçın yoldu.

Bayrağı yox, adı yox,
Vətəni yox, yeri yox,
Millət kimi adı yox,
Ədalət zəfər çaldı.
Erməni saçın yoldu.

Həmişə daşa gedib,
Ümidi boşa gedib,
Ağlı özünə gedib,
Ədalət zəfər çaldı.
Erməni saçın yoldu.

Erməni yalançıdı,
O millət dilənçidi,
Nə versən alasıdı,
Ədalət zəfər çaldı.
Erməni saçın yoldu.

Şuşanı qanla aldıq,
Oraya bayraq sancdıq,
Şuşaya sahib olduq,
Ədalət zəfər çaldı.
Erməni saçın yoldu.

Qaldırdı ağ bayrağı,
Çağ olmadı, damağı,
Daha gəlmir sorağı,
Ədalət zəfər çaldı.
Erməni saçın yoldu.

Bu bizim haqqımızdı,
Vətəndaş payımızdı,
Doğmaca evimizdi,
Ədalət zəfər çaldı.
Erməni saçın yoldu.

Vətənim bütöv oldu,
Ordum qələbə çaldı,
Əhdimiz yerin aldı,
Ədalət zəfər çaldı.
Erməni saçın yoldu.

Ədalət zəfər çaldı.
Prezident sözün dedi,
Tarixə adın yazdı,
Ədalət zəfər çaldı.
Erməni saçın yoldu.
09.11.2020.





## Deyəcək

Ey dünya, tanıyın bu terrorçunu,
Harda aşdı, orda başdı erməni.
Kimlə qonşu olsa, bir neçə günü,
Həmin yerə vətənimdir deyəcək.

Qıyaq kimi kök atıbdır hər yana,
Kimlə yoldaş olsa, qəsd edər ona,
Təhlükə görəndə tez girər qına,
Sonra çıxıb mənəm-mənəm deyəcək.

Siçovul tək dağı-daşı gəmirir,
Bu mənfuru hamı yaxşı tanıyır,
Yalanların doğrultmağa çalışır,
Gördüyü hər yerə mənim deyəcək.

Ermənilər qandan qorxur əzəldən,
Dava görsə, qaçar itər gözlərdən,
Bu millət dünyada düşüb gözlərdən,
Harda dursa, ora mənim deyəcək.

Havadarı ona oyun öyrədir,
O təxribat yaradanda ucalır,
Ermənilər o Makrondan güc alır,
Düşünürəm buna oğlum deyəcək.

Uşaq demir, qadın demir alçaqlar,
Dişi sökür, dəri soyur alçaqlar,
Alınmasa haray salır sarsaqlar,
Bu yerə, bu göyə mənim deyəcək.

İrəvanı verdik, gözü doymadı,
Zəngəzuru aldı, yenə doymadı,
Göyçəni də, qamarladı, doymadı,
Olsun ki, Şuşaya mənim deyəcək.

Ermənilər indi düşüb pis hala,
Qorxudan qaçırlar, hər gündə dala,
Paşinyanda daha çatışmır hava,
İndi də, Gorusa mənim deyəcək.

Qardaşları saymadılar hayesi,
Tapılmadı ermənin yiyəsi,
Kənardan qalmışdı onun dayəsi,
Bilənmirəm indi nələr deyəcək.

Xalqımız düşünüb, tapdı çarəsin,
Başladılar bu vətən müharibəsin,
Qovduq bu torpaqdan, biz kəsdik səsin,
Görək indi hayes nələr deyəcək.

Prezidentim dəmir yumruq göstərdi,
Paşinyanın yolun ona göstərdi,
Birdəfəlik bu torpaqdan çıx dedi,
Gedib İrəvana mənim deyəcək.
30.11.2020.





## Salam olsun

Hər bir anda yanımdasan,
Damarımda, qanımdasan,
Ürəyimdə, canımdasan,
Salam olsun, bu birliyə.

Dar ayaqda hayanımsan,
Arxa duran dayağımsan,
Həm dostum, həm qardaşımsan,
Salam olsun, bu birliyə.

Ata türkün vətənisən,
Düşmənin gözün tökənsən,
Hər səsimə gələnimsən,
Salam olsun, bu birliyə.

Güclü ordu sahibidi,
Türk elinin qalibidi,
Sözünün də, ağasıdı,
Salam olsun, bu birliyə.

Düşmənin ox kimidi,
Qolu güclü nər kimidi,
Sınanmışdı, bərkimişdi,
Salam olsun, bu birliyə.

Orda başqan Ərdoğandı,
Hər bir kəsə nur verəndi,
Xalqımıza bu bəyandı,
Salam olsun, bu birliyə.

Türkə gücü çatan olmaz,
Özgə gözlə baxan olmaz,
Heç kəs bir söz deyə bilməz,
Salam olsun, bu birliyə.

Azərbaycana qardaşdı,
Yaxın olan bir sirdaşdı,
Sirdaş olan bir yoldaşdı,
Salam olsun, bu birliyə.

Elimiz bir, evimiz bir,
Dinimiz bir, dilimiz bir,
Məkanımız, yerimiz bir,
Salam olsun, bu birliyə.

Anlamazı anladırıq,
Quduranı ağladırıq,
Çox burunlar qanadırıq,
Salam olsun, bu birliyə.

Bir ananın iki oğlu,
Bir amalın iki yolu,
İlhamla-Ərdoğan yolu,
Salam olsun, bu birliyə.
05.01.2021.





## Qarabağ cana gəlir

Çəkilib qara bulud,
Hər yanda çal-çağırdı,
Gözüm görən həqiqət,
Elə bildim, nağıldı.

Sükunət yuxusundan,
Oyanıbdı Qarabağ.
Həmişə haqq yolunda,
Dayanıbdı Qarabağ.

Nanəciblər can atdı,
Onu yıxa bilmədi.
Düşmənlərin talei,
Üzlərinə gülmədi.

Şuşaya çox baxdılar,
Oxşaya bilmədilər.
Orda-burda süzdülər,
Oynaya bilmədilər.

Lalə ilə qanqala
Fərq qoya bilmədilər.
Dərd onları sökürdü,
Doyunca gülmədilər.

İndi gülür Qarabağ,
Hər yan çalır-çağırır.
Paşinyan can üstədi,
Hərdən də, bir bağırır.

Oyanıb Cıdır düzü,
Orda güllər üzürük.
O İsa bulağından,
Biz doyunca içirik.

Qarabağdan səs gəlir,
Qarabağ şikəstəsi.
Səmalara ucalır,
Şuşadan Xanın səsi.

Ordumuz qovdu ordan,
O iti qovan kimi.
Gördük başa düşmürlər,
Onlara basdıq bizi.

Yaşayacaq Qarabağ,
Yenə də, cana gəlir.
Canlanır hər bölgəmiz,
Yenidən qana gəlir.

Şəhidlərin qanından,
Boyandı ana vətən.
Şəhidin haqq səsinə,
Oyandı ana vətən.





Ana, oğul, uşaqlar,
Vermişdilər əl-ələ.
Həqiqət baş qaldırdı,
Haqq özü gəldi dilə.

Erməni xam xəyalı,
Artıq üzə gülmədi.
Ermənilər öz yerin,
Əzəlindən bilmədi.

Aldı dəmir zərbəni,
Ağlı gəldi başına.
Çəkildi qarğa-quzğun,
Uçdular öz daşına.

Murdarları qovmuşuq,
O cənnət Qarabağdan.
Torpaqlar azad olub,
Ləyaqətsiz sarsaqdan.

Qarabağ cana gəlib,
Çöl-çəmən üzə gülür.
Bu torpağa bu gücü,
İlham Əliyev verir.

Ən uca mükafata,
Layiqdi bu adınız.
Yeni tarixə düşdü,
Bu dəyərli adınız.
07.01.2021.

## Zəfər günüdür

Başını düz saxla, mənim millətim,
Bu gün ən dəyərli, əziz günündür.
Bu gün vətənimiz bütöv olubdur,
Xalqın şad günüdür, bayram günüdür,
Bu gün qələbədir, zəfər günüdür.

Ordum bu zülmətə işıq salıbdı,
Vətənimin Mübarizi olubdur,
Polad kimi neçə Polad olubdur,
Xalqın şad günüdür, bayram günüdür,
Bu gün qələbədir, zəfər günüdür.

Düşmənləri əzdi, qovdu ordumuz,
Qurban verdi, neçə oğul xalqımız,
Dedilər var olsun, güclü ordumuz,
Xalqın şad günüdür, bayram günüdür,
Bu gün qələbədir, zəfər günüdür.

Qırx dörd günə qırdıq düşmən belini,
Göstərdilər layiq oaln yerini,
Ali Baş Komandan verdi dərsini,
Xalqın şad günüdür, bayram günüdür,
Bu gün qələbədir, zəfər günüdür.

Otuz ilə qurduqları dağıldı,
Hayeslərin işi dağdan ağırdı,
Bilmək olmur, bunlar niyə paxıldı,
Xalqın şad günüdür, bayram günüdür,
Bu gün qələbədir, zəfər günüdür.





Elə bil yenidən doğulmuşuq biz,
Azad oldu işğaldan bu xalqımız,
İndi bəxtiyardı hər oğlan, hər qız,
Xalqın şad günüdür, bayram günüdür,
Bu gün qələbədir, zəfər günüdür.

Şuşada ucaldı azanın səsi,
Ucaldı orada Allah kəlməsi,
Cıdırda oxundu sevgi nəğməsi,
Xalqın şad günüdür, bayram günüdür,
Bu gün qələbədir, zəfər günüdür.

Bütün Azərbaycan azad olubdur,
Türk milləti bizlə həmrəy olubdur,
Millətim birləşib zəfər çalıbdır,
Xalqın şad günüdür, bayram günüdür,
Bu gün qələbədir, zəfər günüdür.

Bütün şəhidlərə biz baş əyirik,
Yaralı olana şəfa diləriк,
Müasir orduma sağ ol deyirik,
Xalqın şad günüdür, bayram günüdür,
Bu gün qələbədir, zəfər günüdür.

Ey millətim, gəlin verək əl-ələ,
Biz tutaq vətəni çiçəyə-gülə,
Firavan yaşayaq, biz bundan belə,
Xalqın şad günüdür, bayram günüdür,
Bu gün qələbədir, zəfər günüdür.

Çox şükür ölmədim, bu günü gördük,
Bu azad vətəni oxşadıq, öpdük,
Qələbə çalaraq, biz bayram etdik,
Xalqın şad günüdür, bayram günüdür,
Bu gün qələbədir, zəfər günüdür.

Ali Baş Komandan sözünü dedi,
Qarabağım Azərbaycandır! – dedi,
Dediyin eylədi, nidasın qoydu,
Xalqın şad günüdür, bayram günüdür,
Bu gün qələbədir, zəfər günüdür.
10.11.2020.

## Xoş gəldiniz

Ordum gəlir, əldə silah,
Xalqımın əlində bayraq,
Yayılıb hər yerə soraq,
Şuşamıza xoş gəldiniz.
Yollarına nur səpdiniz.

Sizi çoxdan gözləyirdik,
Addım-addım izləyirdik,
Biz Şuşasız dözməyirdik,
Şuşamıza xoş gəldiniz.
Yollarına nur səpdiniz.

Şuşam, gəldim ayağına,
Çox sevindik bu çağına,
Salam İsa bulağına,
Şuşamıza xoş gəldiniz.
Yollarına nur səpdiniz.





Bayram edir, Cıdır düzü,
Yallıya çağırır bizi,
Aydın olsun xalqın gözü,
Şuşamıza xoş gəldiniz.
Yollarına nur səpdiniz.

Ucaldı azanın səsi,
Xoşa gəlir hər kəlməsi,
Gəlir Qarabağ nəfəsi,
Şuşamıza xoş gəldiniz.
Yollarına nur səpdiniz.

Türk qardaşım çox sevindi,
Təbrik üçün bura gəldi,
Qardaş kimi sözün dedi,
Şuşamıza xoş gəldiniz.
Yollarına nur səpdiniz.

Şəhid ruhu çox şad oldu,
Torpağına qan axıtdı,
Şükür Şuşam tam azaddı,
Şuşamıza xoş gəldiniz.
Yollarına nur səpdiniz.

Prezident bayraq ucaltdı,
Sülhə özü imza atdı,
Dedi, Qarabağ azaddı,
Şuşamıza xoş gəldiniz.
Yollarına nur səpdiniz.
17.11.2020.

## Yaşa-yaşa mənim xalqım

Çox sağ olsun, mənim xalqım,
Çox təmizdir sənin qanın,
Cana gəlir hər ünvanın,
Yaşa-yaşa mənim xalqım.
Qarabağdır son ünvanım.

Birləşib bir yumruq olduq,
Qarabağa haray saldıq,
Çox şükür ki, qalib olduq,
Yaşa-yaşa mənim xalqım.
Qarabağdır son ünvanım.

Ata-oğul bir oldular,
Qardaş-bacı cəm oldular,
Vətəninə yar oldular,
Yaşa-yaşa mənim xalqım.
Qarabağdır son ünvanım.

Hərə öz borcunu verdi,
Neçə oğul canın verdi,
Neçə ana oğul verdi,
Yaşa-yaşa mənim xalqım.
Qarabağdır son ünvanım.

Dedi, düşmən çıxsın burdan,
Qovaq onu ana yurddan,
Təmizlənək itdən-qurddan,
Yaşa-yaşa mənim xalqım.
Qarabağdır son ünvanım.





Qarabağı azad edək,
Şuşaya biz səfər edək,
Düşmənləri yurddan qovaq,
Yaşa-yaşa mənim xalqım.
Qarabağdır son ünvanım.

Xankəndimiz doğma yurdum,
Alanmasam batar adım,
Sıx birləşib mənim xalqım,
Yaşa-yaşa mənim xalqım.
Qarabağdır son ünvanım.

Ordumla xalq bir oldular,
Prezidentə söz verdilər,
O sözə əməl etdilər,
Yaşa-yaşa mənim xalqım.
Qarabağdır son ünvanım.

Ağdam, Şuşa azad olub,
Kəlbəcər də, cana gəlib,
Zəngilanda güllər aşıb,
Yaşa-yaşa mənim xalqım.
Qarabağdır son ünvanım.

Füzulimiz gözəl diyar,
Xocalıya gedir yollar,
Xocavənd də, edir bayram,
Yaşa-yaşa mənim xalqım.
Qarabağdır son ünvanım.

Azad olub Cəbrayılım,
Qubadlıda gəzir ordum,
Hadrutda gedim qalım,
Yaşa-yaşa mənim xalqım.
Qarabağdır son ünvanım.

Generallar tarix yazdı,
Əsgərlərim canın verdi,
Zabitlər də, sözün dedi,
Yaşa-yaşa mənim xalqım.
Qarabağdır son ünvanım.

Hamımız bir yerə vurduq,
Prezidentə arxa olduq,
Birləşib bir yumruq olduq,
Yaşa-yaşa mənim xalqım.
Qarabağdır son ünvanım.

Azərbaycan bütöv oldu,
Bütün xalqım türklə oldu,
Birləşərək bayram etdi,
Yaşa-yaşa mənim xalqım.
Qarabağdır son ünvanım.
17.01.2021.





## Olur

Hər zülmətə bir işıq var deyirlər,
Hər gecəyə bir gündüz var deyirlər,
Hər acıya bir şirin var deyirlər,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

O vaxtdan mənfurlar od qalayırdı,
Hər yanı tutsa da, hey ağlayırdı,
Terror yaratmaqdan heç doymayırdı,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Yuxarıya yazdılar ki, ölürük,
Bu millətin acısına dözmürük,
Açıq-aşkar cəhənnəmi görürük,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Azərbaycan tamam qalxıb ayağa,
Bunlar bizi salıbdılar ayağa,
Özünüzü tez yetirin buraya,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Qızıl Ordu hücum etdi Bakıya,
Tankla, topla onlar girdi Bakıya,
Odələndi, yerdən-göydən Bakıya,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Milləti xəbərsiz yaman qırdılar,
Hər bir kəsi, görən kimi vurdular,
Uşaq, qadın, qocaları əzdilər,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Məktəbli Larisa günahsız öldü,
Məktəbli çantası əlində getdi,
Vəhşi qanişənlər belə yol seçdi,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Nə günahı Fərizənin, İlhamın,
Sormadılar axı nədir günahın,
Axıtdılar neçə sevənin qanın,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Qanlı Yanvar göz önündən getməyir,
Günahsız ölənlər yaddan çıxmayır,
Belə qırğın salanlar, utanmayır,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Əzilsək də, əqidəmiz dönmədi,
İçimizdə olan arzu sönmədi,
Bizim türklük ideyası ölmədi,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.





Biz ölməklə, ölməzliyə qovuşduq,
Elə bil yatmışdıq, bu an oyandıq,
Azadlığın keşiyində dayandıq,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Qara Yanvar qara günün sonudur,
Tarix yazan şəhidimin qanıdır,
Bu şəhidlik, ölməzliyin yoludur,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Ermənilər təxribatdan əl çəkmir,
Kim olduğun anlamayır, o qanmır,
Bizim Qarabağdan yenə əl çəkmir,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Xalqımız birləşib, qalxdı ayağa,
Türk eli eşidib gəldi sorağa,
Ehtiyac varıdı belə dayağa,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Otuz ilin acısını biz atdıq,
Ermənini cəhənnəmə biz atdıq,
Ən böyük arzuya, murada çatdıq,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Təmizlədik biz o qara ləkəni,
Ermənidən təmizlədik ölkəni,
Bir də, bura buraxmarıq gədəni,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Şəhidlərin ruhları şad olsun,
Oğullar vətənə bir sipər olsun,
Qoy döyüşən əsgərimiz var olsun,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Siz uyuyun, Mübarizlər var olsun,
Bizə əyri baxan gözlər kor olsun,
Millətimə, o Yaradan yar olsun,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Doğulacaq hələ neçə Poladlar
Dildə şüar olacaqdır bu adlar,
Hər an sayıq dayansınlar övladlar,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.

Qarabağla Azərbaycan bir oldu,
Ordumuzla xalqın sözü bir oldu,
Ali Baş Komandan bayraqdar oldu,
Aqil sözü əzəl-axır düz olur.
Kamillərin gözü-könlü tox olur.
19.01.2021.





# ŞƏXSİYYƏTLƏR HAQDA

***Özü üçün yaşamaq,***
***Çoxdan ölmüş kimidir.***
***Eləsi çoxdan ölüb,***
***Elə bilir, diridir.***

***Şəhid olmaq şərəfdir,***
***Ürəkdə təpər olsa.***
***Xalqı onu sevəcək,***
***Vətənə bağlı olsa.***

***Şəhidlik ucalıqdır,***
***Hər kəs ucala bilmir.***
***Allah izni verməsə,***
***Tarixə düşə bilmir.***

***Torpaqdan yaranmışıq,***
***Torpağa getmək üçün.***
***Can verdik, torpaq aldıq,***
***Vətəndaş olmaq üçün.***

## Həzrəti İmam Əli Əleyhissalamın kəlamları

*Övladın ata boynunda, atanın da, övladın boynunda bir neçə haqqı var. Övladın borcu odur ki, ataya hər şeydə itaət edə, atanın haqqı odur ki, övlada yaxşı ad verə, ona gözəl əxlaq, "Quran" və elm öyrədə.

*Hər kəsin malına iki şərik var: vərəsələr və hadisələr.

*Padşahlar Yer üzündə Allahın gözətçiləridir.

*Elm və bilik bəhanə axtaranların yolunu kəsər.

*Yaxşı dost qohumdan əzizdir.

*Qənaətlə padşahlığa çatmaq olar, yaxşı xasiyyətlə naz və nemətə.

*Tamahkar xar və zəlildir.

*Pislik edənə yaxşılıq etməklə əziyyət ver.

*Dostları əldən vermək qəriblikdir.

*Varlılıq qərib yerdə vətəndir, yoxsulluq isə öz vətənində qəriblikdir.

*Ən böyük dövlət ağıldır, ən böyük yoxsulluq isə nadanlıq.

*Bəxşiş et, israfçılıq etmə.

*Ağıllı adam odur ki, gördüyü işin aqibətini qabaqcadan fikirləşsin.

*Gözəllik insanın geyimində deyil, elm və ədəbindədir.

*Dost və düşmənə qarşı ədalətli ol.

*Hər kəs alimlərlə oturub-dursa ehtiram tapar.

*Hər kim çox zarafat etsə, hörmətsiz olar.

*Tez-tez görüşmək inciklik gətirər.

*Özünü bəyənmək ağlın azlığına dəlalət edir.

*Yoxsulluq zirəng adamı da, lal edər.

*Səbir etmək şücaət və məharətdir.

*Fürsət bulud kimi ötüb keçəndir, yaxşı fürsəti əldən verməyin.

*Axmağın dili onun ağzındadır, ağıllının dili isə onun ürəyindədir.

*Sənin eyiblərin örtülüdür o vaxta qədər ki, malın və vəzifən var.





*İki adam mənim yolumda həlakdır: dostum və düşmənim.

*Hər kəs səbir edə bilməsə, tabsızlıq və dözümsüzlük onu puç edər.

*Tünd xasiyyət dəliliyin əlamətidir, ona görə tündxasiyyət adam peşman olar. Əgər peşman olmasa, onda dəliliyi yerindədir (dəlidir).

*Dostuna bütün sirlərini açma, bir gün həyat onu sənə düşmən edər, peşman olarsan. Düşmənçilikdə pərdəni yırtma, bir gün gələr dostlaşarsan, xəcalət çəkərsən.

*Axmaq adamla dostluq etmə, o, istəyir öz işini sənə sevdirsin və səni öz gününə salsın.

*Sözü nə qədər ki, danışmamısan sənin qulundur, danışdın sən onun qulusan. Dilini qoru, necə ki, qızılı xəzinədə qoruyursan. Çox olub ki, bir kəlimə ilə nemətləri əldən verib, əzablara düçar olublar.

*Ağıllı kişilər sözləri ilə elə işlər görürlər ki, həmin işləri qılınc və kötək gücünə görmək mümkün deyil.

*O ruzi ki, kifayət edər, bəsdir.

*Dul qadınlara və yetim uşaqlara rəhm edin, məzlumlara arxa olun.

*Abırlı olub ümidsiz qalmaq əl açıb dilənməkdən yaxşıdır.

*Heç kəsin sirrini faş etmə, lap özü sirrini faş etsə də.

*Ağıldan böyük gözəllik yoxdur.

*Gözlərini naməhrəmdən çəkməyən peşmanlıq çəkər.

*Ağıllı adam uzaqgörən olar.

*Mehriban yoxsul biganə varlıdan yaxşıdır.

*Minnət qoymaq yaxşılıqları batil edər.

*İnsanın qiyməti onun etdiyi yaxşılıqları ilə ölçülür.

*Dili şirin olan adamın qardaşları çox olar.

*Tamahkar adam haramdan əl çəkməz.

*Paxıl adamın rahatlığı olmaz.

*Məkr və hiyləsi gizli olan şəxs ən böyük düşməndir.

*Ədalət qəlb üçün böyük yükdür.

*Paxıl adam günahsız adama da, qeyzli olar.

## Ya Hüseyn

*Allahın adıyla başlayaq.*
*Allah bütün vətən uğrunda şəhid*
*olanlara rəhmət eləsin. Amin.*
*İmam Hüseynin şəhidliyi şərəfinə.*

(mərsiyə)

Necə yardın bu zülməti,
Necə tapdın sən qeyrəti,
Etdin məluna nifrəti,
Əli İbni, Ya Hüseyn.
Rəbbi Aləm Ya Hüseyn.

Sən heç kəsə gəl demədin,
Sən heç kimə baş əymədin,
Qorxu nədir heç bilmədin,
Əli İbni, Ya Hüseyn.
Rəbbi Aləm Ya Hüseyn.

Çətin yolu ali bildin,
Qərarını özün verdin,
Hasil oldu gözəl əhdin,
Əli İbni, Ya Hüseyn.
Rəbbi Aləm Ya Hüseyn.

Ağır işə sinə gərdin,
Bu meydanı özün seçdin,
Sən Yezidi namərd bildin,
Əli İbni, Ya Hüseyn.
Rəbbi Aləm Ya Hüseyn.





Həmlələrdən yan durmadın,
Düşmənə tələ qurmadın,
Şəhidlikdən sən qorxmadın,
Əli İbni, Ya Hüseyn.
Rəbbi Aləm Ya Hüseyn.

Vurdu kafər neçə zərbə,
Hazır idin sən bu hərbə,
Məxsus idin sadiq qəlbə,
Əli İbni, Ya Hüseyn.
Rəbbi Aləm Ya Hüseyn.

Günəşli gün oldu gecə,
Bədən qaldı yerdə necə,
Zəhmətin getmədi heçə,
Əli İbni, Ya Hüseyn.
Rəbbi Aləm Ya Hüseyn.

Bədənsiz baş yerdə qaldı,
Yer üzünə haray saldı,
Bu cənnətə gedən yoldu,
Əli İbni, Ya Hüseyn.
Rəbbi Aləm Ya Hüseyn.

Əhli-beyt əsir düşdü,
Nəşin qumun üstə bişdi,
Görən dedi, bu nə işdi,
Əli İbni, Ya Hüseyn.
Rəbbi Aləm Ya Hüseyn.

Bax beləcə adın qaldı,
Ürəklərdə odun yandı,
Şəhidliyin haray saldı,
Əli İbni, Ya Hüseyn.
Rəbbi Aləm Ya Hüseyn.

İslamiyyət tapdı şəfa,
Bu yolda çox çəkdim cəfa,
Müsəlmanlar sürür səfa,
Əli İbni, Ya Hüseyn.
Rəbbi Aləm Ya Hüseyn.

Şəhidliklə vurdun zərbə,
Allah deyib girdin, hərbə,
Saldın neçəsini dərdə,
Əli İbni, Ya Hüseyn.
Rəbbi Aləm Ya Hüseyn.

Ucaldın Allah eşqinə,
İslam üçün gərdin sinə,
Tək yol açdın bu çətinə,
Əli İbni, Ya Hüseyn.
Rəbbi Aləm Ya Hüseyn.

Kərbəla düzündə şəhid,
Burda nərə çəkir igid,
Yetişdim əhdimə xaliq,
Əli İbni, Ya Hüseyn.
Rəbbi Aləm Ya Hüseyn.





Bacın səndən xəbər tutdu,
Dedi, bu ki, yanar oddu,
Baş bədəndən ayrı qaldı,
Əli İbni, Ya Hüseyn.
Rəbbi Aləm Ya Hüseyn.

Nə bacı var, nə də, qardaş,
İsti qumdur sənə sirdaş,
Şəhidlikdə sən oldun baş,
Əli İbni, Ya Hüseyn.
Rəbbi Aləm Ya Hüseyn.
09.08.2014.

## Sülhün keşiyində duran atamız

Siz dahi şəxsiyyət, müqəddəs ata,
Qoymadın düşmənlər murada çata,
Az qaldı, bu millət gözündən bata,
Sülhün keşiyində duran atamız.

Gördün Azərbaycan başsız görünür,
Bölgələrə parçalanır, bölünür,
Düşmənimiz baxır yaman sevinir,
Yağılar əlindən aldın, atamız.

Dözmədin tapdaqda qala mülkümüz,
Qıymadın dağılsın ana yurdumuz,
Qoymadın çətinə düşə yolumuz,
Bizə arxa-dayaq oldun, atamız.

Olmuşdu vətənim bir neçə para,
Son qoydun zəkanla bu intizara,
Çəkdin düşmənləri məhşərə, dara,
Çoxların bu yolda yordun, atamız.

Dünya bələd oldu var-gücünüzə,
Gətirdin doğmalıq öz dilimizə,
Çox yollar açmısan vətənimizə,
Sən dostluq körpüsü saldın, atamız.

Buruqlar dənizdə qatar-qatardı,
Dünyaya səs salıb haray qopardı,
Kəmərlər Ceyhana artıq yol aldı,
Əhdinizə sadiq qaldın, atamız.

Bayrağı ucaltdın, adı ucaltdın,
Bakını əzəlki ada qaytardın,
Bütün yer üzünə bizi tanıtdın,
Hər yana şad xəbər yaydın, atamız.

Qiymətli kəlamın yenilməz oldu,
Hər sözün millətə bir mayaq oldu,
Xalqımın inamı bir sizə qaldı,
Paxılın belini qırdın, atamız.

Səksəndən doxsana, yüzə çatasan,
Hər arzunu, istəyini tapasan,
Özün Qarabağa bayraq sancasan,
Deyək qələbəni çaldın, atamız.





Siz dahi şəxsiyyət, müqəddəs ata,
Qoymadın düşmənlər murada çata,
Az qalmışdı millət gözündən bata,
Sülhün keşiyində duran atamız.
16.02.2003.

## Azad edən, Ali Baş Komandandır!

**(poema)**

*Cənab Ali Baş Komandan Prezidentimiz*
*İlham Əliyevin şərəfinə*

Ali Baş Komandan, canın sağ olsun,
Uca adın bu dünyada var olsun,
Sizi istəməyən kəslər xar olsun,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Özün yazdın, bu tarixə adını,
Gözəl xalqım yaşadacaq adını,
Yandırdınız, hər bir evin şamını,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Bütün millət səninlə fəxr eyləyir,
Hamı sizdən yeni xəbər gözləyir,
Hər sözünüz məclisləri bəzəyir,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Silahlanan güclü ordu saxladın,
Dinənlərin ağzın sözlə bağladın,
Düşmənləri yerindəcə saxladın,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Siyasətdə qalib gəldin hər kəsə,
Susdu onlar, cavab tapmadı sözə,
Çoxunun sözünü çevirdin tərsə,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Xalqınla birləşib, bir yumruq oldun,
Hücumda düşmənin başından vurdun,
Dünyaya səs salan, güclü nər oldun,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Allah sizi ürəyincə yaşatsın,
Canını sağ, düşmənini puç etsin,
Yaradanın hər an sizə yar olsun,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Otuz ilin sükunətin pozdunuz,
Özünüz tutarlı qanun yazdınız,
Mənfur olan düşmənləri əzdiniz,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!





Ataya bənzədin, hər an ucaldın,
O, ulu Heydərdən xeyli güc aldın,
Bu doğru həyatı özün yaşadın,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Ordunla çox yaxın silahdaş oldun,
Həm əsgər, həm də, Baş Komandan oldun,
Düz sözlə çoxunun belini qırdın,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Hər kəsə ya ata, ya qardaş oldun,
Məzlum olanların qeydinə qaldın,
Ali məclislərdə düz təklif verdin,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Atanın yolunu davam edirsən,
Ağıllı sözünlə önə keçmisən,
Ağır olan imtahandan keçmisən,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Çox gəldi, çox getdi o başbilənlər,
Düzələr dedilər, o az bilənlər,
Heç nə etmədilər, o baş yeyənlər,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Ordunun gücünü önə gətirdin,
Ağır yükü, öz çiyninə götürdün,
Qaçqınların dərdin hər an çəkirdin,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Nəhayət, ordunu gətirdin cana,
Yeni həyat verdin, hər bir insana,
Səs yayıldı bütün Azərbaycana,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

İlk gündən düşmənə vermədin aman,
Budadın düçmənin başına hər an,.
Paşinyanın halın eylədin yaman,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Zəhər qatdın erməninin aşına,
Bilmirdilər bu iş gələr başına,
Güclü ordum, od ələdi başına,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Düşmənlər gördü ki, dronlar gəlir,
Dığalar ya qaçır, ya da, ki, ölür,
Topçularım başlarına od tökür,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!





Zabirlərim, əsgərlərim var olsun,
Bütün şəhidlərin ruhu şad olsun,
Arzum budur, yaralı tez sağalsın,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

İti qovan kimi qovdun onları,
Zor ilə çıxara bildin onları,
Bağladın üzünə bütün yolları,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Ermənidən təmizləndi vətənim,
Çəkildi üstündən çəni vətənin,
Ona vətən olmaz, mənim vətənim,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Vətəni qurtardın ağır bəladan,
Sizə sağ can diləyirəm Allahdan,
Torpaqları təmizlədin dığadan,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Alındı Qarabağ, tam azad oldu,
Paşinyan görəsən harada qaldı,
Çəkdiyi o yollar bəs necə oldu,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Ulu Heydər ruhunu şad eylədin,
Ata vəsiyyətin təmin eylədin,
Qovdun düşmənləri, aman vermədin,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Qardaşın Ərdoğan yaxının oldu,
Türk xalqı ordumun dayağı oldu,
Ordusu ordumun mayağı oldu,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Artıq Azərbaycan bütöv ölkədir,
Yer altı, yer üstü qızıl bölgədir,
Xalqım bu vətənin nazın çəkəndir,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Bu yüz ildə qələbəni sən çaldın,
Azərbaycan qəhrəmanı sən oldun,
Siyasətin nidasını sən qoydun,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Adın yaşayacaq neçə qərinə,
Son qoydun, bu xalqın dərdi-sərinə,
İndi haqq-ədalət gəldi yerinə,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

Bu qələbən tarixlərdə qalacaq,
Ali Baş Komandan memar olacaq,
Bu zəfərin bir nümunə olacaq,
Bütöv Qarabağım – Azərbaycandır!
Azad edən, Ali Baş Komandandır!

02.12.2020.








## Elimizin Ağası

Onda bir ilahi qüvvə var idi,
Min bir sirrin açarıydı, o Ağa.
Hər sözündə böyük hikmət var idi,
Xəstələrin dərmanıydı, o Ağa.

Nəzir-niyaz qapısına axardı,
Gələn xəstə ordan sağlam çıxardı,
Bir az suyu üz-gözünə vurardı,
İnsanların şəfasıydı, o Ağa.

Nəzirlərin götürməzdi hamısın,
Qaytarardı sahibinə yarısın,
Bütün mahal tanıyardı qapısın,
Sərrafların sərrafıydı, o Ağa.

Soraqları uzaqlardan gələrdi,
Ehtiramı, nuru haqdan gələrdi,
Şux danışıb asta-asta gülərdi,
Elimizin Ağasıydı, o Ağa.

Bir əsrə yaxın ömür sürmüşdü,
Bu dünyanın gəlin-gedin görmüşdü,
Neçə sınıq qəlbi özü hörmüşdü,
İmkansızın atasıydı, o Ağa.

İndi yağı əlindədi məzarı,
Rəhmətlə, cənnət dolu məzarı,
Nurla dolu gülə dönmüş məzarı,
Obamızın babasıydı, o Ağa.

Adınızı yaşadanlar sağ olsun,
O cəddiniz Ağa ona yar olsun,
Millətimin axrı bəxtiyar olsun,
Xalqımızın pənahıydı, o Ağa.

Səni çağırırıq dara düşəndə,
Çovğuna, borana, qara düşəndə,
Kövrəlir qəlbimiz yada düşəndə,
Millətimin baş tacıydı, o Ağa.
Sizə min rəhmət, Seyid Həsən Ağa.





## Sizi sevir, bütün xalqım

***Hörmətli Ali Baş Komandan, Sizi ad günü münasibətilə ürəkdən təbrik edərək, Sizə uzun ömür, cansağlığı arzulayıram.***

Haqqınız var öyünməyə,
Hünərinə sevinməyə,
Ad gününə, söz deməyə,
Sizi sevir, bütün xalqım.
Ey, Ali Baş Komandanım.

Ordumuza güc verdiniz,
Çətinliyə yol açdınız,
Xalqımızla bir oldunuz,
Sizi sevir, bütün xalqım.
Ey, Ali Baş Komandanım.

Bizə yeni həyat verdin,
Hər bir kəsə arxa oldun,
Vətənində əsgər oldun,
Sizi sevir, bütün xalqım.
Ey, Ali Baş Komandanım.

Ordumuzun önündəsən,
Əsgərimin yanındasan,
Haqq-ədalət yolundasan,
Sizi sevir, bütün xalqım.
Ey, Ali Baş Komandanım.

Çox dəyərli bir iş gördün,
Ərdoğanla qardaş oldun,
İnanılmaz bir ad qoydun,
Sizi sevir, bütün xalqım.
Ey, Ali Baş Komandanım.

Ermənin belin qırdın,
Hər dinənə cavab verdin,
Qarabağ bizimdir! – dedin,
Sizi sevir, bütün xalqım.
Ey, Ali Baş Komandanım.

Çox ağızlar yuma bildin,
Anlamazın dərsin verdin,
Çox sözü ağızda qoydun,
Sizi sevir, bütün xalqım.
Ey, Ali Baş Komandanım.

Xalqı qurtardın bəladan,
Sizi qorusun Yaradan,
Düşmən getdi Qarabağdan,
Sizi sevir, bütün xalqım.
Ey, Ali Baş Komandanım.

Yumruğunuz dəmir oldu,
Hər sözünüz yerin aldı,
Ordumuz qələbə çaldı,
Sizi sevir, bütün xalqım.
Ey, Ali Baş Komandanım.





Nəsihət öz yerin aldı,
Ata ruhu çox şad oldu,
Şuşamız tam azad oldu,
Sizi sevir, bütün xalqım.
Ey, Ali Baş Komandanım.

Ata yolu davam edir,
Bu yol gələcəyə gedir,
Oğul ata yolun seçir,
Sizi sevir, bütün xalqım.
Ey, Ali Baş Komandanım.

Çox ağızlar açıq qaldı,
Dedilər, bu yeni yoldu,
Anlamazlar indi qandı,
Sizi sevir, bütün xalqım.
Ey, Ali Baş Komandanım.

Bayrağımız uca olsun,
Mövqeyin əbədi olsun,
Sözün qılınc kimi kəssin,
Sizi sevir, bütün xalqım.
Ey, Ali Baş Komandanım.
-
Ərdoğanla durun qoşa,
Türk eliylə birgə yaşa,
Yaratdıqca gəlin coşa,
Sizi sevir, bütün xalqım.
Ey, Ali Baş Komandanım.
24.12.2020.

## Ali Baş Komandanım!

Siz yeni tarix yazdınız,
Xalqa nurlu yol açdınız,
Düşmənin belin qırdınız,
Qarabağdır son ünvanım.
Ey, Ali Baş Komandanım!

Haqq səsini ucaltmısan,
Erməniyə od qoymusan,
Zəfərlərdən güc almısan,
Qarabağdır son ünvanım.
Ey, Ali Baş Komandanım!

Xalqın şanlı rəhbərisən,
Vətəninin əsgərisən,
Etdiyini düz edirsən,
Qarabağdır son ünvanım.
Ey, Ali Baş Komandanım!

Millət hər an yanındadır,
Güclü ordun arxandadır,
İşimiz haqq yolundadır,
Qarabağdır son ünvanım.
Ey, Ali Baş Komandanım!

Otuz ilin pasın açdın,
Əlacını özün tapdın,
Susanların dilin açdın,
Qarabağdır son ünvanım.
Ey, Ali Baş Komandanım!





Bütün bəhanəni kəsdin,
Anlamazın dərsin verdin,
Düz cavabla belin əydin,
Qarabağdır son ünvanım.
Ey, Ali Baş Komandanım!

Allahım Sizi qorusun,
Qırdın tilsimin qapısın,
Yerə vurdun sən hamısın,
Qarabağdır son ünvanım.
Ey, Ali Baş Komandanım!

Qarabağım Azərbaycan,
Qurban olsun, ona bu can,
Nidasını sən qoymusan,
Qarabağdır son ünvanım.
Ey, Ali Baş Komandanım!

Yolunuz ata yoludur,
Həmişə haqqa bağlıdır,
Üzümüz türkə doğrudur,
Qarabağdır son ünvanım.
Ey, Ali Baş Komandanım!

## Əziz dostum

*Əziz dostum Hacı Zaməddin Ziyadoğlunun yetmiş dördüncü ildönümünə həsr edirəm.*

Əziz dostum, gəlmişəm ad gününə,
Çox sevindim bu günkü şad gününə,
Şahid olaq hər zaman şən gününə,
Qazaxlılar olur duzlu, məzəli.
Əziz dostum, həncərisən, həncəri.

Adlı-sanlı saf insansan, həyatda,
Çox az adam tanıyıram siz yolda,
İmzası var soy adının bu adda,
Qazaxlılar olur duzlu, məzəli.
Əziz dostum, həncərisən, həncəri.

Şan-şöhrətin adın kimi ucadı,
Dilin duaçıdı, əlin haqdadı,
Hər işin, əməlin düzgün yoldadı,
Qazaxlılar olur duzlu, məzəli.
Əziz dostum, həncərisən, həncəri.

Paklıq sizi çəkib həccə apardı,
Bu yol bütün haqq yolundan ucadı,
Həcc adınız hər şöhrətdən ucadı,
Qazaxlılar olur duzlu, məzəli.
Əziz dostum, həncərisən, həncəri.





Mən sizi tanıdım, yazıb-yaradan,
Pay veribdi insanlığı Yaradan,
Saf əqidə sizə keçib atadan,
Qazaxlılar olur duzlu, məzəli.
Əziz dostum, həncərisən, həncəri.

Vətəndə sevilib gəlirsən xoşa,
Dəyməsin heç zaman ayağın daşa,
Allah verən payı qürurla yaşa,
Qazaxlılar olur duzlu, məzəli.
Əziz dostum, həncərisən, həncəri.

Yaşamağa haqqınız var yüzəcən,
Bütün ürək arzusunu görəsən,
Ömür yollarında görmə duman, çən,
Qazaxlılar olur duzlu, məzəli.
Əziz dostum, həncərisən, həncəri.

İsmayılla qardaş oldun, ay hacı,
Görməyin həyatda bir daha acı,
Müqəddəs torpaqda almısan tacı,
Qazaxlılar olur duzlu, məzəli.
Əziz dostum, həncərisən, həncəri.
Əziz dostum, həncərisən, həncəri.

30.05.2017.

## Oxuya-oxuya getdin

*Zəngilan rayonunun Ağbən dayaq məntəqəsində igidlik göstərərək şəhidlik zirvəsinə çatan Xudayar Yusifzadənin əziz xatirəsinə ithaf edirəm.*

Əzəldən bəxtinə yazılıb, yazı,
Qaçmaz olmur bu yazıdan, ən azı,
Heç vaxt, taleindən olma narazı,
Oxuya-oxuya getdin, ay bala.
Gülə-gülə şəhid oldun, ay bala.

Vətəninə bağlı, bir oğul idin,
Həmişə səngərdə, deyib gülürdün,
Vətəni canından artıq sevirdin,
Oxuya-oxuya getdin, ay bala.
Gülə-gülə şəhid oldun, ay bala.

Silahlanıb getdin düşmən üstünə,
İstəyirdin tez çatasan əhdinə,
Öz gücünü, sən göstərdin düşmənə,
Oxuya-oxuya getdin, ay bala.
Gülə-gülə şəhid oldun, ay bala.

Hücuma keçəndə, öndə gedirdin,
Ağır döyüş yolun, özün seçirdin
Düşmənini zəmi kimi, biçirdin,
Oxuya-oxuya getdin, ay bala.
Gülə-gülə şəhid oldun, ay bala.

Qarabağı azad etmək, nə xoşdu,
Düşməni görəndə, qanınız coşdu,
Sizi görən ermənilər, tez qaçdı,
Oxuya-oxuya getdin, ay bala.
Gülə-gülə şəhid oldun, ay bala.
Oxuyub deyirdin, vətən yaxşıdı,





Qarabağım, hər məkandan yaxşıdı,
Şuşamız da, Qarabağın tacıdı,
Oxuya-oxuya getdin, ay bala.
Gülə-gülə şəhid oldun, ay bala.

Cəbrayıldan Zəngilana yol getdik,
Bir an da durmadan, hücuma keçdik,
Ermənıyə nə lazımsa, biz etdik,
Oxuya-oxuya getdin, ay bala.
Gülə-gülə şəhid oldun, ay bala.

Demişdim, bayrağı özüm sancacam,
Sevinərək, onu özüm qucacam,
Şuşamızda, qələbəni görəcəm,
Oxuya-oxuya getdin, ay bala.
Gülə-gülə şəhid oldun, ay bala.

Səngərimdə nişangaha tuş gəldim,
Mərmilər üstümə yağdığın gördüm,
Ürəklə, vətənə, əlvida dedim,
Oxuya-oxuya getdin, ay bala.
Gülə-gülə şəhid oldun, ay bala.

Qələbə zəfərin, görə bilmədim,
Ürəkdən gələni, deyə bilmədim,
Heyf, Qarabağı görə bilmədim,
Oxuya-oxuya getdin, ay bala.
Gülə-gülə şəhid oldun, ay bala.
05.11.2020.

## Əsgər anası

*Bütün əsgər analarının şərəfinə*

Böyütmüsən hər oğulu nər kimi,
Dar ayaqda dayandılar kəl kimi,
Ana yurda sahibdilər ər kimi,
Sən böyük ürəksən, əsgər anası.
Necə də, xoşbəxtsən, əsgər anası.

Geyindi hər oğul, əsgər formasın,
Çox tez mənimsədi, səngər qaydasın,
Hamı əsgər görsün, əziz balasın,
Sən böyük ürəksən, əsgər anası.
Necə də, xoşbəxtsən, əsgər anası.

Vətəni yağıdan qoruyacaqlar,
Hər bəndi-bərəni bağlayacaqlar,
Vətəndaş borcunu anlayacaqlar,
Sən böyük ürəksən, əsgər anası.
Necə də, xoşbəxtsən, əsgər anası.

Oğullar vətənin dadına yetər,
Ən əziz vətəni – ananı seçər,
O vətən yolunda canından keçər,
Sən böyük ürəksən, əsgər anası.
Necə də, xoşbəxtsən, əsgər anası.





İgid səngərinə yağı girməsin,
Xalqının başından bir tük getməsin,
Oğulun bayrağı əldən düşməsin,
Sən böyük ürəksən, əsgər anası.
Necə də, xoşbəxtsən, əsgər anası.

Başımızın tacısınız analar,
Dünyamıza anasınız analar,
Qəhrəmanlar anasısan analar,
Sən böyük ürəksən, əsgər anası.
Necə də, xoşbəxtsən, əsgər anası.

Həzilərə, Qafurlara anasan,
O Fəridə, Mübarizə anasan,
Əliyara, gənc Çingizə anasan,
Sən böyük ürəksən, əsgər anası.
Necə də, xoşbəxtsən, əsgər anası.

Vətən bizim ürəyimiz, qanımız,
Vətən bizim vüqarımız, adımız,
Vətən bizim şöhrətimiz, şanımız,
Sən böyük ürəksən, əsgər anası.
Necə də, xoşbəxtsən, əsgər anası.
10.09.2020-ci il.

## Allah Sizi var eləsin

*Gözəl insan, əsl dost olan*
*Bəhruz Seyidlinin şərəfinə*

Allahım Sizi qorusun,
Adın ucalarda olsun,
Övladların xoşbəxt olsun,
Allah Sizi var eləsin.
Şərəfini bol eləsin.

Hər an məni yaşadırsan,
Yaşatmaqla ucaldırsan,
Gözəl yazıb-yaradırsan,
Allah Sizi var eləsin.
Şərəfini bol eləsin.

Hər vaxt halımı sorursan,
Mənliyini qoruyursan,
Ucalara ucalırsan,
Allah Sizi var eləsin.
Şərəfini bol eləsin.

Sadə kişinin oğlusan,
Üç qardaşdan ortancılsan,
Olduğun kimi qalasan,
Allah Sizi var eləsin.
Şərəfini bol eləsin.





Sən öz yolunu bilirsən,
Vətənində sevilirsən,
Səmimi deyib-gülürsən,
Allah Sizi var eləsin.
Şərəfini bol eləsin.

Qırx altının içindəsən,
Çox şükür ki, xoş gündəsən,
Hər zaman öz işindəsən,
Allah Sizi var eləsin.
Şərəfini bol eləsin.

Varlığımın açarısan,
Aparıcı adamısan,
Sən Allaha çox bağlısan,
Allah Sizi var eləsin.
Şərəfini bol eləsin.

Hər an Sizi izləyirəm,
Can sağlığı diləyirəm,
Sizi yüzə səsləyirəm,
Allah Sizi var eləsin.
Şərəfini bol eləsin.
22.12.2020.

## Şəhidliyin zirvəsinə çatdınız

*12 iyul 2020-ci il tarixində Tovuz bölgəsindən ölkəmizə hücum edən düşmənlərin qarşısını alarkən qəhrəmancasına şəhid olan hərbiçilərin əziz xatirəsinə*

Əl-ələ verdiniz, on iki qardaş,
Dar gündə vətənə dayaq oldunuz,
O azğın düşmənin belin qırdınız,
Vətənin yolunda qan axıtdınız.
Şəhidliyin zirvəsinə çatdınız.

Polad kimi bərkimişdin Poladım,
Vətən üçün əziz oldu, bu adın,
Düşmən həmləsinin qarsısın aldın,
Vətənin yolunda qan axıtdınız.
Şəhidliyin zirvəsinə çatdınız.

İlqar Mirzəyev də, hücuma keçdi,
Anar Novruzovla doğru yol seçdi,
Düşmən cəsədinin üstündən keçdi,
Vətənin yolunda qan axıtdınız.
Şəhidliyin zirvəsinə çatdınız.

Rəşad düşmənlərə aman vermədi,
Düşmən torpaqlara girə bilmədi,
Xəyyam əsla, dediyindən dönmədi,
Vətənin yolunda qan axıtdınız.
Şəhidliyin zirvəsinə çatdınız.





Elşad vuruşurdu, var gücü ilə,
Hər anda vururdu düşmənə zərbə,
Düşmən atəşinə gərirdi sinə,
Vətənin yolunda qan axıtdınız.
Şəhidliyin zirvəsinə çatdınız.

Vüqar Sadıqov da, od ələyirdi,
Düşməni biçərək, məhv eləyirdi,
Qoymaram gələsən, o söyləyirdi,
Vətənin yolunda qan axıtdınız.
Şəhidliyin zirvəsinə çatdınız.

Elçin ermənіyə aman vermirdi,
Hücuma keçmişdi geri dönmürdü,
Onları bir anda gözdən qoymurdu,
Vətənin yolunda qan axıtdınız.
Şəhidliyin zirvəsinə çatdınız.

Namiqin hücumu uğurlu keçdi,
Səngərin önündə doğru yol seçdi,
Bir qarış verməsrik, deyə and içdi,
Vətənin yolunda qan axıtdınız.
Şəhidliyin zirvəsinə çatdınız.

İlqar Ayazoğlu düz hədəf seçdi,
Düşməni görəndə hücuma keçdi,
Açdığı atəşi yerinə düşdü,
Vətənin yolunda qan axıtdınız.
Şəhidliyin zirvəsinə çatdınız.

Yaşar da, hücuma bayraqla keçdi,
Vətəni-ananı baş tacı bildi,
Döyüşə-döyüşə o, qalib oldu,
Vətənin yolunda qan axıtdınız.
Şəhidliyin zirvəsinə çatdınız.

Nazimin niyyəti çox aydın oldu,
Ürəklə yolunu səngərdən saldı,
Düşmən atəşinə o, sipər oldu,
Vətənin yolunda qan axıtdınız.
Şəhidliyin zirvəsinə çatdınız.

Birləşib vətəni azad etdiniz,
Əbədi, müqəddəs bir yol seçdiniz,
Vətəndə əbədi yaşar oldunuz,
Vətənin yolunda qan axıtdınız.
Şəhidliyin zirvəsinə çatdınız.
16.07.2020.





## Günahı nə?

*Bərdəyə düşən bombadan həlak olan,*
*7 yaşlı Aysun balaya ithaf edirəm.*

Bu körpənin günahı nə?
Niyyəti nə, amalı nə?
Məktəblinin məramı nə?
Bu Aysunun, günahı nə?

O, həyətdə oynayırdı,
Ölüm nədir duymayırdı,
Oynamaqdan doymayırdı,
Bu Aysunun, günahı nə?

Bir anda ara qarışdı,
Hamı harasa qaçırdı,
Dedilər, bomba atıldı,
Bu Aysunun, günahı nə?

Hamı kimi o da, qaçdı,
Çığır-bağır, haray saldı,
Bu anda o yara aldı,
Bu Aysunun, günahı nə?

Aldı Aysun dərin yara,
Bədən oldu para-para,
Məktəbə yox, getdi gora,
Bu Aysunun, günahı nə?

Kitab-dəftər onsuz qaldı,
Sumka bizə kədər oldu,
Bərdə bu gün al-qan oldu,
Bu Aysunun, günahı nə?

Erməni nə vaxt qanacaq?
Bəs nə vaxt insan olacaq?
Həmişə belə qalacaq?
Bu Aysunun, günahı nə?

O, qatildi yaranandan,
Bilməm gəlib haralardan,
Seçmir ağı qaralardan,
Bu Aysunun, günahı nə?

İnsan demək olmur sizə,
Allah bəla verər sizə,
Aysun neyləyirdi sizə,
Bu Aysunun, günahı nə?
28.10.2020.





## Şəhid anası

Başını düz saxla, qalib anası,
Qalibsiniz, qəhrəmanlar anası,
Bu ad uca qalaların zirvəsi,
Müqəddəs zirvəsən, şəhid anası.
Cənnətin özüsən, şəhid anası.

Hər insan, bu adı qazana bilmir,
Şəhidlik hər kəsin bəxtinə düşmür,
Hər oğul, şəhidlik şərbətin içmir,
Müqəddəs zirvəsən, şəhid anası.
Cənnətin özüsən, şəhid anası.

Xoşbəxtliyin tacın özün almısan,
Sevilərək qalib ana olmusan,
Fədakar ana tək, yadda qalmısan,
Müqəddəs zirvəsən, şəhid anası.
Cənnətin özüsən, şəhid anası.

Hər bir şəhid vətəninin nurudur,
Şəhid adı bu dünyada uludur,
Bu ənənə qorxmazların yoludur,
Müqəddəs zirvəsən, şəhid anası.
Cənnətin özüsən, şəhid anası.

Bütün şəhidlərin ruhu şad olsun,
Dünya yaşadıqca onlar yaşasın,
Hamı desin, Vətən başın sağ olsun,
Müqəddəs zirvəsən, şəhid anası.
Cənnətin özüsən, şəhid anası.

Şəhidsiz vətənin imanı olmaz,
Şəhidsiz bir xalqın inamı olmaz,
Şəhidsiz millətin siması olmaz,
Müqəddəs zirvəsən, şəhid anası.
Cənnətin özüsən, şəhid anası.

Şəhidlik adınız mübarək olsun,
Həmişə andımız o bayraq olsun,
Qəhrəman ordumuz, mübariz olsun,
Müqəddəs zirvəsən, şəhid anası.
Cənnətin özüsən, şəhid anası.
22.11.2020.

## Şuşa azad olub

*Ömrünün sonuna qədər Şuşada yaşayıb müəllim işləyən və Şuşa həsrətinə dözməyən, aslən Zəngilanlı olan ziyalımız Seyid Əli Əhmədovun əziz xatirəsinə ithaf edirəm.*

Yerin behişt olsun, ay əmi oğlu,
Biləsən, Vətəndə nələr olubdur.
Dözmədi ürəyin, bu günə qədər,
Şuşa azad olub, o yağılardan.
Şuşamız qurtulub, o acılardan.

Şuşa deyə-deyə, yumdun gözünü,
Ürəyində daşıyırdın yükünü,
Vətən üçün fəda etdin özünü,
Şuşa azad olub, o yağılardan.
Şuşamız qurtulub, o acılardan.





İki vətən, həsrətini çəkirdin,
Özünü, alova-oda bükürdün,
Acılara çətinliklə dözürdün,
Şuşa azad olub, o yağılardan.
Şuşamız qurtulub, o acılardan.

Arzun idi, sən Şuşanı görəsən,
Dostlarınla birgə-deyib güləsən,
Əl uzadıb, Xarıbülbül üzəsən,
Şuşa azad olub, o yağılardan.
Şuşamız qurtulub, o acılardan.

Evinizdə çox xatirən qalıbdı,
Oğul-uşaq, nəvələrin solubdu,
O həyat yoldaşın, məyus olubdu,
Şuşa azad olub, o yağılardan.
Şuşamız qurtulub, o acılardan.

İtirmişdik başımızın tacını,
Unutmaq çətindi, belə acını,
Heç nə əvəz etməz, ata adını,
Şuşa azad olub, o yağılardan.
Şuşamız qurtulub, o acılardan.

Ata adı, hər an bizə əzizdir,
Atasız Şuşaya getmək çətindir,
Atasızlıq hər övlada çətindir,
Şuşa azad olub, o yağılardan.
Şuşamız qurtulub, o acılardan.

Hər bir kəsin, öz yerini bilirdi,
Eşitdiyi sözü-sözdən seçirdi,
Dərin elmilərdən xəbər verirdi,
Şuşa azad olub, o yağılardan.
Şuşamız qurtulub, o acılardan.

Dediyi sözünün sahibi idi,
Haqqın-ədalətin dayağı idi,
Ucalıq hər anda mayağı idi,
Şuşa azad olub, o yağılardan.
Şuşamız qurtulub, o acılardan.

Yaşayırsan İsmayılın qəlbində,
Hikmətli sözlərin, gəzir dilimdə,
Kaş sizi görəydim, Şuşa elində,
Şuşa azad olub, o yağılardan.
Şuşamız qurtulub, o acılardan.
16.11.2020.

## Azərbaycan oğluyam

*İkinci Vətən müharibəsi qazisi, "Xocavəndin azad olunmasına görə" Azərbaycan Respublikasının medalı ilə təltif olunmuş Kənan Həsənovun şərəfinə*

Ay ana, Mübariz ola bilmədim,
Mən onun yolunu gedə bilmədim,
Onun tək, qəhrəman ola bilmədim,
Varlığımla Vətənimə bağlıyam.
Fəxr edirəm, Azərbaycan oğluyam.





Otuz ilin hayıfını çıxmışıq,
Düşmən ordusunu tamam qırmışıq,
Onları əliboş yola salmışıq,
Varlığımla Vətənimə bağlıyam.
Fəxr edirəm, Azərbaycan oğluyam.

Ən uca zirvəni ələ keçirdik,
Haydı deyə, irəliyə gedirdik,
Ermənini zəmi kimi biçirdik,
Varlığımla Vətənimə bağlıyam.
Fəxr edirəm, Azərbaycan oğluyam.

Ürəklə gedirdim düşmən üstünə,
Bələd idim, mən onların gücünə,
O qorxaqlar çıxanmadı önümə,
Varlığımla Vətənimə bağlıyam.
Fəxr edirəm, Azərbaycan oğluyam.

Sevinirdim, yəqin şəhid olacam,
Mən arzuma, muradıma çatacam,
Yaddaşlarda mən əbədi qalacam,
Varlığımla Vətənimə bağlıyam.
Fəxr edirəm, Azərbaycan oğluyam.

Heç də, düşündüyüm kimi olmadı,
Mənim arzularım yerin almadı,
Bircə güllə gəlib mənə dəymədi,
Varlığımla Vətənimə bağlıyam.
Fəxr edirəm, Azərbaycan oğluyam.

Hücumda qəflətən bir zədə aldım,
Elə düşündüm ki, həyatdan köçdüm,
Gözümü açanda həkimlər gördüm,
Varlığımla Vətənimə bağlıyam.
Fəxr edirəm, Azərbaycan oğluyam.

Gördüm ayağımdan zədə almışam,
Təkcə bir ayağın üstə qalmışam,
Qoltuq ağacına möhtac olmuşam,
Varlığımla Vətənimə bağlıyam.
Fəxr edirəm, Azərbaycan oğluyam.

Çox şükür Qarabağ azad olubdu,
Güclü ordum qələbəni çalıbdı,
İndi Azərbaycan bütöv olubdu,
Varlığımla Vətənimə bağlıyam.
Fəxr edirəm, Azərbaycan oğluyam.

Qələbədə az da, olsa, payım var,
Vətənimdə qazi kimi yerim var,
Çox şad oldum, vətənpərvər xalqım var,
Varlığımla Vətənimə bağlıyam.
Fəxr edirəm, Azərbaycan oğluyam.

Şəhid atasını ali bilirəm,
Anaların əllərindən öpürəm,
Onlara həmişə mən baş əyirəm,
Varlığımla Vətənimə bağlıyam.
Fəxr edirəm, Azərbaycan oğluyam.





Çox var olsun, o Ali Baş Komandan,
Ermәniyә zәrbә vurub hәr zaman,
Onların məskəni olubdu dalan,
Varlığımla Vətənimə bağlıyam.
Fəxr edirəm, Azərbaycan oğluyam.
10.11.2020.

## Olubdur

*Əziz qardaşım Malik müəllimin ürək arzusu ölümündən sonra yerin aldı, üçüncü oğlu Həmidin ilk övladı oldu.*

Yerin behişt olsun, əziz qardaşım,
Muğana yeni bir günəş doğubdur,
Burada hər kəsə sevinc gəlibdir,
Biləsən, Həmidin ata olubdur.
O acılar, çox arxada qalıbdır.

Qohum-qardaş hamı şadlıq eyləyir,
Əmi qol qaldırıb, bibi oynayır,
Nənəsi də, sevincindən ağlayır,
Biləsən, Həmidin ata olubdur.
O acılar, çox arxada qalıbdır.

O yurdunda toy bayramdı, o gündən,
Balaca Fuadın düşməyir dildən,
Ata-ana xoşbəxt olub o gündən,
Biləsən, Həmidin ata olubdur.
O acılar, çox arxada qalıbdır.

Daha hər iş qaydasına düşübdür,
Bu şərəfə neçə qurban kəsibdir,
Qohum-qardaş təbriklərə gəlibdir,
Biləsən, Həmidin ata olubdur.
O acılar, çox arxada qalıbdır.

Kaş görəydin, gözlərinlə bu günü,
Heç kəs əvəz edə bilməz, heç kimi,
Qaytarmaq olmayır ötən hər günü,
Biləsən, Həmidin ata olubdur.
O acılar, çox arxada qalıbdır.

Yerin cənnət olsun, arxayın yatın,
Həmiddən nigaran qaldı həyatın,
Sirrin bilən yoxdur bu kainatın,
Biləsən, Həmidin ata olubdur.
O acılar, çox arxada qalıbdır.

İsmayılam, çox sevindim ürəkdən,
Tamam azad olduq qəmdən, kədərdən
Ona sağ can diləyirəm fələkdən,
Biləsən, Həmidin ata olubdur.
O acılar, çox arxada qalıbdır.
22.10.2020.





## Qəhrəmandı analar

Allahın verdiyi nurdu analar,
Huriyə, mələyə taydı analar,
Hər biri yerində zərdi analar,
Fədakardı, qəhrəmandı analar.

Analar aqildi dahilər kimi,
Analar ucalır mələklər kimi,
Analar parlaqdı ay-ulduz kimi,
Fədakardı, qəhrəmandı analar.

Cənnətdi ananın ayağı altı,
Hər kəsə əzizdir, ana həyatı,
Saymıram anasız olan həyatı,
Fədakardı, qəhrəmandı analar.

Qəhrəman doğulur, qəhrəman olur,
Ən ağır işdə də, o, öndə olur,
Ana səngərdə də, qəhrəman olur,
Fədakardı, qəhrəmandı analar.

Oğul verir, torpaq alır analar,
Vətənim var olsun, deyir analar,
Şəhidinə çox sevinir analar,
Fədakardı, qəhrəmandı analar.

Şəhid tabutuna girir analar,
Qardaşına əhsən deyir analar,
Torpağı, vətəni sevir analar,
Fədakardı, qəhrəmandı analar.

Mübarizdir, Mübarizin anası,
Qəhrəmandır, Poladımın anası,
Qəhrəmandır, İlqar-Fərid anası,
Fədakardı, qəhrəmandı analar.

Azərbaycan qəhrəmanlar yurdudu,
Veriblər əl-ələ, böyük ordudu,
Belə birlik Allahıma sevgidi,
Fədakardı, qəhrəmandı analar.
30.12.2020.





## Ana, şəhid olsam, məni ağlama.

*Əslən Zəngilanlı, 2001-ci ildə Sumqayıt şəhərinin Corat qəsəbəsində dünyaya göz açan, Sərhəd Qoşunlarında xidmət edərək öz ərizəsi ilə döyüşə qatılaraq düşmənin bir generalı və bir polkovnikini əli ilə boğaraq məhv edən, Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovun qisasını alan, şəhidlik zirvəsinə ucalan vətən oğlu Cəbrayıl Dövlətzadənin əziz xatirəsinə ithaf edirəm.*

Oğul üçün, ən uğurlu bir yoldur,
Vətən üçün, ən gərəkli bir gündür,
Mənim üçün, vacib olan bir işdir,
Ana, şəhid olsam, məni ağlama.
Heç zaman başına qara bağlama.

Vətən üçün biz gəlmişik dünyaya,
Gərək yük olmayaq, biz bu dünyaya,
Biz yenidən gələnmərik dünyaya,
Ana, şəhid olsam, məni ağlama.
Heç zaman başına qara bağlama.

İşğaldadı vətən, xeyli müddətdi,
O anı yaşamaq, inan dəhşətdi,
Belə dərdə dözmək, bir fəlakətdi,
Ana, şəhid olsam, məni ağlama.
Heç zaman başına qara bağlama.

Mən də, bu vətənin bir əsgəriyəm,
Döyüşün önündə, mən getməliyəm,
Düşmənin gözünü mən tökməliyəm,
Ana, şəhid olsam, məni ağlama.
Heç zaman başına qara bağlama.

Komandir gedirdi düşmən üstünə,
Dedim, qoy mən gedim, onun üstünə,
Generalı mən qoyaram, pis günə,
Ana, şəhid olsam, məni ağlama.
Heç zaman başına qara bağlama.

Ay komandir, sən evlisən, mən subay,
Gərək generalı mən eyləyəm zay,
Əlimlə boğaraq, salam hay-haray,
Ana, şəhid olsam, məni ağlama.
Heç zaman başına qara bağlama.

Generalın üstünə əliboş getdim,
Əlimlə boğaraq, onu məhv etdim,
Sonra polkovnikin üstünə getdim,
Ana, şəhid olsam, məni ağlama.
Heç zaman başına qara bağlama.

Hər ikisin, cəhənnəmə göndərdim,
Erməniyə bax beləcə, dərs verdim,
Düşmənlərə sağalmayan dərd verdim,
Ana, şəhid olsam, məni ağlama.
Heç zaman başına qara bağlama.

Polad Həşimovun qisasın aldım,
Deyərdim ay ana, arzuma çatdım,
Şəhidliyin zirvəsinə ucaldım,
Ana, şəhid olsam, məni ağlama.
Heç zaman başına qara bağlama.





Ana, məni röyalarda görərsən,
Oğlunun kimliyin onda bilərsən,
Vətəni də, mənim kimi sevərsən,
Ana, şəhid olsam, məni ağlama.
Heç zaman başına qara bağlama.

Başını düz saxla, Məleykə ana,
Vətənim şəhidlə gələcək cana,
Allah uca adı, veribdir ona,
Ana, şəhid olsam, məni ağlama.
Heç zaman başına qara bağlama.

Deyərdim, Vətənin başı sağ olsun,
Belə qəhrəmanlar ucada olsun,
Allahdan onlara rəhmət olsun,
Ana, şəhid olsam, məni ağlama.
Heç zaman başına qara bağlama.

Vətəninə sadiq oldun hər zaman,
Xalqımın qəhrəman oğlusan, balam,
Vətənin səninlə fəxr edir hər an,
Ana, şəhid olsam, məni ağlama.
Heç zaman başına qara bağlama.

Məzarınız nurla dolsun, şəhidlər
Vətənimiz azad oldu, şəhidlər
Arxayın uyuyun əziz şəhidlər,
Ana, şəhid olsam, məni ağlama.
Heç zaman başına qara bağlama.

Ali Baş Komandan fədakar oldu,
Hər anda əsgərin yanında oldu,
Hər kəsin dəyərin vaxtında verdi,
Ana, şəhid olsam, məni ağlama.
Heç zaman başına qara bağlama.
18.10.2020.

## Ürəyində vətən eşqi yaşayır

*Füzuli rayonunda dünyaya göz açan 86 yaşlı əməkdar müəllim Murad müəllimin şərəfinə*

Gənc yaşından arzuların gül açıb,
Talein hökmüylə bəxtin dil açıb,
Ulduzun parlayıb, ayın nur saçıb,
Ürəyində vətən eşqi yaşayır.
Şərəfli müəllim adın daşıyır.

Vətən adı, ana ilə qoşadı,
Vətən ürəyində daim yaşadı,
Vətənin ləzzəti, dadı başqadı,
Ürəyində vətən eşqi yaşayır.
Şərəfli müəllim adın daşıyır.

Vətənə bağlısan, elə bağlısan,
Vətənindən çox uzaqda qalmısan,
Həmişə vətəni sevən olmusan,
Ürəyində vətən eşqi yaşayır.
Şərəfli müəllim adın daşıyır.





Gözəl təhsil alıb, oldun müəllim,
Elmin əsasını qoyur müəllim,
Xalqının önündə gedir müəllim,
Ürəyində vətən eşqi yaşayır.
Şərəfli müəllim adın daşıyır.

Müəllimlər – müəllimi olmusan,
Neçə qurultayda elçi olmusan,
Hamı üçün çox sevimli olmusan,
Ürəyində vətən eşqi yaşayır.
Şərəfli müəllim adın daşıyır.

Nə fayda, vətəndən üzüldü əlin,
O vaxtdan çəkirsən, yurd dərdi-sərin,
Unuda bilmirsən elin kədərin,
Ürəyində vətən eşqi yaşayır.
Şərəfli müəllim adın daşıyır.

Gözəl əməllərin güldü üzünə,
Heyf ki, Füzuli dəymir gözünə,
Çox çəkməz Qarabağ dəyər gözünə,
Ürəyində vətən eşqi yaşayır.
Şərəfli müəllim adın daşıyır.

Neçələri saf su içib əlindən,
Xeyir-dua alıb şirin dilindən,
Elm öyrənib, bəhrələniblər səndən,
Ürəyində vətən eşqi yaşayır.
Şərəfli müəllim adın daşıyır.

Zəhmətinə dəyər verdi dövlətin,
Əməkdar müəllim oldu qiymətin,
Sizə şərəf verdi, bu mükafatın,
Ürəyində vətən eşqi yaşayır.
Şərəfli müəllim adın daşıyır.

Şərəflə yaşatdın, müəllim adın,
Ucaltdın zirvəyə müəllim adın,
Ucada saxladın, vətəndaş adın,
Ürəyində vətən eşqi yaşayır.
Şərəfli müəllim adın daşıyır.

İsmayıl da, Sizə yüz yaş diləyir,
Ürək sevgin, ömür yolun bəzəyir,
Füzulin dardadı, səni gözləyir,
Ürəyində vətən eşqi yaşayır.
Şərəfli müəllim adın daşıyır.
04.09.2020.





## Vətən azad oldu

*Azərbaycanın Milli Qəhrəmanı, Tovuz döyüşlərində qəhrəmancasına əbədiyyata qovuşan? general-mayor Polad Həşimovun şərəfinə ithaf edirəm.*

Ruhunuz şad olsun, əziz general,
Tarixlərdə qalacaqsan qəhrəman,
Ürəyin vətənlə vurub hər zaman,
Vətən azad oldu, ruhun şad olsun.
Adınız hər zaman zirvədə olsun.

Həmişə döyüşün önündə getdin,
Döyüşün ən ağır yolunu seçdin,
Tovuzda səngəri sən yarıb keçdin,
Vətən azad oldu, ruhun şad olsun.
Adınız hər zaman zirvədə olsun.

Sən açdın bu yolu, düşməni qırdın,
Yağıları torpaqlardan sən qovdun,
Ordunu arxanca özün apardın,
Vətən azad oldu, ruhun şad olsun.
Adınız hər zaman zirvədə olsun.

Hamı sizi ata kimi görürdü,
Sizi bütün bu el-oba sevirdi,
Əsgərlər əyilməz sima bilirdi,
Vətən azad oldu, ruhun şad olsun.
Adınız hər zaman zirvədə olsun.

Polad kimi əyilmədin heç zaman,
Döyüşdə vermədin düşmənə aman,
Vətənə qayğıkeş olmusan hər an,
Vətən azad oldu, ruhun şad olsun.
Adınız hər zaman zirvədə olsun.

Düşmənin önündə sən əyilmədin,
Hücum əmrindən heç vaxt dönmədin,
Düşmənləri göz aşmağa qoymadın,
Vətən azad oldu, ruhun şad olsun.
Adınız hər zaman zirvədə olsun.

Polad idin, Polad kimi getdin sən,
Vətəninə nə lazımsa etdin sən,
Qarabağa gedən yolu açdın sən,
Vətən azad oldu, ruhun şad olsun.
Adınız hər zaman zirvədə olsun.

Artıq milli Qəhrəmansan vətəndə,
Adın uca zirvədədi vətəndə,
Abidəniz ucalacaq vətəndə,
Vətən azad oldu, ruhun şad olsun.
Adınız hər zaman zirvədə olsun.

Prezident də, dəyər verdi adına,
Vətən qəhrəmanı dedi adına,
Neçə körpə sahib olub adına,
Vətən azad oldu, ruhun şad olsun.
Adınız hər zaman zirvədə olsun.

31.12.2020.





## Şəhid olsam, ağlamayın

*Birinci əsgəri borcunu Polad Həşimovun yanında xidmət edərək ondan fəxri fərman alan və sonra ikinci Qarabağ döyüşündə cəsarətlə döyüşərək şəhidlik zirvəsinə yüksələn, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunan Zəngilan rayon Malatkeşin kənd sakini Samir Sarıyevin əziz xatirəsinə ithaf edirəm.*

Vətən üçün doğulmuşam,
Vətənin borcun vermişəm,
Poladıma baş əymişəm,
Qarabağı almalıyıq.
Biz qələbə çalmalıyıq.

Həşimova əsgər oldum,
Hədiyyəyə layiq oldum,
Ondan fəxri fərman aldım,
Qarabağı almalıyıq.
Biz qələbə çalmalıyıq.

O qovuşdu haqq evinə,
Şəhidliyin zirvəsinə,
Döndü xalqın sevgisinə,
Qarabağı almalıyıq.
Biz qələbə çalmalıyıq.

Onun yolun getməliyəm,
Ona sadiq olmalıyam,
O zirvəni görməliyəm,
Qarabağı almalıyıq.
Biz qələbə çalmalıyıq.

Ata, yeni dəvət aldım,
Mən bu işə, məmnun oldum,
Ata, yenə əsgər oldum,
Qarabağı almalıyıq.
Biz qələbə çalmalıyıq.

Oğul-uşaq özü gəlir,
Sevinir ki, əsgər gedir,
Gələn, gülə-gülə gəlir,
Qarabağı almalıyıq.
Biz qələbə çalmalıyıq.

Hamının bir arzusu var,
Hamının bir məqsədi var,
Bir qələbə amalı var,
Qarabağı almalıyıq.
Biz qələbə çalmalıyıq.

Füzulidə döyüşürük,
Düşmənləri biz əzirik,
Yerdən, göydən od tökürük,
Qarabağı almalıyıq.
Biz qələbə çalmalıyıq.

Biz Şuşaya tələsirik,
Hey... oraya can atırıq,
Düşməni oda bükürük,
Qarabağı almalıyıq.
Biz qələbə çalmalıyıq.





Şuşanı görmək istədim,
Tale yükün bölənmədim,
Nə olacaq, bilənmədim,
Qarabağı almalıyıq.
Biz qələbə çalmalıyıq.

Ata, gəlib evlənərəm,
Özümü xoşbəxt bilərəm,
Sənə də, xidmət edərəm,
Qarabağı almalıyıq.
Biz qələbə çalmalıyıq.

Şəhid olsam, ağlamayın,
Anasızı dağlamayın,
Arzuma əngəl olmayın,
Qarabağı almalıyıq.
Biz qələbə çalmalıyıq.

Çəhid olsam, sevinərəm,
Poladıma qovuşaram,
Mən də, cənnətdə olaram,
Qarabağı almalıyıq.
Biz qələbə çalmalıyıq.

Baş Komandan bizimlədi,
Əsgərlərin önündədi,
Dəmir yumruq yerindədi,
Qarabağı almalıyıq.
Biz qələbə çalmalıyıq.
ZƏNGİLAN-BAKI
20.12.2020.

## Vətənimin əsgərisən

Ordumuzun sağ əlisən,
Vətənini çox sevirsən,
Xalqına xidmət edirsən,
Vətənimin əsgərisən.

Vətənini qoruyursan,
Hər xidmətə yarayırsan,
Səngərində dayanırsan,
Vətənimin əsgərisən.

Doğulandan bir əsgərsən,
Vətən qayğısın çəkənsən,
Hər bir əzaba dözənsən,
Vətənimin əsgərisən.

Bu gün oğul, sabah kişi,
Kişi bilir, hər bir işi,
Vətənə xidmətdi işi,
Vətənimin əsgərisən.

Oğul vətəndə olar daş,
Olmasa olmaz vətəndaş,
Gərək gözdən axmaya yaş,
Vətənimin əsgərisən.

Sən ver, Vətənin borcunu,
Tarixə yazdır adını,
Yaşat vətənin adını,
Vətənimin əsgərisən.





Səngər sənin evin olsun,
Düşmən sənin ovun olsun,
Cəsarətlə hünər olsun,
Vətənimin əsgərisən.

Sağlam olun sıranızda,
Mayaqsınız ordumuzda,
Müqəddəs ol, öz andında,
Vətənimin əsgərisən.

Ya şəhidsən, ya da, qazi,
Vətən səndən olar razı,
Millət unutmaz o adı,
Vətənimin əsgərisən.
04.01.2021.

## Bir millətik, iki dövlət

***Türkiyənin respublika gününə həsr edirəm.***

*"Bir ananın iki oğlu,*
*Bir amalın iki qolu"*
*deyən Türkiyə Cümhuriyyətinin Prezidenti,*
*eləcə də, türk dünyasının liderinin sözlərinə nəzirə*

Bir millətik, iki dövlət,
Bizimkidir, bu şan-şöhrət.
Türk eliyik, birdir məqsəd,
Bir ananın iki oğlu.
Bir amalın iki qolu.

Biz gedirik sülhə doğru,
Budur qələbənin yolu,
Allahımız, bizi qoru,
Bir ananın iki oğlu.
Bir amalın iki qolu.

Tarixlərə yazaq adı,
Vətənə qoymayaq yadı,
Əzizdir vətənin adı,
Bir ananın iki oğlu.
Bir amalın iki qolu.

Siz o eldə, biz bu eldə,
Danışırıq eyni dildə,
Qürurluyuq hər bir yerdə,
Bir ananın iki oğlu.
Bir amalın iki qolu.

Birliyimiz gücümüzdür,
Zəfər çalan ordumuzdur,
Bayrağımız andımızdır,
Bir ananın iki oğlu.
Bir amalın iki qolu.
29.10.2020-ci il.

## Bəs nə oldu?

Oynayırdın yanı-yanı,
Oynadığın meydan hanı?
Gözünü aç, Türkü tanı,
Bəs nə oldu, ay Paşinyan?





Qarabağa bizim dedin,
Sən özünü yaman öydün,
Şuşaya da, mənim dedin,
Bəs nə oldu, ay Paşinyan?

Sərxoş olub sayıqladın,
Gedib yatdın, ayılmadın,
Sən bir adam sayılmadın,
Bəs nə oldu, ay Paşinyan?

Səni yaman gündə gördük,
İti qovan kimi qovduq,
Başınıza yumruq vurduq,
Bəs nə oldu, ay Paşinyan?

Danışanda ət tökürdün,
Od-alovlu dil tökürdün,
Cəbrayıla yol çəkirdin,
Bəs nə oldu, ay Paşinyan?

Həsrətiniz yolda qaldı,
Arzuların alt-üst oldu,
Ordumuz qələbə çaldı,
Bəs nə oldu, ay Paşinyan?

Prezident dərsin verdi,
Qarabağ bizimdir! – dedi,
Dediyinin üztə durdu,
Bəs nə oldu, ay Paşinyan?
10.11.2020.

## Kişi olsun

*Quliyevlər ailəsi, ilk övladınız Maisin dünyaya gəlməsi münasibətilə Sizi təbrik edirəm.*

Gözünüz aydın olsun,
Ata-analı olsun,
Vətənə sadiq olsun,
Böyüsün kişi olsun.

Hələ indi çağadı,
Şirin gözəl baladı,
Gözəl abı-havadı,
Böyüsün kişi olsun.

Gözəl tərbiyə alsın,
Oxusun, təhsil alsın,
Savadlı insan olsun,
Böyüsün kişi olsun.

Diplomla evə gəlsin,
Şən deyib-gülən olsun,
Meylini sizə salsın,
Böyüsün kişi olsun.

Böyüsün oğlan olsun,
Tay-tuşuna qoşulsun,
İşi əbədi olsun,
Böyüsün kişi olsun.





Ürəyin açsın qıza,
Qəlbini versin ona,
Girməsin dondan-dona,
Böyüsün kişi olsun.

Gün olsun elçi gedək,
Sevinək, toyun edək,
Həmişə haqqa çəkək,
Böyüsün kişi olsun.

Ayrıca evi olsun,
Bacı-qardaşı olsun,
İşgüzar oğlan olsun,
Böyüsün kişi olsun.

Kişiləşsin, böyüsün,
Ağsaçlı kişi olsun,
O da, qaynata olsun,
Böyüsün kişi olsun.

Səksən, doxsan, yüz görsün,
Canı sağlam böyüsün,
Şəxsiyyətli görünsün,
Böyüsün kişi olsun.

İsmayıl da, şad oldu,
Ürəkdən çox sevindi,
Allaha dua etdi,
Böyüsün kişi olsun.

Bakı-Bərdə-Zəngilan
14.12.2020.

## Görmədim

*Azərbaycanın Milli Qəhrəmanı*
*Mübariz İbrahimovun şərəfinə*

Vətən dərdi ürəyində alışan,
Yaranandan vətən üçün çalışan,
Qeyrətidi ürəyilə yarışan,
Mübariz tək, bir qəhrəman görmədim.

Ananı, vətəni amalı bildi,
Yaranandan yaranışı bir sirdi,
Sən demə təzəcə açılmış güldü,
Mübariz tək, bir qəhrəman görmədim.

Dözmədi vətənin bu acısına,
Bəs necə yazaydı bunu adına,
Qaladı özünü vətən oduna,
Mübariz tək, bir qəhrəman görmədim.

Şəhid balaların sevdi, oxşadı,
Onların halına içi ağladı,
O anla yaşadı, yadda saxladı,
Mübariz tək, bir qəhrəman görmədim.

Dedi ki, bu qanı mən almalıyam,
Düşmənin canına od salmalıyam,
Vətənin yolunda can qoymalıyam,
Mübariz tək, bir qəhrəman görmədim.

Dedi, dözmək olmaz, belə dəhşətə,
Sığışdırmaq olmur bunu qeyrətə,
İnsan olan bu an gəlir heyrətə,
Mübariz tək, bir qəhrəman görmədim.





Dərdi ürəyində gizli saxladı,
Axşam, səhər sərhədləri yoxladı,
Baxdı dustaq torpaqlara susmadı,
Mübariz tək, bir qəhrəman görmədim.

Anasına yazdı: - Ana, gələcəm
Əzəlki tək danışacam, güləcəm,
Ürəyimin arzusunu deyəcəm,
Mübariz tək, bir qəhrəman görmədim.

Hələ günəş oyanmamış oyandı,
Düşmən səngərinə erkən yan aldı,
Yağan güllələrdə düşmən məhv oldu,
Mübariz tək, bir qəhrəman görmədim.

Qoymadı gözünü aça erməni,
Dedi, hələ tanımırsan sən məni,
Addım atsan dağıdaram kəlləni,
Mübariz tək, bir qəhrəman görmədim.

Yazıram qanımla qəhrəman adın,
Yandırsın düşməni alovum, odum,
Dedim, Qarabağda bayraq ucaldım,
Mübariz tək, bir qəhrəman görmədim.

Mən düşmənə baş əymərəm, nə ola,
Oğul gərək dar ayaqda mərd ola,
Kişi olan düşmən üçün dərd ola,
Mübariz tək, bir qəhrəman görmədim.

## Azərbaycan əsgəri

Vətənin sipərisən,
Ordumun əsgərisən,
Düşməni əzməlisən,
Azərbaycan əsgəri.

Silahını saz saxla,
Düşmənin üstə tuşla,
Çalış onu qabaqla,
Azərbaycan əsgəri.

Hər oğul bir əsgərdi,
Vətən dərdin çəkəndi,
Düşmən gözün tökəndi,
Azərbaycan əsgəri.

Xalqının köməyisən,
Arzusu diləyisən,
Dar gündə gərəyisən,
Azərbaycan əsgəri.

Həyata oğul gəldin,
Bayrağına büləndin,
Uca zirvələr aldın,
Azərbaycan əsgəri.

Allah sizi qorusun,
Mərmi sizdən yad olsun,
Əsgərlərim var olsun,
Azərbaycan əsgəri.





Postunu vermə əldən,
Od ələ yerdən-göydən,
Düşməni qoyma gözdən,
Azərbaycan əsgəri.

Düşmənə zalım olun,
Hər anda ayıq olun,
Hər an qələbə çalın,
Azərbaycan əsgəri.

Zəfəri siz çaldınız,
Torpaqları aldınız,
Düşmənləri qovdunuz,
Azərbaycan əsgəri.

Siz qələbə çaldınız,
Ermənini əzdiniz,
Qarabağı aldınız,
Azərbaycan əsgəri.

Qarabağ bizim oldu,
Paşinyan sərxoş oldu,
Dığalar odda yandı,
Azərbaycan əsgəri.

Prezident vurdu zərbə,
Paşinyan düşdü dərdə,
Ordusu qaçdı Qərbə,
Azərbaycan əsgəri.
30.11.2020.

## Bir millətik

Səhv düşməyir ünvanımız,
Qoşa çəkilir adımız,
Əyilməzdir bayrağımız,
İki dövlət, bir millətik.

Atatürklə ulu Heydər,
Onlar varsa, olmaz kədər,
Bu qardaşlıq getməz hədər,
İki dövlət, bir millətik.

Türküm günəş, Azərim ay,
Tapılarmı sizə bir tay,
Haqq-ədalət çəkir haray,
İki dövlət, bir millətik.

Ordumuz bir, əsgəri bir,
Güclü qolu, qüdrəti bir,
İki qardaş amalı bir,
İki dövlət, bir millətik.

İşimiz bir, gücümüz bir,
Vətənimiz, dilimiz bir,
Təməlimiz, kökümüz bir,
İki dövlət, bir millətik.





Ərdoğanla İlham qoşa,
Hər ikisi durur qoşa,
Görən millət gəlir coşa,
İki dövlət, bir millətik.

Sevməyənlər xar olacaq,
Əyri gözü kor olacaq,
Yeri-yurdu dar olacaq,
İki dövlət, bir millətik.

Sizi heç kim əyə bilməz,
Kefinizə dəyə bilməz,
Dəysə, sağlam ola bilməz,
İki dövlət, bir millətik.

Allahım sizi qorusun,
Həyatınız çox şən olsun,
Hər işiniz asan olsun,
İki dövlət, bir millətik.

Yer üzündə mayaqsınız,
Sədaqətli qardaşsınız,
Hər an sağlam olasınız.
İki dövlət, bir millətik.
25.12.2020.

## Səni yüz yaşa

*Finalda erməni Levon Aroyanı məğlub edərək turnirin qalibi olan Teymur Rəcəbovun şərəfinə*

Bu oyunda ağıl qoydun çox başa,
Levonun başını sən vurdun daşa,
Çaldın qələbəni özün birbaşa,
Çox sağ ol ay Teymur, səni yüz yaşa!

Erməni kimdir ki, meydan oxuya,
O Aramlar artıq düşüb qorxuya,
Onların qatarı keçib arxaya,
Çox sağ ol ay Teymur, səni yüz yaşa!

Onlar bu oyunda çoxdan uduzub,
Hayeslər vətənsiz, həm yurdsuz olub,
Deyərdim, əvvəldən ağılsız olub,
Çox sağ ol ay Teymur, səni yüz yaşa!

Onların kitabı çoxdan bağlanıb,
Yaddaşları əzəlindən korlanıb,
Yanan ocaqları çoxdan qaralıb,
Çox sağ ol ay Teymur, səni yüz yaşa!

Bütün cəbhələrdə Aşot uduzub,
Silahı səngərdə o qoyub qaçıb,
Özü-öz başına oyunlar açıb,
Çox sağ ol ay Teymur, səni yüz yaşa!





Levon da, qaldırdı bu gün ağ bayraq,
Sən çaldın qələbə, oldun bir mayaq,
Yenə də, ucaltdın üçrəngli bayraq,
Çox sağ ol ay Teymur, səni yüz yaşa!

Teymur, hər bir zaman şahmatda uddun,
Sən bu gün o quşu gözündən vurdun,
Oyunda Levona sərt tələ qurdun,
Çox sağ ol ay Teymur, səni yüz yaşa!

İsmayılın marağını artırdın,
Bu yaşımda ovqatımı qaldırdın,
Erməninin atasını yandırdın,
Çox sağ ol ay Teymur, səni yüz yaşa!
03.012021.

## Nə gəzirsən?

Salam verdin, almadılar,
Səni adam saymadılar,
Zəngəzura qoymadılar,
Paşinyan, bəs nə gəzirsən?
Bu dərdə necə dözürsən?

Kimliyini anlamırsan,
Yerevanda qalanmırsan,
Sakit bir yer tapanmırsan,
Paşinyan, bəs nə gəzirsən?
Bu dərdə necə dözürsən?

Kabinetə girənmirsən,
Çıx deyirlərlər, dirənirsən,
Çox el-oba dilənmisən,
Paşinyan, bəs nə gəzirsən?
Bu dərdə necə dözürsən?

Arxan qaçıb, tək qalmısan,
Ortalıqda zay olmusan,
Hamı söyür, kar olmusan,
Paşinyan, bəs nə gəzirsən?
Bu dərdə necə dözürsən?

Analar oğlun gözləyir,
Qadınlar ərin izləyir,
Bacılar qardaş istəyir,
Paşinyan, bəs nə gəzirsən?
Bu dərdə necə dözürsən?

Suallara lal olmusan,
Sən avara-gor qalmısan,
Orada nəyə qalmısan,
Paşinyan, bəs nə gəzirsən?
Bu dərdə necə dözürsən?

Xalq içinə çıxanmırsan,
Hey susursan, dinənmirsən,
Bu nə sirdi, bilənmirsən,
Paşinyan, bəs nə gəzirsən?
Bu dərdə necə dözürsən?





Gözün qalıbdı əllərdə,
Maraqlısan dilənməkdə,
Yaxan qalıbdı əllərdə,
Paşinyan, bəs nə gəzirsən?
Bu dərdə necə dözürsən?

Necə zərbələr almısan,
Ortalıqda zay olmusan,
Əsli talançı olmusan,
Paşinyan, bəs nə gəzirsən?
Bu dərdə necə dözürsən?

Bir də, bizə dönənmərsən,
Qarabağım deyənmərsən,
Yuxuda da, görənmərsən,
Paşinyan, bəs nə gəzirsən?
Bu dərdə necə dözürsən?

Prezidentim zərbə vurdu,
Dediyinin üstə durdu,
Səni quru yurdda qoydu,
Paşinyan, bəs nə gəzirsən?
Bu dərdə necə dözürsən?
24.12.2020.

## İnana bilmirəm

*Vaxtsız vəfat edən, gözəl insan və bacarıqlı*
*həkim Əli Səfərovun əziz xatirəsinə ithaf edirəm*

Bu elin-obanın mərd oğlu idin,
Həqiqət yolunda bir işıq idin,
Xəstələri öz yaxının bilirdin,
Mən hələ inana bilmirəm, həkim.
Sənin bu gedişin, oldu çox çətin.

Hər xəstə əlindən şəfa tapardı,
Nəvazişdən hamı razı qalardı,
Xoş sözlərlə sizi yada salardı,
Mən hələ inana bilmirəm, həkim.
Sənin bu gedişin, oldu çox çətin.

Uşaqları hələ yolun gözləyir,
Zəng gəlməyən telefonun izləyir,
Ümidlər azalıb, artıq dözməyir,
Mən hələ inana bilmirəm, həkim.
Sənin bu gedişin, oldu çox çətin.

Ürəyin saf idi, əlin şəfalı,
Olmuşdun millətin parlayan ayı,
Göstərdin hər kəsə sən sevgi payı,
Mən hələ inana bilmirəm, həkim.
Sənin bu gedişin, oldu çox çətin.





Hər kəsə ya ata, ya qardaş oldun,
Hər kəsin yanında dəyərli oldun,
Elində sevilən bir həkim oldun,
Mən hələ inana bilmirəm, həkim.
Sənin bu gedişin, oldu çox çətin.

Sevinirdin, torpağımız alındı,
Deyirdin getməyə, daha az qaldı,
Bayrağımız Qarabağda ucaldı,
Mən hələ inana bilmirəm, həkim.
Sənin bu gedişin, oldu çox çətin.

Unudulmaz adın yadda qalacaq,
Məzarın həmişə nurlu olacaq,
Həkim adın ucalarda qalacaq,
Mən hələ inana bilmirəm, həkim.
Sənin bu gedişin, oldu çox çətin.

Düşünürəm, ata evin tacıdı,
Bu da, ilahidən olan yazıdı,
İsmayıl da, ürəkdən çox acıdı,
Mən hələ inana bilmirəm, həkim.
Sənin bu gedişin, oldu çox çətin.
24.12.2020.

## Qardaş

Ürəyində qəm görürəm,
Gözlərində nəm görürəm,
Onu ancaq mən görürəm,
Niyə belə soldun, qardaş?

Olan-oldu, keçən-keçdi,
Hərəni bir tale seçdi,
Gileylənmək daha gecdi,
Niyə belə soldun, qardaş?

Allah verən paydı bizə,
Hər nə versə xoşdu bizə,
Özü nəzər salır bizə,
Niyə belə soldun, qardaş?

Bu dünyaya gələn qalmır,
Hər açılan güllər solur,
Dünyaya bir sirdaş olmur,
Niyə belə soldun, qardaş?
05.05.2020.





## Ürəyinə eşq olsun

*Rəssam Şəbnəm xanımın şərəfinə*

İncə bir xanımsan, çox istedadlı,
Ucal zirvələrə, ol adlı-sanlı,
Böyük ürəyin var, ay Qarabağlı,
Şəbnəm, o saf ürəyinə eşq olsun!

Gözəl əsər yaratmısan, ürəklə,
Çətin işə girişmisən, cürətlə,
Sizə uğur diləyirəm, ürəklə,
Şəbnəm, o saf ürəyinə eşq olsun!

Kətan üstə yaratmısan kəhkəşan,
Heç kəsə gəlməsin, bu sənət asan,
O incə fırçayla, arzuya çatan,
Şəbnəm, o saf ürəyinə eşq olsun!

Baxdım, öz-özümə həsəd apardım,
Böyük ürək qoyduğunu anladım,
Sizdə olan istedada inandım,
Şəbnəm, o saf ürəyinə eşq olsun!

Mən sizə bu yolda alqış edirəm,
İstedadın üzə gülür, bilirəm,
Sənətinin vurğunusan, görürəm,
Şəbnəm, o saf ürəyinə eşq olsun!

Şairə ikinci həyat vermisən,
Ustalıqla öz sözünü demisən,
İsmayılı baba kimi görmüsən,
Şəbnəm, o saf ürəyinə eşq olsun!
22.08.2020.

## Qazi

Bazarda satılmır, qonşuda olmur,
Bu gücü özündə sən tapdın, qazi.
Tələsirdin şəhidlik zirvəsinə,
Düşmənin belini qırmısan, qazi.
Zəfər qələbəsin çalmısan, qazi.

Qartal tək, şığıdın düşmən üstünə,
Onları məhv edib saldın pis günə,
Əzəldən, döyüşmək düşüb püşkünə,
Düşmənin belini qırmısan, qazi.
Zəfər qələbəsin çalmısan, qazi.

Buranı vətənin özü bilmisən,
Səngəri özünə məskən seçmisən,
Vətən sevməyəni, zəif görmüsən,
Düşmənin belini qırmısan, qazi.
Zəfər qələbəsin çalmısan, qazi.

Şəhiddən bir addım dala qalmısan,
Şəhid olmayanda gileylənmisən,
Özünü şəhidə layiq bilmisən,
Düşmənin belini qırmısan, qazi.
Zəfər qələbəsin çalmısan, qazi.

Düşünmədin ayaq gedər, ya qolun,
Əzəldən bilirdin bu işin sonun,
Dedin, kaş tapaydım, şəhidlik yolun,
Düşmənin belini qırmısan, qazi.
Zəfər qələbəsin çalmısan, qazi.





Vətən üçün şəhid olmaq şərəfdi,
Hər bir oğul üçün şərəfli yoldu,
Hər kəsin bəxtinə düşən bir paydı,
Düşmənin belini qırmısan, qazi.
Zəfər qələbəsin çalmısan, qazi.

Vətənə qurbandı, bu canım dedin,
Gümanım Vətəndi, anadı, dedin,
Vətənim damarda qanımdı dedin,
Düşmənin belini qırmısan, qazi.
Zəfər qələbəsin çalmısan, qazi.

Vətəni yaşadaq, Allah eşqinə,
Bayrağı ucaldaq, vətən eşqinə,
Qaziyəm, vuruşdum vətən eşqinə,
Düşmənin belini qırmısan, qazi.
Zəfər qələbəsin çalmısan, qazi.

Qarabağ bizimdir, bizim olacaq.
Ordumuz hər zaman zəfər çalacaq,
Erməni başına, zərbə vuracaq,
Düşmənin belini qırmısan, qazi.
Zəfər qələbəsin çalmısan, qazi.

Ali Baş Komandan vurdu zərbəni,
Söylədi çalmışıq, biz qələbəni,
Birləşdik, biz çaldıq bu qələbəni,
Düşmənin belini qırmısan, qazi.
Zəfər qələbəsin çalmısan, qazi.

25.12.2020.

## Əllərinə sağlıq olsun

*Xalqın hörmətini qazanan, Lamiyyə həkimin şərəfinə*

Həkim, sənin şan-şöhrətin yayılıb,
Ürəyinə şağlıq olsun, ay həkim.
Həkim işi, çoxlarında alınmır,
Əllərinə sağlıq olsun, ay həkim.

Hər xəstəni, sözlərindən duyursan,
Xəstəliyin əlamətin görürsən,
Təyinatın ona uyğun yazırsan,
Əllərinə sağlıq olsun, ay həkim.

Baxışından nur ələnir, hər kəsə,
Hər bir sözün faydalıdı, hər kəsə,
Xəstə ilə dayanırsan, göz-gözə,
Əllərinə sağlıq olsun, ay həkim.

Heç bir xəstə inciməyib dilindən,
Hər bir insan, şəfa tapır əlindən,
Çoxu uzaqlaşıb, dərdi-sərindən,
Əllərinə sağlıq olsun, ay həkim.

Xalqa xidmət eləməkdir, işiniz,
Faydalıdı, hər dəyərli sözünüz,
Sizə hörmət qazandırır, işiniz,
Əllərinə sağlıq olsun, ay həkim.





Gənc olsan da, sizi kamil görürəm,
Bacarıqlı, çox savadlı bilirəm,
Arzun qədər, yaşayasan deyirəm,
Əllərinə sağlıq olsun, ay həkim.

Gözəl həkim, Allahına bağlıdı,
Təbib olmaq, sənin ali yolundu,
Allah verən ömür, sənin payındı,
Əllərinə sağlıq olsun, ay həkim.
19.11.2020.

## Bu qələbən, mübarək

(Ali Baş Komandanın şərəfinə)

Azərbaycan yer üzünə səs saldı,
Güclü ordum, yenilməyən ad aldı,
Eşidənlər bu şərəfə mat qaldı,
Bu zəfərin, bu qələbən, mübarək!
Prezidentim, bu amalın mübarək!

Azərbaycan adını çox ucaltdın,
Xalqımızın ruhundan güc aldın,
Ordumuzla qoşalaşan ad oldun,
Bu zəfərin, bu qələbən, mübarək!
Prezidentim, bu amalın mübarək!

Sərsəm sual verənləri bağladın,
Çoxunun sözünü yarı saxladın,
Hər bir kəsi öz dilində, haxladın,
Bu zəfərin, bu qələbən, mübarək!
Prezidentim, bu amalın mübarək!

Azərbaycan adı yenilməz oldu,
Ali Baş Komandan qələbə çaldı,
Tarixə əbədi yazıldı adı,
Bu zəfərin, bu qələbən, mübarək!
Prezidentim, bu amalın mübarək!

Hər kəs can atırdı bir əsgər olsun,
Oğullar istəyir bayraqdar olsun,
Əsgər can atırdı, öldürsün-ölsün,
Bu zəfərin, bu qələbən, mübarək!
Prezidentim, bu amalın mübarək!

Hər bir insan haqq işinə səs verdi,
Vətən üçün hər bir oğul can verdi,
Torpağının şərəfinə, qan verdi,
Bu zəfərin, bu qələbən, mübarək!
Prezidentim, bu amalın mübarək!

Ağlamadı neçə şəhid anası,
İstədi qəhrəman olsun balası,
Çünki, gedir burda vətən davası,
Bu zəfərin, bu qələbən, mübarək!
Prezidentim, bu amalın mübarək!





Analar deyirdi, vətən sağ olsun,
Qarabağım Azərbaycanın olsun,
Rəhbərlə ordumun canı sağ olsun,
Bu zəfərin, bu qələbən, mübarək!
Prezidentim, bu amalın mübarək!

Yumruğunla zərbə vurdun başına,
Zəhər qatdın Paşinyanın aşına,
Bir də, çıxa bilməz sənin qarşına,
Bu zəfərin, bu qələbən, mübarək!
Prezidentim, bu amalın mübarək!

Vətənimə günəş doğdu üfiqdən,
Ermənıyə od qoydunuz yenidən,
Qovmağına söz vermişdin əzəldən,
Bu zəfərin, bu qələbən, mübarək!
Prezidentim, bu amalın mübarək!

Şuşanı aldınız, dünya mat qaldı,
Şuşa ermənıyə ağır dərd oldu,
Sənin bu qələbən, hesabat oldu,
Bu zəfərin, bu qələbən, mübarək!
Prezidentim, bu amalın mübarək!

Hər zaman ordunun yanında oldun,
Şuşanı Hayesin əlindən aldın,
Vətənin qəhrəman rəhbəri oldun,
Bu zəfərin, bu qələbən, mübarək!
Prezidentim, bu amalın mübarək!

Bayrağımız dalğalanır Şuşada,
Yeni həyat çoşa gəldi Şuşada,
Millətimiz bayramlaşır Şuşada,
Bu zəfərin, bu qələbən, mübarək!
Prezidentim, bu amalın mübarək!

Adını tarixə qızılla yazdın,
Bütün Qarabağı sən azad etdin,
Verdiyin vədinə sən əməl etdin,
Bu zəfərin, bu qələbən, mübarək!
Prezidentim, bu amalın mübarək!
08.11.2020.

## Əsgərlər evə gəlir

Müharibə başa çatdı,
Hərə öz yerin tapdı,
Vətən qələbə çaldı,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Füzuli azad olub,
Bir torpaq, bir daş qalıb,
Aram dağıdıb qaçıb,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.





Bura qanla boyanıb,
Torpaq qanla sulanıb,
Neçə şəhid ucalıb,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Qubadlı da, alınıb,
Düşmənlərdən qorunub,
Çox igidlər ad alıb,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Cəbrayılım azaddı,
Yatanları oyatdı,
Erməni daha batdı,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Zəngilanım alındı,
Ora zəfər yolumdu,
Düşmənini qovubdu,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Şuşaya girdi ordum,
Şuşanı aldı ordum,
Zərbəni vurdu ordum,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Erməni qorxub qaçdı,
Paşinyan yaman çaşdı,
Hələ də, o çaş-başdı,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Ağdam topsuz alındı,
Şəhər yaman solubdu,
Xarabaya dönübdü,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Kəlbəcər də, bizimdi,
Erməni çox üzüldü,
Aram yola düzüldü,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Laçınım sona qaldı,
Almağı asan oldu,
Ora da, azad oldu,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Şuşada bayram etdik,
Oranı mərkəz seçdik,
Şuşanı beşik bildik,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.





Mədəniyyət mərkəzi,
Üzeyirin vətəni,
Qarabağın məskəni,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Vətənim azad oldu,
Vətənim bütöv oldu,
Qarabağ bizim oldu,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Var olsun, nər oğlumuz,
Qoy var olsun ordumuz,
Arxa oldu xalqımız,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Cərgələndi bayraqlar,
Şəhid oldu oğlanlar,
Əyilmədi analar,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Dedi, vətən sağ olsun,
Qoy vətən bütöv olsun,
Yeni Polad doğulsun,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Qazi bayraqla gəlir,
Bu gəliş, xoşa gəlir,
Qanımız coşa gəlir,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Düşmənləri oxlayaq,
Yollarını bağlayaq,
Əhvalını korlayaq,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Ölməsək yaşamarıq,
Onda rahat olmarıq,
Onda oğul olmarıq,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Vətən bizim vətəndi,
Əzəl məskən olandı,
Ana Vətən vətəndi,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.

Keçmişdən əmanətdi,
Bizə şandı-şöhrətdi,
Hər bir kəsə cənnətdi,
Əsgərlər evə gəlir.
Baxışdan nur ələnir.
08.01.2021.





## Şad oldu

Vətənimiz azad oldu bəladan,
Biz qurtardıq bu ağrılı yaradan,
Qüvvə verdi bizə, o bir Yaradan,
Mübarizin ruhu, indi şad oldu.

Neçə Mübarizlər gəldi həyata,
Layiq oldu hər birisi bu ada,
Oğullar vaxtında yetişdi dada,
Mübarizin ruhu, indi şad oldu.

Poladım da, İlqarım da, varıdı,
Əliyarlar, Cəbrayıllar çox idi,
Onlar olan yerdə, düşmən yox idi,
Mübarizin ruhu, indi şad oldu.

Xudayar tək şəhidlərim yaşayır,
Surxay, Müşviq zirvələrə ucalır,
Döyüşən oğullar xalqdan güc alır,
Mübarizin ruhu, indi şad oldu.

Gülə-gülə əsgər gedir döyüşə,
Söyləyir vətənim düşübdür işə,
Qoymaram millətim düşə təşvişə,
Mübarizin ruhu, indi şad oldu.

Qazilər döyüşü yarıda qoydu,
Neçə şəhidlərə orda baş əydi,
Kənan da, ayaqdan çox zədə aldı,
Mübarizin ruhu, indi şad oldu.

Alındı Qarabağ, alındı Şuşa,
Çox əsgər ömürün yaşadı qısa,
Bəzi də, qayıtdı əlində əsa,
Mübarizin ruhu, indi şad oldu.

Bütün şəhidlərin ruhu şad olsun,
Döyüşən oğullar hər an sağ olsun,
Vətən azad oldu, xalqım şad olsun,
Mübarizin ruhu, indi şad oldu.

Bu döyüşün qəhrəmanı anadır,
Anamızın anası da, anadır,
Şəhid verib, torpaq alan anadır,
Mübarizin ruhu, indi şad oldu.

Oğul tabutuna girəni gördüm,
Vətənim sağ olsun, deyəni gördüm,
Fədakar anaya mən də, baş əydim,
Mübarizin ruhu, indi şad oldu.

Prezident döyüşün memarı oldu,
Düşmənin başına zərbələr vurdu,
Paşinyan o akta imzasın qoydu,
Mübarizin ruhu, indi şad oldu.
25.12.2020.





# MƏHƏBBƏT HAQDA

***Sevməyən ürək boşdu,***
***Ya qəmbərdi, ya daşdı,***
***Sevgisi qanlı yaşdı,***
***Deyir bu nə təlaşdı.***

***Sevgi ürək payıdı,***
***Yaşamaqla yarıdı,***
***Qəlbin intizarıdı,***
***Məhəbbətin payıdı.***

***Ürəklərə körpüdü,***
***Allah verən sevgidi,***
***Sevənlərdə duyğudu,***
***Alovlanan yanğıdı.***

***Sevgi eşqin özüdü***
***Duymayanın dərdidi,***
***Ürəklərin bəndidi,***
***Sevənlərin əhdidi.***

## Harda qalmısan

Birgə vurur, ürəyimiz hər zaman,
Duyar bizi, eşq oduna hər yanan,
Mənəm sənsiz bu saralan, bu solan,
Gəl yetir özünü, harda qalmısan.
Sənin həsrətindən yaman solmuşam.

Adını dilimdə əzbər etmişəm,
Hicran odun ürəyimə salmısan
Bu abad könlümü viran etmisən,
Gəl yetir özünü, harda qalmısan.
Sənin həsrətindən yaman solmuşam.

Sənsiz açılmayır qəlbin aynası,
Əzəldən qurmusan sevgi qalası,
Olmusan o vaxtdan, dərdin çarəsi,
Gəl yetir özünü, harda qalmısan.
Sənin həsrətindən yaman solmuşam.

İsmayılı öyrətmisən özünə,
İnanmışam, sənin şirin sözünə,
Artıq qalmayıbdı, tabım dözümə,
Gəl yetir özünü, harda qalmısan.
Sənin həsrətindən yaman solmuşam.
15.06.2020.





## Cavab verəsən

Baxa-baxa qaldım sənin dalınca,
Üzülürəm, səndən cavab alınca,
Bülənmisən ala-şala, narınca,
Nə olar, sözümə cavab verəsən.
Axan göz yaşımı, özün siləsən.

Özümü dünyanın xöşbəxti billəm,
Ürəkdən sevinib, mən deyib-gülləm,
Qara gözlərinə vurula billəm,
Nə olar, sözümə cavab verəsən.
Axan göz yaşımı, özün siləsən.

Eyibsiz yaradıb sizi yaradan,
Beləsin mən tapardım haradan?
Mənə qismət edib, sizi Yaradan,
Nə olar, sözümə cavab verəsən.
Axan göz yaşımı, özün siləsən.

İsmayıl unutmaz sənli günləri,
Yazın, ömürümə bu xoş günləri,
Sevmişəm əzəldən ləli, gövhəri
Nə olar, sözümə cavab verəsən.
Axan göz yaşımı, özün siləsən.
04.05.2020.

## Sevə bilmərəm

Heç kəsi bu qədər, mən sevməmişəm,
Bundan başqasına, can deməmişəm,
Sevgisiz ürəyi, mən sevməmişəm,
Eşqisiz ürəyi, sevə bilmərəm.
Sevdiyim gözəldən, dönə bilmərəm.

Ürəklər sevməsə, vurula bilməz,
Vurula bilməsə, şad ola bilməz,
Dilbərin nazını o, çəkə bilməz,
Eşqisiz ürəyi, sevə bilmərəm.
Sevdiyim gözəldən, dönə bilmərəm.

Sevdim ki, sevilim eldə-obada,
Sevməsən yaşamaq olmur, bir qayda,
Çoxları vurula bilmir, nə fayda,
Eşqisiz ürəyi, sevə bilmərəm.
Sevdiyim gözəldən, dönə bilmərəm.

Sevməyən ürəyi duymaq çətindir,
Sevib tez ayrılmaq, ondan çətindir,
Duyğusuz ürəyi, sevmək çətindir,
Eşqisiz ürəyi, sevə bilmərəm.
Sevdiyim gözəldən, dönə bilmərəm.
01.05.2020.





## Yaşamaram

Mən səni, gözümün üstə saxlaram,
Sənsiz qalsam, axşam-səhər ağlaram,
İnan çaylar kimi, coşub-çağlaram,
Sənsiz bu həyatda, yaşamaram mən.

Bircə addım, sənsiz ata bilmərəm,
Səni ürəyimdən, ata bilmərəm,
Dərdimə bir əlac, tapa bilmərəm,
Sənsiz bu həyatda, yaşamaram mən.

Həyatımı bağlamışam adına,
Axşam-səhər, hey yanıram oduna,
İnsaf eylə, sən məni sal yadına,
Sənsiz bu həyatda, yaşamaram mən.

Səni görsəm, üzüm gülər, şad ollam,
Gəlməsəniz, alovlanıb od allam,
Sənsiz qalsam, saralaram hey, sollam,
Sənsiz bu həyatda, yaşamaram mən.

Səni, yazıb taleimə Yaradan,
Yoxsa səni, mən tapardım haradan,
Daha mən seçirəm, ağı qaradan,
Sənsiz bu həyatda, yaşamaram mən.

İsmayılın həmdəmisən əzəldən,
Ayrıla bilmərəm, sən tək gözəldən,
Doymaq olmur, o can alan gözlərdən,
Sənsiz bu həyatda, yaşamaram mən.
18.09.2020.

## Bilərsən

Bilirəm, günahkar sayırsan məni,
Uzaqdan boylanıb, baxıb gedirsən,
Baxıb yad sözünə, unutma məni,
Hamıdan vəfalı, məni bilərsən.

Eşqin ürəyimdə yuva salıbdı,
Gül camalım saralıbdı-solubdu,
Gözlərim o vaxtdan, yolda qalıbdı,
Hamıdan vəfalı, məni bilərsən.

Ay insafsız, üzmə məni yola gəl,
Pərişan halımı gəl sən ələ al,
Bu qəmi-kədəri sən mənimlə böl,
Hamıdan vəfalı, məni bilərsən.

Mən bu qəmi, tənha çəkə bilmərəm,
Sən gəlincə, göz yaşımı silmərəm,
Səndən başqa, özgə qəlbə girmərəm,
Hamıdan vəfalı, məni bilərsən.

İsmayılı atəşlərə qalama,
Məni atıb, başqasını arama,
Yara üstən, yara vurma yarama,
Hamıdan vəfalı, məni bilərsən.
17.09.2020.





## Mənim kimi sevməyib

Gördüm, səni sevmək asan deyilmiş,
Səni gizli-gizli çoxu sevirmiş.
Eşq sözünü, ürəyində deyirmiş,
Heç kəs, səni mənim kimi sevməyib.

Vurulmuşam qamətinə, boyuna,
Düşmüşəm, o andan eşqin toruna,
Dedim, kaş qolumu salım boynuna,
Heç kəs, səni mənim kimi sevməyib.

Həsrət közü yandıracaq bil məni,
Eşqin meydan edib, mənim sinımi,
Unutmaq çətindir, belə bir qəmi,
Heç kəs, səni mənim kimi sevməyib.

Nə vaxtacan, mən yollarda qalacam,
Səndən nə vaxt, hə cavabın alacam,
Nə vaxtacan saralacam, solacam,
Heç kəs, səni mənim kimi sevməyib.

Yox desən, həyatdan bezib gedərəm,
Sənsiz mən bilmirəm, nələr edərəm,
Sənsiz qalsam, bu dünyadan köçərəm,
Heç kəs, səni mənim kimi sevməyib.

Ürəyimi qırma gözəl, ölərəm
Ölənəcən inan səni sevərəm,
Sevsən məni, sənə mehman olaram,
Heç kəs, səni mənim kimi sevməyib.
22.09.2020.

## Can alırmış

Gözlərinə baxmaq olmur,
Qaşlarından doymaq olmur,
Bircə cavab almaq olmur,
Əcəb siması varımış.
Baxmaq ilə can alırmış.

Gərdəninə yayıb saçın,
Libası var qırçın-qırçın,
Donub, baxa-baxa qaldım,
Əcəb siması varımış.
Baxmaq ilə can alırmış.

Siyah telin həlqə vurub,
Mərmər sinə üstə burub,
Ağlımı başımdan alıb,
Əcəb siması varımış.
Baxmaq ilə can alırmış.

Can atdım, həmdəmim olsun,
Ömürümə bir pay olsun,
Xatirəmdə yadda qalsın,
Əcəb siması varımış.
Baxmaq ilə can alırmış.

Yerişində atəşi var,
Canlar alan qaməti var,
Vurulandan olmuşam lal,
Əcəb siması varımış.
Baxmaq ilə can alırmış.

İsmayıla dərd olacaq,
Məni yatağa salacaq,
Bəlkə insafı olacaq,
Əcəb siması varımış.
Baxmaq ilə can alırmış.





# POEZİYA

***Şeir – sözdən çələngdi,***
***Sevəni ora çəkdi,***
***Duyur, azalır dərdi,***
***Sevənin budur cəhdi.***

***Vurulanlar bənd olur,***
***Noğul olur, qənd olur,***
***Sevənlər xoşbəxt olur,***
***Qəm-kədər uzaq olur.***

***Qəlbi çəkir zirvəyə,***
***İnanır o qüvvəyə,***
***Üz çevirir fələyə,***
***İnanır gələcəyə.***

***Qəlbən onu sevəsən,***
***Dəyərini verəsən,***
***Zövqü-səfa sürəsən,***
***Sevən kəsi duyasan.***

## Çətində qalmısan, dünya

Heç kim səni, bu durumda görməyib,
Çox ağır durumda qalmısan, dünya.
Kimlər salıb, bu milləti çətinə,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.

Boş qalıb küçələr, hamı evdədir,
Dünyanın yarısı, demək xəstədir,
Xəstələr sağalmır, bu nə qaydadır,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.

Soyuyub millətin əlləri işdən,
Ahıllar, qocalar düşübdü dildən,
Çoxunun cəsədi tapılır evdən,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.

İnsan dost-tanışla, görüşə bilmir,
Hamı qəm içində, danışa bilmir,
Ən yaxın adamla, öpüşə bilmir,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.

Nadanlar milləti salıblar dərdə,
O qansız kimdi ki, çatıbdır əhdə,
Bu cahil dünyanı salıbdır bəndə,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.





Nə şaxta var, nə boran var, nə də, qar,
İsti də, deyil ki, deyəm gəlib yay,
Dünyaya bəs niyə yayılıb bu hay,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.

Qorxulu düşməndir, görünmür gözə,
Görünməz əzabı o verdi bizə,
Yapışır boğazdan, o baxmaz sözə,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.

Bütün millət, əl çəkibdir dünyadan,
Belə bəla görən gəldi hayandan,
Əyninə geydiyi köynəyi oddan,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.

Məktəblər bağlanıb, oxuyan yoxdur,
Amansız virusdur, əlacı yoxdur,
Millətə tuşlanan nizədir, oxdur,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.

Uçmur təyyarələr, üzmür gəmilər,
Neçə vaxtdır səmalarda gəzmirlər,
Səfərdə olanlar geri dönmürlər,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.

Bunu yaradanlar nadan olublar,
Dünya miqyasında düşmən olubdur,
Milləti sağalmaz dərdə salıbdır,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.

Belə harınlara, deyək ar olsun,
Yaşadıqca öz həyatı zay olsun,
Belələri yer üzündə, xar olsun,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.

Pekində yoluxdu bir şəhər əvvəl,
Burada cəm oldu ağılsız səylər,
Oradan yayıldı dünyaya yellər,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.

Tanımır heç kəsi can alıb gedir,
Hər kəsdən yapışsa, iz qoyub gedir,
Ananı baladan o alır gedir,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.

Dedilər COVİD-di, o koronadı,
Qorxuludu, öldürücü bəladı,
Bu milləti qırdı, yaman taladı,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.





Hələ tapan yoxdur, onun çarəsin,
Allah versin törədənin bəlasın,
Allah yetirəcək onun çarəsin,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.

Dünya alimləri vur ha vurdadır,
Axtarışlar gedir, bu bir qaydadır,
Millət əldən gedir, gör nə haldadır,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.

Bu dünyanı yaradan var, quran var,
Öldürməyə, diriltməyə haqqı var,
Başımızın üstə böyük Allah var,
Özün də, çətində qalmısan, dünya.
Allahın yolundan çıxmısan, dünya.
31.05.2020-ci il.

## Dünya yaman çalxalanır

Dünya yaman çalxalanır,
Bu bəşər, oda qalanır,
Hər gün bir haqqa yaranır,
Dünya yaman çalxalanır.
Hər yanı, oda qalanır.

Adət köhnə, qılınc təzə,
Oğul gərək, dərdə dözə,
Çox yaramaz dəyir gözə,
Dünya yaman çalxalanır.
Hər yanı, oda qalanır.

Nə ucu var, nə bucağı,
Talan olub, hər bucağı,
Kim qaladı, bu ocağı,
Dünya yaman çalxalanır.
Hər yanı, oda qalanır.

Görən xəzan hardan əsir,
Nə səngiyir, nə də, kəsir,
Bəs bu dünya, necə dözür,
Dünya yaman çalxalanır.
Hər yanı, oda qalanır.

Gəlin, biz yoldan çıxmayaq,
Biz ağı, qara yazmayaq,
Heç zaman əngəl olmayaq,
Dünya yaman çalxalanır.
Hər yanı, oda qalanır.

Hamı, üz tutsun Allaha,
Çarəmiz qalıb Allaha,
Bizi salsın düz yollara,
Dünya yaman çalxalanır.
Hər yanı, oda qalanır.
02.05.2020.





## Dilim-dilim

Qarpız kəsdim dilim-dilim,
Dedim dadım, dadın bilim,
Sonradan da, onu yeyim,
Dilim olsun, dilim-dilim.
Nə danışım, nə də, dinim.

Danışmadım lal dedilər,
Yaman qalmaqal etdilər
Sözə nəzər sal dedilər,
Dilim olsun, dilim-dilim.
Nə danışım, nə də, dinim.

Dedim dilsiz, qara daşdı,
Baxışlarım, yaman çaşdı,
Deyənmərsən, o çaşbaşdı,
Dilim olsun, dilim-dilim.
Nə danışım, nə də, dinim.

Necə varsan, elə qalın,
Seçin yaşamağın yolun,
Göründüyü kimi olun,
Dilim olsun, dilim-dilim.
Nə danışım, nə də, dinim.

Düz deyənə, söz silahdı,
Anlamaza çox uzaqdı,
Hər suya, demə bulaqdı,
Dilim olsun, dilim-dilim.
Nə danışım, nə də, dinim.
03.05.2020.

## Günahkar

*Vəzifəsindən sui-istifadə edən,*
*bəzi üzdəniraq məmurlara*

Hərə bir at çapır, ağalıq edir,
Dünya öz işində, baş alıb gedir,
Hamını ələyir, o bir-bir seçir,
Zaman günahkardı, ya biz günahkar.

Qanunu yazanlar, onu oxumur,
Gözlərin pul örtüb, xalqı tanımır,
Qanunların kəsərini anlamır,
Zaman günahkardı, ya biz günahkar.

Qanundan yapışıb, əyri danışır,
Sarmaşıq tək, hər bir yerə dırmaşır,
Pul görəndə, od-alovsuz alışır,
Zaman günahkardı, ya biz günahkar.

Deyir ziyalıyam, özünü öyür,
Mənəm-mənəm deyir, döşünə döyür,
İşdən söz düşəndə, gözünü döyür,
Zaman günahkardı, ya biz günahkar.

Əyrilər yüz il də, qalsa düzəlməz,
Belələri, cəmiyyətə düz gəlməz,
Əsli huylar düzəlməz ki, düzəlməz,
Zaman günahkardı, ya biz günahkar.





Belə məmurların sayı çoxalıb,
Beləsinin, vədəsinə az qalıb,
Artıq onlar nişangaha tuş gəlib,
Zaman günahkardı, ya biz günahkar.

Kült toyuq tək, nə var yığıb altına,
Deyir ki, öləndə gələr karıma,
Beləsinin, niyə gəlmir arına,
Zaman günahkardı, ya biz günahkar.

Neçələri artıq düşüb qarmağa,
Niyə baxmır gözü çıxan qardaşa,
Bax gör kimlər, gəlib düşüb bu çağa,
Zaman günahkardı, ya biz günahkar.

At da, getdi, ip də, getdi, ay yazıq,
Danışmağa sözün yoxdu, ay yazıq,
Kişiliyə bu yaraşmır, ay yazıq,
Zaman günahkardı, ya biz günahkar.

Orda düşünməyə vaxtın olacaq,
Adın qara dəftərlərdə qalacaq,
Qanun sizi qəfəslərə salacaq,
Zaman günahkardı, ya biz günahkar.

Oğul-uşaq görüşünə gələcək,
Sizə orda, əxlaq dərsi verəcək,
Gec də, olsa, xatirəndə qalacaq,
Zaman günahkardı, ya biz günahkar.

Mən yazdım ki, yatan varsa ayılsın,
Xalqa xidmət etsin, kişi sayılsın,
Səviyyəsiz vərdişlərə son qoysun,
Zaman günahkardı, ya biz günahkar.

İsmayılın gözü toxdur, hər zaman,
Pul hərisi xəstəlikdir, ay insan,
Bu xəstəlik, yıxar səni bir zaman,
Zaman günahkardı, ya biz günahkar.
18.08.2020.

## Evdə qalaq

Ay insanlar, ayıq olaq!
Bu bəladan uzaq olaq,
Biz birləşək, qalib olaq,
Evdə qalaq, sağlam olaq.
Bəlalardan uzaq olaq.

Korona bizi haxladı,
Bu dünyanı çalxaladı,
Millət qırıldı qalmadı,
Evdə qalaq, sağlam olaq.
Bəlalardan uzaq olaq.

Çağırılmamış şər qonaqdır,
Çox amansız bir silahdır,
Toxunmayın, ay amandır,
Evdə qalaq, sağlam olaq.
Bəlalardan uzaq olaq.





Çox izdiham yaratmayın,
Bir az məsafə saxlayın,
Çalışın, evdən çıxmayın,
Evdə qalaq, sağlam olaq.
Bəlalardan uzaq olaq.

Fədakardır həkimlərim,
İşdə keçirir günlərin,
Dərdin çəkir xəstələrin,
Evdə qalaq, sağlam olaq.
Bəlalardan uzaq olaq.

Qayğıkeşdir dövlətimiz,
Sevir onu hər birimiz,
Fayda verir birliyimiz,
Evdə qalaq, sağlam olaq.
Bəlalardan uzaq olaq.

Azərbaycan mayaq oldu,
Qərbə-Şərqə dayaq oldu,
Mübariz tək, qalib oldu,
Evdə qalaq, sağlam olaq.
Bəlalardan uzaq olaq.
28.03.2020.

## Olmaz

Yerinə düşmürsə demə, sözünü
Sözün yerə düşər, dəyəri olmaz.
Anlamaza nə qandırıb, deyəsən,
Dəyərsiz yanında, hörmətin olmaz.

Sərraf bazarında ləli xırdala,
Sərrafı olmasa, onu kim ala,
Dəyər verməz beləleri, ay bala,
Dəyərsiz yanında, hörmətin olmaz.

Hər yoldan ötənə uyma, amandı,
Sonra baxarsan ki, halın yamandı,
Beləleri su keçirən samandı,
Dəyərsiz yanında, hörmətin olmaz.

Tanınmazdı, zatı-kökü bilinməz,
Qaçar dar ayaqda, işə yaramaz,
Dostam deyər, illər keçər aramaz,
Dəyərsiz yanında, hörmətin olmaz.

Yadda saxla İsmayılın sözlərin,
Elə yaşa, xatırlansın izlərin,
Ürəklərdə qalsın yaxşı sözlərin,
Dəyərsiz yanında, hörmətin olmaz.
03.05.2020.





## Yarpaq kimidir

İnsan zərif gül kimidir,
Əl dəyməmiş düşür hərdən.
Bu Xudanın öz sirridir,
İnsan da, yarpaq kimidir.

Çalış zədə tapmayasan,
Acı bir yol seçməyəsən,
Hər nə gəldi, yeməyəsən,
İnsan da, yarpaq kimidir.

Düşən yarpaq yaşamayır,
Öz yerinə qayıtmaylr,
Daha onda, hal qalmayır,
İnsan da, yarpaq kimidir.

Nə isti ye, nə də, soyuq,
Hər bir zaman olun ayıq,
Doymamış süfrədən qayıt,
İnsan da, yarpaq kimidir.

Varlığına şükür eylə,
Yaradana dua eylə,
Yıxılana imdad eylə,
İnsan da, yarpaq kimidir.

Sən idarə olunursan,
Niyə axı deyinirsən,
Elə şey var sən bilmirsən,
İnsan da, yarpaq kimidir.

Səni qətrədən yaratdı,
Bu həyata özü atdı,
Dünyanı belə yaratdı,
İnsan da, yarpaq kimidir.
23.11.2020.

## Dəyər-dəyməz

Zirvələrdə süzən qartal,
Ucalmağa dəyər-dəyməz?
Bu dünyanın etibarı,
Beş qəpiyə dəyər-dəyməz?

Soran yoxdur, axı kimsən,
Dünya haqda nə bilirsən,
Bu cahana xoş gəlmisən,
Yaşamağa dəyər-dəyməz?

Az yeyib, çox yığan yazıq,
Var yolunda ölən yazıq,
Gəldi yazıq, getdi yazıq,
Yaşamağa dəyər-dəyməz?





Rüzgardan xəzan əsdi,
Yığdıqların sənə bəsdi,
Gələn-gedən sənə dərsdi,
Yaşamağa dəyər-dəyməz?

Gündəliyin varsa, bəsdi,
Anlamaza böyük dərsdi,
Qara külək, yandan əsdi,
Yaşamağa dəyər-dəyməz?

İlahidən gələn səsdi,
Nə verirsə, sənə bəsdi,
Əysə demə, dərdi-sərdi,
Yaşamağa dəyər-dəyməz?

İsmayıl, bir səbrin olsun,
Haqq ədalət, yerin alsın,
Tale verən payın olsun,
Onda deyin, dəyər-dəyməz?
21.12.2020.

## Gec olacaq

Söz verib sözdən qaçan, hara kimi qaçırsan,
Belə etsən başına, sən oyunlar açırsan.

Verdiyin söz özünsən, sən özünü danırsan,
Yalan ağır bəladı, dərd-bəlalar tapırsan.

Tamah sənə güc gəldi, sən xətalar edirsən,
Özünü haqlı sayıb, çətin seçim edirsən.

Sən insan olduğunu açıqca unudursan,
Nəfis səni aldadır, çətin yolda qalırsan.

Dünyaya gələn insan, inan əli boş gəlir,
Həyatı tərk edən kəs, əlləri açıq gedir.

Payı bircə kəfəndi, o da, qisməti olsa,
Var gözündə yox olur, fərqi yox kimə qalsa.

Sağlığında paylasa, fəzilətə düşərdi,
O dünyaya üzü ağ, çox arxayın gedərdi.

Gözə dəyən var-dövlət, bu dünyamız üçündü,
Bu dünyanı dərk edən, aqil də, düz seçimdi.

Sağlığında rəhmət al, öləndə gec olacaq,
Orda demək yersizdi, faydası suç olacaq.

Mənəm-mənəm burdadı, orda işə yaramır,
Ya bəy ol, ya da, nökər, onu heç kəs aramır.

Qafil olma, Hacı Zeynəlabdini sal yada,
Neçə-neçə əsərlər, ithaf olur o ada.

İlk dəfə tikdirib, ölkədə qızlar məktəbin,
Şəhərə su çəkib o, alıb xeyir əməlin.
06.01.2021.





## Eşq olsun

Həyatı əzəldən dərk edən kəsin,
Yolu aşıq olsun, üzü ağ olsun.
Canı sağlam, arzuları çin olsun,
Yerin bilən, hər insana eşq olsun.

Saf məhəbbət hər an gülsün üzünə,
Gözəlliklər həmdəm olsun gözünə,
Məzaracan, ağlı baxsın sözünə,
Yerin bilən, hər insana eşq olsun.

Halallıq hər zaman şöhrətin olsun,
Hər an kara gələn qeyrətin olsun,
Dildən-dilə düşən söhbətin olsun,
Yerin bilən, hər insana eşq olsun.

Tanısın Allahı, elə bağlansın,
Çalışsın adını uca saxlasın,
Haqqa, ədalətə ümid bağlasın,
Yerin bilən, hər insana eşq olsun.

Həyatdan köçəndə yeri görünsün,
El içində kim olduğu bilinsin,
Oğul-uşaq ata ilə öyünsün,
Yerin bilən, hər insana eşq olsun.

İnsan gərək, haqq yolundan dönməyə,
Vətən üçün bir şam kimi sönməyə,
İstərəm gözümə naqis dəyməyə,
Yerin bilən, hər insana eşq olsun.
05.04.2020.

## Düşməsin

Allahım, üz tutub mən yalvarıram,
Namərdə mərdlərin işi düşməsin.
Qəfil boran olub, tufan qopsa da,
Ağacdan vədəsiz yarpaq düşməsin.

Heç kəsin çöhrəsi vaxtsız solmasın,
Cavan ömür, yarı yolda qalmasın,
Kədərdən ananın gözü dolmasın,
Heç kəs hörmətindən uzaq düşməsin.

Gədalara meydan vermə amandı,
İndi hansı dövran, hansı zamandı,
Əslihuylar insanlıqdan uzaqdı,
Aqillərin yolu ordan düşməsin.

Zaman özü ələyəcək vaxtında,
Mənəm deyən qalmayacaq taxtında,
Gərək hörmət qazanasan vaxtında,
Heç kəsin bəxtinə nadan düşməsin.

İsmayıl da, çox ələdi, çox seçdi,
Gördüm ki, gəldiyim yollarım düzdü,
Ürəyi saf olan dostları seçdi,
Allah, onlar məndən ayrı düşməsin.
06.01.2021.





## Yaxşıdı

Gələn gəlir, gedən gedir, işim yox,
Dayanmışam öz yerimdə, suçum yox,
Nə verirsə, Allah verir, sözüm yox,
Bilirəm ki, Allah bilən yaxşıdı.

Onsuz axı, mən nələri edərdim,
İcazə verməsə hara gedərdim,
Onsuz bu həyatdan özüm bezərdim,
Bilirəm ki, Allah bilən yaxşıdı.

Dərgahına üz tuturam, bir daha,
Dərd əlindən çəkmə məni sınağa,
İstəmərəm səndən düşəm uzağa,
Bilirəm ki, Allah bilən yaxşıdı.

Əlim çıxsa ətəyindən, ölərəm,
Unudaram yaşamağı, sönərəm,
Mənim çırağımsan, sənsiz görmərəm,
Bilirəm ki, Allah bilən yaxşıdı.

Nur vermisən, bu şairin gözünə,
Güc vermisən qələminə, sözünə,
Ey Xudaya, qurban olum özünə,
Bilirəm ki, Allah bilən yaxşıdı.

İsmayılı gəl güldürmə ellərə,
Bədnam edib, məni salma çöllərə,
Yalvarıram, məni vermə sellərə,
Bilirəm ki, Allah bilən yaxşıdı.
07.01.2021.

## Atalar sözləri

Allah verən qismətdir.
İstedad elmə baxmır.
Elmi bilik öyrədir, ağıl yox.
Başqasına düz yol göstərənin özü düz olmalıdır.
Yer göyün dərdinə qalmamalıdır.
Yaxşılıq nə qədər etsən olar, pislik isə yox.
Qızılgülün aşiqi bülbüldür.
Qırğının ovu sərçədir.
İnsanı insandan fərqləndirən onun ağlıdır.
Qonşusu ac olan varlı deyil.
Tamah insanın düşmənidir.
Dil ürəyin açarıdır.
Söz beynin bəhrəsidir.
Torpaq, sevəni sevindirər.
Torpaq onu qoruyana əzizdir.
Övladda olan nöqsan valideynin nöqsanıdır.
Koru hiss etmək üçün bir anlığa gözünü yum.
Əl tutmayan dövlətli varlı deyil.
Özündən balacanı döymək əbəsdir.
Yazığa əl qaldırmaq allahsızlıqdır.
Övladı olmayanın yanında uşaqdan danışma.
İşi işləmək qurtarar, yolu yerimək.
Sevməyən adam yaşamır.
Arzu tükənibsə, həyat qurtarıb.
Ağıl o vaxt kara gəlir ki, onu işlədəsən.
Yaşamaq yaratmaq üçündür.
Quş uçmursa yaşamır.
Quş qanadla uçar.
Yaşayanda elə yaşa ki, sonra özün yada düşəsən, gorun yox.
Məhəbbətin qarşılıqlı olmaması bədbəxtlikdir.
Məhəbbət elə bəladır ki, ondan qaçmaq olmur.





Eşqə düşmək sevmək deyil, onu dərk etməkdir.
Sən tərəzidə öz imanını çəkirsən.
Sən neçəsinə cəza versən, onu özün görəcəksən.
Qəbir bizim arzu edilməz axır evimizdir.
Baş kəsməmisənsə, xoşbəxtsən.
Havayı mal-dövlət hərisi olan, özünə quyu qazır.
Kaş düşmən də, bal arısı kimi sancanda ölə.
Torpaq meyvənin dadını dəyişir, kökünü yox.
Elm tək alimlər üçün deyil, onu dərk edənlərindir.
Cəmiyyətə yaramırsansa, yox kimisən.
Elin duası ev tikər, naləsi yıxar.
Elə söykənən yıxılmaz.
Söykəndiyin dağın altını oyma, fəlakət olar.
Dava insanlığın son mərhələsidir.
Dava düşmən üçündür.
Ölüdən hayıf çıxmazlar.
Toyun sahibi bəydir.
Adam adamın yanından adam kimi keçər.
Başqasına acı söz deyən özünü onun yerində bilsə yaxşıdır.
Toy sevgi bayramıdır, ona dava qatma.
Sənətkar yaddan çıxmaz.
Dəmirçidən zərgər olmaz.
Bərk gedən tez yorular.
O dünya bu dünyadakıların axirət evidir.
Qurd balasından ev iti olmaz.
Güləş hünər meydanıdır.
Oğru özünü peşə sahibi bilir.
Sərxoş həmişə özünü haqlı sayır.
İradəsiz adam gücsüz olur.
Ara qarışdıran bekar olanda halı pisləşir.
Qonşun pisdirsə tez köç, sonra gec olar.
Yerini dəyişmə, xasiyyətini dəyiş!
Söz eşitməyən adam nadandır.
Getməlisənsə gecikmə.

Düz sözün sahibi düz olmalıdır.
Tərəzinin qulağını burmasan, düz çəkər.
Qorxudan düzələn tez əyilər.
Atla, arvadı zatla al.
Sənəti gözdən salan pis sənətkardır.
Yaxşı sənətkar sənəti ilə yaşayır.
Əlini əyri öyrətməsən öyrənməz.
Tanımadığın quyunun suyunu içmə.
Pis adamın pis də, vərdişi olar.
Bir sözün iki mənası olur.
Sirri açanda da, mərdə aç.
Yalançı özünü aldadır.
Sən öz dərdini çək, dünyanın yox.
Söz ağızdan çıxıbsa sənin deyil.
Zamanın iki üzü var.
Zamanın hökmü qətidir.
Çörək kəsdiyini tapdama.
Yüz toxa əl tutmaqdansa, bir aca əl tut.
İntizam qorxaqlıq deyil.
Bağışlamaq acizlik yox, böyüklükdür.
Düzlük xoşbəxtliyin açarıdır.
Qanun başa düşənindir.
Həqiqət acı dərmandır.
Qeyrət qanda olmalıdır.
Mərifət insanlığın ali mərtəbəsidir.
Gözəllik zahirdə deyil, daxildə olmalıdır.
Göyün zərbinə yer dözər.
Hər açıq qapıdan baxma.
İt nə qədər əsil olsa da, yenə itdir.
Yaxşı iş yoldaşı qardaş kimidir.
Söz özü bir silahdır.
Yaxşılıq təmənnasız olmalıdır.
Qılıncın itiliyini qol bilər.
Qardaş nə qədər pis olsa da, yenə qardaşdır.





Sevən iki ürək olmalıdır, üçüncü varsa artıqdır.
Sözü vaxtında deyin, gecikəndə fayda verməz.
Pis övlad bala yox, bəladır.
Sözü pis anlayana sərvətdir, anlamayana töhmət.
Oğru tutulmayana qədər doğrudur.
Sözü yaxşı bişirsən demək asan olar.
Zəhmət sevməyən var-dövlət qədri bilməz.
Sən atana bax ki, övladın da, sənə baxsın.
Ana südü əmməyən uşaq anasız sayılır.
Müəllimə baş əyməyən biliksizdir.
Anlamayana söz demək, kara pıçıldamaq kimidir.
Mən kimə hörmət edirəmsə, elə bil Allaha edirəm.
Yaxşılığa yaxşılıq borcdur, yamanlığa yaxşılıq tacdır.
Anlamaza ağa olmaqdansa, qanana qul olasan.
Dərdini dərdliyə açsan, o səni duyar.
İki sevəni ayırmaq olmaz.
Zor ilə sevmək və sevdirmək olmaz.
Ata Allahdan aşağı ikinci Allahdır.
Analar cənnətin qapısıdır.
Arvadı gözəl olan xoşbəxtdir, çirkin isə bədbəxtdir.
Öyrətməyə baxan adam nadandır.
Sən kiməsə əl tut ki, Allah da, sənə əl tutsun.
Arzu tükənəndə həyat qurtarır.

## Minnətdarlıq

Hörmətli oxucular, salam!

Sizinlə görüşə elə bir vaxtda gəlmişəm ki, nəinki mənim hətta bütün xalqımın əhvalı yüksək səviyyədədir. Ona görə ki, qalib xalq olmuşuq. Azərbaycan bütöv bir ölkədir. Qarabağ Azərbaycandır! şüarı altında addımlayır. Bu qırx dörd "44" günlük qələbədən ruhlanaraq, on altıncı kitabımı yazdım.

Azərbaycan bu qələbədə yüz illik sükutu "30" otuz ilki bareleri sındıraraq düşmənləri doğma torpaqlardan, xalqımın, ordumun və prezidentimin dəmir yumruğu sayəsində çıxarıb qova bildik.

Ona görə də, ilk əvvəl orduma, xalqıma və prezidentimə təşəkkül edirəm.

Oku qaldı mənə. Mənə bu şairliyi verən Allaha minnətdaram. Sonra mənim bu yazılarımın kompüter variantını işləyib hazırın mənə verən Bəhruz Seyidliyə minnətdarlığımı bildirirəm. Sonra isə mənim əlimdən tutub ədəbi həyata gətirən filologiya üzrə fəlsəfə doktoru, Prezident mükafatçısı, bacım Fərida Ləmana öz səmimi təşəkkürümü bildirirəm. Özü mənə kömək etməklə, bərabər, yeni şairlərlə tanış etdi. Onlardan Hacı Zaməddin Ziyadoğlu və Rəfail İncəyurdlada məni tanış etdi.

Hətda məni yazıçılar birliyinə üzvü olmağa da, kömək etdilər. Ona görə onlara da təşəkkül edim. O vaxtdan bəri, onlar mənim kitablarımın redaktoru olurlar.

Hazırkı on altıncı (16) kitabımın redaktoru Hacı Zaməddin Ziyadoğludur. Səmimi insana öz təşəkkülümü bildirirəm.

Kitabların çap olmasında Tərəqq MMC-nin mətbəəsi mənə isti münasibət göstərirlər. Onların da hamısına başda rəhbərlik olmaqla öz təşəkkülümü bildirirəm. Ümidvaram ki, oxucuları yaxın vaxtda sevindircəyik.

Kitabın adından göründüyü kimi bu kitabı Vətən müharibəsi gedən vaxt yazmışam. Kitabın əsas baş qəhrəmanları Ali Baş Komandan, şəhidlər, qəhrəman döyüşçülər və xalqımla qazilər olmuşdur. Ona görədə kitabı onların şərəfinə yazmışam. Onlara eşq olsun. Qarabağ Azərbaycandır!

***Müəllifdən***





## MÜNDƏRİCAT

Ön söz ........ 3

**VƏTƏNPƏRVƏRLİK HAQDA**
Bu qardaşlıq bayramıdı ........ 8
Bizi qoruyun ........ 13
Bizim andımız ........ 15
A dünya ........ 16
Şuşamız ........ 18
Gərək biləsən ........ 19
Xudafərin ........ 21
Neynirəm varı ........ 23
Yadıma düşüb ........ 24
Dözənmirəm ........ 26
Qayıdım ........ 27
Azərbaycan, qalx ayağa! ........ 28
Qalmasın ........ 32
De sözünü ........ 35
Bayrağımız yenilməzdi ........ 37
Qələbə bizimdir ........ 39
Qələbəyə gedirik ........ 43
Azad oldu ........ 47
Zəngilana gedirik ........ 50
Şuşaya xoş gəlmisiniz ........ 53
Qalmayıb ........ 55
Zəfər bayramı ........ 58
Zəngilanım ........ 60
Qarabağ bizimdir ........ 61
Ədalət zəfər çaldı ........ 84
Deyəcək ........ 87
Salam olsun ........ 89
Qarabağ cana gəlir ........ 91
Zəfər günüdür ........ 94
Xoş gəldiniz ........ 96

Yaşa-yaşa mənim xalqım ....98
Olur .... 101

## ŞƏXSİYYƏTLƏR HAQDA

Hz. Əli kəlamları ....106
Ya Hüseyn ....108
Sülhün keşiyində durdun atamız ....111
Azad edən Ali Baş Komandandır! ....113
Elimizin ağası ....119
Sizi sevir, bütün xalqım ....121
Ali Baş Komandanım ....124
Əziz dostum ....126
Oxuya-oxuya getdin ....128
Əsgər anası....130
Allah sizi var eləsin ....132
Şəhidliyin zirvəsinə çatdınız ....134
Günahı nə? ....137
Şəhid anası ....139
Şuşa azad olub ....140
Azərbaycan oğluyam ....142
Olubdur ....145
Qəhrəmandı analar ....147
Ana, şəhid olsam, məni ağlama ....149
Ürəyində vətən eşqi yaşayır ....152
Vətən azad oldu ....155
Şəhid olsam ağlamayın ....157
Vətənimin əsgərisən ....160
Bir millətik, iki dövlət ....161
Bəs nə oldu? ....162
Kişi olsun....164
Görmədim....166
Azərbaycan əsgəri ....168
Bir millətik ....170
Səni yüz yaşa ....172
Nə gəzirsən?....173
İnana bilmirəm....176




Qardaş....178
Ürəyinə eşq olsun....179
Qazi ....180
Əllərinə sağlıq olsun....182
Bu qələbən mübarək....183
Əsgərlər evə gəlir....186
Şad oldu ....191

## MƏHƏBBƏT HAQDA

Harda qalmısan....194
Cavab verəsən....195
Sevə bilmərəm....196
Yaşamaram ....197
Bilərsən....198
Mənim kimi sevməyib....199
Can alırmış ....200

## POEZİYA

Çətində qalmısan dünya....202
Dünya yaman çalxalanır....205
Dilim-dilim.... 207
Günahkar ....208
Evdə qalaq ....210
Olmaz ....212
Yarpaq kimidir....213
Dəyər-dəyməz ....214
Gec olacaq ....215
Eşq olsun....217
Düşməsin ....218
Yaxşıdı ....219
Atalar sözləri ....220
Müəllifdən....224

**İSMAYIL ZƏNGİLANLI**

**ƏDALƏT ZƏFƏR ÇALDI**

Çapa imzalanmışdır 15.02.2021
Kağız formatı 210 x 297
Tiraj: 200

"Tərəqqi" MMC-nin mətbəəsində
hazır materiallar əsasında
çap edilmişdir.

Azf-316403



Vətənimiz dərd çəkirdi,
Millətimiz qəm çəkirdi,
Gözlərimiz yol çəkirdi,
Prezident tapdı çarəsin.
Yendirdi ağır zərbəsin.

Dəmir yumruq düşdü işə,
Paşinyan düşdü təşvişə,
Dedi, düşdüm əcəb işə,
Prezident tapdı çarəsin.
Yendirdi ağır zərbəsin.

Hər yerə bir ad qoymuşdun,
Çaxırdan sərxoş olmuşdun,
Harda gəldi oynamışdın,
Prezident tapdı çarəsin.
Yendirdi ağır zərbəsin.

Dedi vay-vay Şuşa getdi,
Azərbaycan gör nə etdi,
Mənim işim tamam bitdi,
Prezident tapdı çarəsin.
Yendirdi ağır zərbəsin.

Ordum qovub tək qalmısan,
Ağır zərbələr almısan,
Kimliyini unutmusan,
Prezident tapdı çarəsin.
Yendirdi ağır zərbəsin.